RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 182 (9637) 25 avqust 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Dövlətə sədaqət, əsl vətənpərvərlik, layiqli vətəndaşlıq missiyası



## Daşkənddə Azərbaycan-Özbəkistan münasibətlərinin yeni kitabı yazıldı

İki ölkə arasında iqtisadi əməkdaşlıq müttəfiqlik müstəvisinə keçir

Azərbaycanla Özbəkistan arasındakı dostluq və qardaşlıq münasibətlərinin tarixi qədimdir. İllərin dolanbacları və keşməkeşləri belə bu səmimi münasibətləri poza bilməyib. Doğrudur, bəzən müəyyən səbəblərdən dolayı bu münasibət dalğalı olub. Amma o, iki qardaş xalqın arasında heç bir sərhəd yarada bilməyib. İndi Azərbaycanla Özbəkistan dünyaya dostluq, qardaşlıq, əməkdaşlıq nümunəsi sergiləyir.

15



## "Gəl sənə Laçınımı göstərim..."

Şərqi Zəngəzurun qədim diyarı Şəhər Gününü möhtəşəm təntənə ilə qeyd edir

- Bu ev də heç adi ev deyil. Qarabağın xilaskarı, bu Vətəni cənnətə döndərən İlham Əliyevin özü də bu evdə olub...

Həyatımız yuxu kimi olsa da, gördüklərimizə hətta özümüz inanmasaq belə, dövlətimizin başçısı evimizdə qonağımız oldu. Bu evin açarlarını özü bizə təqdim etdi. Bizə ən xoş arzularını çatdırdı. Artıq evsiz, eşiksiz deyilik. İndi bizə daha "qaçqın" deyən də yoxdur. İlham Əliyev Laçını gülüstana döndərib. Dünyanın hər yerindən turistlər axışıb Laçına gəlir. Turistlərin gəlişi dolanışığımıza da yaxşı təsir edir.

10-11



## "Mehriban xanım övladlarımızı yenidən həyata qaytardı"

Birinci vitse-prezident talassemiyalı xəstələrə və ailələrinə bir dünya sevinc bəxş edib

Əgər Talassemiya Mərkəzi Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa olunmasaydı, yəqin ki, xəstəlik ömrümüzə son qoyardı. Tibb ocağı daim Mehriban xanımın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın diqqət mərkəzindədir. Biz bu gün yaşadığımıza görə Mehriban xanıma, Leyla xanıma minnətdarıq.

13

# Xalqlarımızın iradəsi dövlətlərarası münasibətlərimizin təməlini təşkil edir

## Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Ukraynanı zəngin ənənələrə malik dostluq əlaqələri birləşdirir. Tarixən bir-birinə dəstək olmuş xalqlarımızın iradəsi bu gün dövlətlərarası münasibətlərimizin təməlini təşkil edir. Ölkələrimiz arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərin bugünkü səviyyəsi, bir sıra sahələrdə, xüsusilə də enerji sahəsində səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

Ərazi bütövlüyü və suverenlik məsələlərində BMT Nizamnaməsi, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanla Ukrayna qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirirlər. Biz dost Ukrayna xalqına bundan sonra da lazımi humanitar dəstək və yardım göstərmək üçün hər cür səy göstərmək niyyətimizi ifadə edirik.

Bu yaxınlarda Birləşmiş Krallıqda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini yüksək qiymətləndirirəm. Əminəm ki, Azərbaycan-Ukrayna dostluğunun və etibarlı tərəfdaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2024-cü il*

# Baş nazir Əli Əsədov Ukraynanın Baş nazirini Müstəqillik Günü münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ukraynanın Baş naziri Denis Şmıqala ölkəsinin Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məktubda Azərbaycan-Ukrayna əlaqələrinin dərin tarixi köklərə və xoş ənənələrə malik olduğu qeyd edilib.

Vurğulanıb ki, iki xalqın iradəsindən qaynaqlanan və möhkəm təməllər üzərində qurulan dövlətlərarası əlaqələrin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur.

Azərbaycan ilə Ukrayna arasında ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

# Baş prokurorun birinci müavini ATƏT-in Müşahidə Missiyası ilə görüşüb

Dünən baş prokurorun birinci müavini Elçin Məmmədov ATƏT-in Demokratik Təsisat və İnsan Haqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşatinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Cari il sentyabrın 1-nə təyin olunmuş növbədənkənar parlament seçkilərində qanunvericiliyin pozulması ilə bağlı müxtəlif mənbələrdən Baş Prokurorluğa daxil olan, habelə internet məkanı və media resurslarında aparılmış monitorinqlər nəticəsində əldə olunmuş məlumatların qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada araşdırılması, operativliyin təmin edilməsi və aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyətin təşkili məqsədilə



Azərbaycan Respublikasının baş prokurorunun sərəncamı əsasında İşçi qrupun yaradılması barədə qonaqlara məlumat verən Elçin Məmmədov həmin qrupun səmərəli fəaliyyəti və prokurorluq orqanlarının qarşısında duran vəzifələrdən bəhs edib.

Ditmir Buşati ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq azad seçki mühitinin və seçki ilə əlaqədar şikayətlərə vaxtında hüquqi qiymət verilməsinin önəmini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi "Altın Kıran - 2024" təliminin taktiki epizodunu izləyib



Qazaxıstan Respublikasında səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və onun rəhbərlik etdiyi nümayəndə heyəti Almatı vilayətinin Jarkent şəhərində yerləşən "Koktal" təlim poliqonuna gəlib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin keçirilməsi üçün poliqonda yaradılan şəraitlə tanış olduqdan sonra general-polkovnik K.Vəliyev komanda-idarəetmə məntəqəsinə gələrək "Altın Kıran - 2024" ("Qızıl Qartal - 2024") birgə taktiki-xüsusi təliminin taktiki epizodunu izləyib.

Sonra hər iki ölkənin təlimdə iştirak edən hərbi qulluqçuları ilə görüş keçirilib. Təlimdə fərqlənən hərbi qulluqçular medallarla təltif edilib, onlara qiymətli hədiyyələr verilib.

Qeyd edilib ki, "Altın Kıran - 2024" birgə taktiki-xüsusi təlimində qarşıya qoyulan bütün tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.





# Füzuli rayonunda sursat partlayıb, xəsarət alan var

Füzuli rayonunda sursat partlayışı hadisəsi baş verib. AZƏRTAC xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətləri məlumat yayıb. Bildirilib ki, hadisə işğaldan azad edilmiş Füzuli rayonunun Zərgər kəndində qeydə alınıb.

Füzuli rayon kənd sakini, tikinti işlərinə cəlb edilmiş 1978-ci il təvəllüdlü Aslanov Racu Murad oğlu mina və digər partlayıcı sursatlardan təmizlənməmiş ərazidə baş verən sursat partlayışı nəticəsində müxtəlif bədən xəsarətləri alıb. Həyatı təhlükəsi yoxdur.



Faktla bağlı Füzuli Rayon Prokurorluğunda araşdırma aparılır. ANAMA, DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

# Səhiyyə profili üzrə fəaliyyət göstərən bir qrup QHT-nin rəhbər şəxsləri ilə görüş keçirilib



Avqustun 24-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı altında səhiyyə profili üzrə fəaliyyət göstərən bir qrup QHT-nin rəhbər şəxsləri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin Elm, təhsil, mədəniyyət, səhiyyə və gender siyasəti məsələləri sektorunun baş məsləhətçisi Elçin Adıgözəlov, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Səhiyyə Nazirliyinin Aparat rəhbəri Tural Babayev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktorunun müavini Araz Nəsirov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnarə Muradova, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Zaur İbrahimli və digər məsul şəxslər iştirak ediblər.

Aparılan ətraflı müzakirələrdə səhiyyə profili üzrə iş aparan QHT-lərdən ictimai gözləntilər, Azərbaycan dövlətinin səhiyyə siyasətinin prioritetlərinə uyğun olaraq QHT-lərin ümumi işə, o cümlədən xəstəliklərin müalicəsinə dair tibbi protokolların təkmilləşdirilməsi prosesinə töhfələrinin artırılması imkanları nəzərdən keçirilib.

İctimai birlik təmsilçiləri Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaradılan COP29 QHT Koalisiyasının işində də fəal iştirak etdiklərini bildiriblər.

Qarşıdakı dövrdə səhiyyə profili üzrə fəaliyyət göstərən QHT-lərin forumunun keçirilməsi, bu sahədə ixtisaslaşmış peşə birliklərinin rolunun artırılmasına dair təkliflər səsləndirilib.

Prezident Administrasiyasının, Səhiyyə Nazirliyinin, TƏBİB-in, AHİK-in və digər əlaqədar qurumların nümayəndələri müvafiq qeydlər götürüb, təkliflər dinlənilib, suallar cavablandırılıb.

## 1 sentyabr Milli Məclisə seçkilər günüdür

# Milli Məclisə seçkilərdə 991 namizəd mübarizə aparacaq



Milli Məclisə seçkilərdə 991 namizəd mübarizə aparacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov deyib.

# Milli Məclisə seçkilərlə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb





Sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlayıb.



AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin müvafiq struktur bölmələrinin əməkdaşları, eləcə də dairə seçki komissiyalarının sədr və katiblərinin iştirakı ilə açıq və şəffaf reallaşan prosesi beynəlxalq və xarici təşkilatların, seçki müşahidə missiyalarının, media mənsublarının və maraqlı subyektlərin yaxından izləmələri üçün hərtərəfli imkan yaradılıb.

Media nümayəndələrinin geniş və operativ işıqlandırdığı proseslə tanışlıq zamanı seçki bülletenlərinin qanunvericiliyin tələblərinə uyğun hazırlanması və aidiyyəti üzrə çatdırılmasının təşkili barədə ətraflı məlumat verilib, eyni zamanda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd etmək lazımdır ki, seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanması üç gün davam edəcək və avqustun 26-da başa çatacaq. Bülletenlərin ilk gün - avqustun 24-də Naxçıvan Muxtar Respublikasındakı seçki dairələri, işğaldan azad olunmuş ərazilərdəki seçki məntəqələrinin aid olduğu seçki dairələri, o cümlədən ucqar rayonları əhatə edən seçki dairələri də daxil olmaqla, ümumilikdə 40 seçki dairəsinə, növbəti iki gün ərzində isə respublikanın bütün digər seçki dairələrinə qanunvericiliyin tələblərinə uyğun qaydada təhvil verilməsi və prosesə yekun vurulması nəzərdə tutulur. Yüksək təhlükəsizlik şəraitində hazırlanan və qorunan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən həyata keçirilir.

Xatırladaq ki, Milli Məclisə seçkilərdə seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra, avqustun 15-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və komissiyanın qərarı ilə 6 milyon 516 min 567 seçki bülleteni çap olunub.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına təhvil veriləcək.

# 107 saylı dairənin məntəqələri seçkilərə hazırdır

Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri mühüm mərhələyə qədəm qoymuşdur.



Seçki məntəqələrində hazırlıq işləri başa çatmış, seçicilərin sərbəst və şəffaf şəraitdə istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılmış, namizədlər təbliğat və təşviqat kampaniyasına başlamışlar.

Bu siyasi kampaniyaya 107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsində də hazırlıq işləri görülmüşdür. Dairəni əhatə edən 53 seçki məntəqəsinin hamısı seçkilərə tam hazırdır. Məntəqələr bir neçə ay əvvəl təmir edilmiş, zəruri avadanlıqlarla, o cümlədən elektrik generatorları, rabitə avadanlığı ilə təmin edilmişdir.

Dairənin sədri Fərman Qurbanovla söhbət zamanı məlum oldu ki, seçkiləri canlı izləmək üçün bir məntəqədə veb-kamera quraşdırılmışdır. Seçkiqabağı təbliğat və təşviqat aparılması, eləcə də təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müxtəlif ərazilərdə müvafiq yerlər ayrılmışdır. Dairə sədri onu da əlavə etdi ki, əvvəlki seçkilərdən fərqli olaraq bu seçkilərdə həm ilk dəfə səs verənlərin, həm də yaşı 70-i ötmüş seçicilərin sayında artım var: "440 nəfər ilk dəfə səs verəcək gənclər, yaşı 80-i ötmüş isə 1138 nəfər seçici qeydə alınmışdır. 3 nəfər isə yaşı 100-dən yuxarı olan ahıl nəslin nümayəndəsi həmin gün səsvermədə iştirak etməlidir".

Seçkiyə hazırlıqla bağlı görülən işlərlə əyani tanış olmaq üçün Aşağı Öysüzlü kəndində yerləşən 1 saylı seçki məntəqəsində olduq. Məntəqədə 4 nəfər ilk dəfə səs verəcək. Məntəqənin 96 yaşlı seçicisi də var. Onlarla görüş keçirilmiş, seçkilərdə iştiraklarının vacibliyi barədə söhbətlər aparılmışdır.

Dairədə parlament seçkilərinə hazırlıq işləri MSK-nın təqvim planına uyğun aparılmışdır. Keçən seçkilərdən sonra seçici siyahısında dəqiqləşdirmə aparılmış, dünyasını dəyişmiş, eləcə də başqa yerə köçmüş seçicilər müəyyənləşdirilərək siyahıdan çıxarılmışdır. Üzürlü səbəbə görə seçki məntəqəsinə gələ bilməyən, eləcə də xəstələr dəqiqləşdirilmişdir. Seçki günü həmin ünvanlara da daşınan qutu aparılması üçün məntəqə üzvlərindən ibarət nümayəndələr ayrılmışdır. Bir sözlə, 107 saylı Tovuz-Qazax-Ağstafa dairəsini əhatə edən bütün məntəqələr parlament seçkilərinə tam hazırdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Xalqın sevgisini qazanan insan

**Humanistliyi həyat amalına çevirən, xalqı üçün çalışan şəxsiyyətlərin ideyaları, xoş məramları və əməlləri hər zaman nümunə olur. Məhz xeyirxahlığı, nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva nəsillər üçün əsl nümunədir və tariximizin şanlı salnaməsində öz dəst-xəti ilə seçilən şəxsiyyətlərdəndir.**

Özünün xeyriyyəçilik fəaliyyəti ilə sosial bir təməl yaratmaqla yanaşı, gələcək nəsillərə də nəcib bir yolun əsas istiqamətlərini göstərən ölkəmizin birinci xanımı Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarından güc alaraq, cənab İlham Əliyevin düşünülmüş siyasətinə arxalanaraq reallaşdırdığı genişmiqyaslı layihələrlə hamının hörmətini, məhəbbətini qazanmışdır. Onun çoxşaxəli fəaliyyəti həyatımızın bütün sahələrinə dərindən nüfuz etmişdir və Mehriban xanımın yüksək bacarığı, diqqəti, qayğısı, ölkəmizin ictimai-siyasi, eləcə də mədəni həyatındakı rolu, mühüm xidmətləri danılmazdır.

Mehriban Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti onun nəcib əməllərindən xəbər verir. Əsasında mərhəmət, şəfqət, xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu artıq 20 ildir ki, öz prinsiplərinə sadiq qalır. Məhz həmin ali dəyərləri rəhbər tutaraq Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir. Həmin layihələr cəmiyyətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Çünki Azərbaycan cəmiyyəti sözügedən layihələrin inkişafa xidmət edən uğurlu layihələr olduğuna əmindir, xüsusən də Birinci vitse-prezidentin humanizminə, xeyirxahlığına, vətəninə, dövlətinə, xalqına nümunəvi xidmətinə güvənir.

Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev fondunun Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirdiyinə hər kəs əmindir. Bu əminlik heç də təsadüfi deyil, çünki görülən işlər, fondun bütün istiqamətlərdə qazandığı uğurlar göz önündədir. Fond ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək göstərməyi, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirməyi, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləməyi, sağlam həyat tərzini təbliğ etməyi, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar, eləcə də uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etməyi, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməyi öz fəaliyyətində prioritet məsələlər kimi görür.

Xüsusilə qeyd etmək yerinə düşərdi ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ələlxüsus ölkəmizin üzləşdiyi təcavüzkarlıq faktına diqqət çəkməsi istiqamətində Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti danılmazdır. Fondun dəstəyilə artıq uzun illərdir ki, müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunan konfransların, tədbirlərin keçirilməsi olduqca əhəmiyyətlidir. Aksiyalarda ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillərin, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materialların, "Qarabağ həqiqətləri" adlı bukletlərin, eləcə də "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabının təqdim olunması milli maraqlarımıza xidmət edir ki, bu da məhz Mehriban xanım Əliyevanın rəhbərliyi, əməyi, Heydər Əliyev Fondunun fəaliyyəti sayəsində reallaşdırılır.

Xalqımıza məxsus olan mədəni irsin dünyada təbliğ edilməsində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində, Azərbaycanın sivilizasiyalararası dialoqda fəal iştirakında və rolunun artmasında da Mehriban xanım Əliyevanın fəaliyyəti təqdirəlayiqdir. Dünyanın mötəbər qurumlarının tribunasından Azərbaycanın üzləşdiyi çətinlikləri, işğal faktını və işğal nəticəsində Azərbaycan mədəniyyətinə, tarixi abidələrinə dəyən zərərlər barədə məsələləri Mehriban xanım Əliyeva dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Təsadüfi deyil ki, həm qadın, həm ana, həm də yeni siyasi təfəkkür daşıyıcısı olan, dövlət xadimi kimi qadınların ictimai fəallığını əks etdirən yeni modelin müəllifi olan Mehriban xanım hamı üçün bir nümunə sayılır və bu statusda müasir dünyada nümunəvi fəal qadın və siyasi xadim kimi qəbul edilir. Bu isə xalqımız üçün sevindirici və qürurvericidir. Buna görə Azərbaycan cəmiyyətinin layiqli dövlət xadimi ilə qürur duymağa haqqı var.

Xalqımız Mehriban xanım Əliyevanın öz missiyasına, amalına sadiqliyinə pandemiya ilə mübarizə dövründə bir daha əmin oldu. Xalqa müraciət edərək hər kəsi "gözəgörünməz düşmən"lə mübarizədə birlik, həmrəylik nümayiş etdirməyə çağıran ölkənin birinci xanımının humanist fəaliyyəti bu ağır dövrdə bir daha özünü göstərdi. Birinci vitse-prezidentin "Evdə qal, sağlam qal!" şüarı ilə irəli sürdüyü təşəbbüs həqiqətən də cəmiyyətdə böyük dəstək qazandı. Ölkədə elan edilən karantin müddətində məhz Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun "Biz birlikdə güclüyük!" şüarı ilə xeyriyyə aksiyaları keçirməsi xüsusi rəğbətlə qarşılandı. Məhz bu aksiyalar çərçivəsində 200 mindən çox ailəyə ərzaq məhsullarından ibarət sovqatların paylanılması fondun xeyirxahlıq missiyasını bir daha nümayiş etdirdi.

Azərbaycanın milli-mənəvi dəyərlərinin xalqımız üçün qiymətli olduğu danılmazdır və dünyaya inteqrasiya prosesinin sürətləndiyi bir dövrdə dəyərlərimizin təbliğinin, dünyaya çatdırılmasının əhəmiyyətinin nə dərəcədə əhəmiyyətli olduğunu təsəvvür etmək çətin deyil. Şərqlə Qərbi özündə birləşdirən Azərbaycan mədəniyyətinin geniş təbliği, eləcə də sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər əvəzsizdir. Çünki ölkəmizin imicinin yüksəldilməsində, onun dünyaya təqdim olunmasında görülən işlərin məhz dövlətin maraqlarını ifadə etdiyi hər kəsə bəllidir.

Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr ölkə hüdudları ilə məhdudlaşmır. Mehriban xanım Əliyevanın fəaliyyəti ümumbəşəri mahiyyəti ilə hər zaman diqqəti cəlb edir. Birinci vitse-prezidentin Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq miqyasda hər zaman təqdir edilir. Xüsusən də şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı məsələlərin Birinci vitse-prezidentin fəaliyyətində ən mühüm məqamlardan, istiqamətlərdən birini, bəlkə də birincisini təşkil etməsi cəmiyyətimizdə yüksək qiymətləndirilir.

Valideyn himayəsindən məhrum uşaqların mənəvi anası, dərdli şəhid analarının, qazilərin, qaçqın və məcburi köçkünlərin dayağı olan Mehriban xanıma xalqımızın böyük sevgisi başadüşüləndir. Harada yardıma, köməyə, dəstəyə möhtac biri varsa, onun məhz Mehriban xanımın pənahında olduğunu hər bir azərbaycanlı çox yaxşı bilir. Xeyirxah qəlbinin səsi ilə bütün qüvvəsini, zamanını təmənnasız olaraq insanların rifahı, xoşbəxt yaşamı uğrunda sərf edən birinci xanım həqiqətən də böyük hörmətə, ehtirama, sevilməyə layiqdir. Özündə humanistliyi, xeyirxahlığı, mərhəməti cəmləşdirən Azərbaycanın birinci xanımının bütün insani keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhəti isə, əlbəttə ki, onun məhz müstəqil Azərbaycan dövlətinin yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşı olmasıdır.

Özünəxas yüksək işgüzar və mənəvi keyfiyyətlərlə, mükəmməl təşkilatçılıqla və idarəçilik qabiliyyəti ilə ona həvalə edilən vəzifəni layiqincə daşıyan Mehriban Əliyevanın xidmətləri sadalandıqca bitən deyil. Xalqımız, dövlətimiz, bütövlükdə Azərbaycanımız üçün onun nə qədər fədakarlıqla çalışdığını hər kəs görür. Birinci xanım ölkədə həyata keçirilən siyasi kursun uğur qazanmasına mühüm töhfələr verir.

Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsinə xidmət edən mühüm bir addım atılması, Prezident İlham Əliyevin təşəbbüsü əsasında Konstitusiya islahatları ilə bağlı keçirilən referendumun nəticələrinə görə, ölkədə Birinci vitse-prezidentlik institutu yaradılması heç də cəmiyyətimizin diqqətindən yayına bilməzdi. 2017-ci il 21 fevral tarixdə dövlət başçısının imzaladığı sərəncama əsasən, Mehriban Əliyevanın məhz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması cəmiyyətimiz tərəfindən coşqu və böyük sevinclə qarşılandı. Çünki hər kəs çox yaxşı başa düşürdü ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu mühüm dövlət vəzifəsinə ölkəmizin ictimai-siyasi, mədəni həyatında uzun müddət oynadığı vacib, əvəzolunmaz və fəal rolu sayəsində yüksəlib.

Azərbaycanın birinci xanımının sözügedən təsisata illərdir uğurla rəhbərlik etməsi göz önündədir. Bu institut Azərbaycanın çağdaş, demokratik simasının yeni və mütərəqqi əlaməti kimi xarakterizə edilə bilər. Hətta yarandığı gündən etibarən funksional siyasi təsisat kimi uğurlu fəaliyyət göstərdiyini də müşahidə edirik. Ötən müddət ərzində Birinci vitse-prezidentlik institutunun idarəetmənin səmərəlilik və çevikliyini artırdığı danılmazdır. Əlbəttə ki, burada Birinci vitse-prezidentin yüksək şəxsi keyfiyyətləri, peşəkar idarəetmə bacarığı, işinə dürüst, məsuliyyətli yanaşması, qarşısına qoyduğu məqsədlər üçün əzmlə çalışması, ölkənin, xalqın maraqlarını hər şeydən üstün tutması başlıca rol oynayır. Mehriban Əliyevanın ictimai rəydə formalaşmış mükəmməl obrazının əsas cizgisi mərhəmətlilikdir ki, bu da Birinci vitse-prezident vəzifəsinə başladığı ilk günlərdən özünü büruzə verməkdədir. Məhz ilk müşavirəsini keçmiş məcburi köçkün soydaşlarımızın problemlərinə həsr edən, onları daha yaxından dinləyən, qayğılarının yüngülləşdirilməsi, firavan həyat şəraitinin təmin edilməsi üçün gərəkli tapşırıqlar verən birinci xanıma xalqının sevgisi bu humanistliyinə, insanpərvərliyinə, xeyirxahlığına, mərhəmətinə görə bitməz və tükənməzdir.

Əhalinin sağlamlığının qorunması, sosial baxımdan həssas əhali qruplarının problemlərinin həllində tədbirlər görülməsi istiqamətində fəaliyyətin prioritet olaraq qəbul olunması da təqdirəlayiq haldır. Heç şübhəsiz ki, insanların səhhətinin, sağlamlığının qorunması, qayğısına qalınması böyük bir humanizm, insanpərvərlik, xeyirxahlıq nümunəsi olaraq qəbul edilir. Bütün bunlarla yanaşı, bütövlükdə Azərbaycan xalqının yaratdığı milli mədəniyyət və incəsənət nümunələrinin dünyada tanıdılması istiqamətində layihələrin reallaşmasının nəzərdə tutulması özü də böyük bir addım hesab olunur. Azərbaycan muğam sənətinin inkişafında və təbliğində, istedadlı gənclərin tanıdılmasında və mükafatlandırılmasında, mədəniyyətlə bağlı tədbirlərin genişləndirilməsində Mehriban xanımın xidmətləri əvəzsizdir.

Mehriban xanım Birinci vitse-prezident olaraq öz fəaliyyət istiqamətlərini müəyyənləşdirdiyi zaman ölkədə idman hərəkatının davamlılığının təmin edilməsini, ekoloji problemlərin həllinə dəstək göstərilməsini, işğaldan azad olunmuş ərazilərin bərpasında humanitar missiyanın həyata keçirilməsi istiqamətlərini prioritet olaraq qəbul etməklə bir daha sübut etdi ki, xalqının da, Prezidentinin də etimadına layiqdir.

Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, 2005-ci ildən 2017-ci ilə qədər Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü olaraq qazandığı böyük təcrübə Birinci vitse-prezidentlik institutunda ona öz sözünü mükəmməl şəkildə deməyə imkan verir. Belə ki, effektiv təşkilatçılıq, ən mühüm qərarların qəbul olunması və çeviklik Mehriban Əliyevanın uğurlu fəaliyyətini şərtləndirən əsas amillərdəndir.

Mehriban xanımın müharibə günlərində yaralı əsgərlərimizlə görüşləri zamanı, işğaldan azad olunmuş ərazilərimizi gəzərkən, kimsəsizləri bağrına basarkən, atasız-anasız uşaqları bir ana nəvazişi ilə əzizləyərkən necə kövrəldiyinin, hansı hisslər keçirdiyinin şahidiyik. O, idmançılarımız beynəlxalq yarışlarda Azərbaycan bayrağını zirvələrə qaldıranda da, qələbəmiz, uğurlarımız dilə gətiriləndə də, yeni bir şəhərin, kəndin, məktəbin, xəstəxananın, idman kompleksinin təməli qoyulanda da sevincdən təsirlənir. Bu qəlbdən gələn hissdir, insana, qələbələrə dəstəkdir. Mehriban xanım bütün bu hadisələrin, görüşlərin təşkilatçısı, fəal iştirakçısıdır. Azərbaycanın bugünkü inkişafında, uğurlarında bir dövlət xadimi, vətəndaş kimi onun xidmətləri əvəzsizdir.

Azərbaycançılıq məfkurəsini həyat amalına çevirən bu insanın tariximizlə, dilimizlə, dinimizlə bağlı olan arzuları, istəkləri, düşüncələri ulularımıza rəğbətindən qaynaqlanmaqla bərabər, gələcək nəsillər üçün bir vətəndaşlıq, torpağa, vətənə məhəbbət nümunəsidir. Mehriban xanım dünyaşöhrətli ictimai-siyasi xadim, sevimli ana, sədaqətli həyat yoldaşıdır. Qayğısını, diqqətini insanlara əsirgəməyən, minlərlə insana əl tutan, kömək edən humanist bir vətəndaşdır. O, sadəliyi, nəcibliyi, xeyirxahlığı ömrünün mənası hesab edir. Belə dəyərlərə, insani keyfiyyətlərə malik olan insan isə xoşbəxtdir. Ürəyi daim xalqı, torpağı, vətəni ilə döyünən, istəkləri, inamları torpaqlarımızın azadlığı, tam suverenliyi ilə qovuşan, dövlətimizin inkişafından, xalqımızın birliyindən qürur duyan və uğurlarımızda unudulmaz xidmətləri olan Mehriban xanım Əliyeva dövlət xadimi, ana, etibarlı həyat yoldaşı, mübariz qadın və sədaqətli vətəndaş kimi xoşbəxtlərin xoşbəxtidir. Belə ömür, belə gün, belə həyat unudulmazdır, hamı üçün əziz və əbədidir.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***




# "Yumşaq güc" siyasətinin təcəssümü

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə Vətənə sədaqət, xalqa xidmət və milli dəyərlərə hörmət nümunəsi yaradıb. Mehriban xanım Əliyevanın müxtəlif sahələri əhatə edən məqsədyönlü fəaliyyəti ölkəmizin inkişafına, xalqımızın rifahının yaxşılaşmasına, müstəqil Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə xidmət edir, respublikamızın davamlı nailiyyətlər qazanmasını təmin edir.

Ona görə də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri, YAP Sədrinin birinci müavini Mehriban Əliyevanın gördüyü işlər xalqın rifahına və dövlətin inkişafına həsr olunmuş çoxşaxəli fəaliyyət kimi səciyyələndirilir.

Mehriban xanım Əliyevanın atdığı addımlar, irəli sürdüyü təşəbbüslər Azərbaycan dövlətinin milli gücünün artmasını, ölkəmizin beynəlxalq imicinin möhkəmlənməsini şərtləndirib. O, eyni zamanda Azərbaycan qadınının dünyada müsbət obrazının möhkəmlənməsində, ölkəmizdə qadınların həyatın müxtəlif sahələrində fəallığının artmasında müstəsna rol oynayıb. Mehriban Əliyeva ölkəmizdəki qadın hərəkatı tarixində ilk şəxsiyyətdir ki, maarifçilikdən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət məkanını əhatə edir. Mehriban xanım həmçinin humanizmin və xeyirxahlığın təşviqinə xidmət edən dəyərli fəaliyyət örnəyi yaradıb. Onun həssas sosial qrupların problemlərinin həllini daim diqqətdə saxlaması, şəhid ailələrinə, qazilərə, məcburi köçkünlərə, ahıllara, kimsəsizlərə, irsi qan xəstəliyindən və digər xəstəliklərdən əziyyət çəkən şəxslərə xüsusi qayğı göstərməsi mühüm əhəmiyyətə malikdir.

Mehriban xanım Əliyevanın Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində çoxşaxəli fəaliyyəti də böyük önəm kəsb edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hərtərəfli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Onun hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin dünyada təbliği sahəsində gördüyü işlər əsl örnəkdir. "Yumşaq güc" siyasətinin təcəssümü olan Mehriban xanım Əliyevanın humanitar layihələri ölkəmizə yeni dostlar qazandırır. Onun xeyriyyəçilik tədbirləri bir sıra ölkələri, qitələri əhatə edir. Prezidenti olduğu Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada ölkəmizin təqdimatı və təbliğidir. Birinci vitse-prezidentin rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir.

Birinci xanım tərəfindən Azərbaycan xalqının yaratdığı milli mədəniyyət nümunələrinin dünya miqyasında təbliği, ümummilli məsələlərlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində məqsədyönlü işlər görülür. Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycan ilə məhdudlaşmır, daha geniş coğrafiyanı əhatə edir və sözün əsl mənasında, xalqlar və mədəniyyətlərarası əlaqələrin inkişafına dəyərli töhfə verir. Bunun nəticəsidir ki, Mehriban xanımın fəaliyyəti beynəlxalq miqyasda yüksək qiymətləndirilir. O həm də xalqlararası münasibətlərin və sivilizasiyalararası dialoqun inkişafına özünəməxsus töhfələr verir ki, bu da beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Çoxsaylı təltiflər məhz Mehriban xanım Əliyevanın beynəlxalq əhəmiyyətli fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir. Azərbaycanın Birinci vitse-prezidenti bütövlükdə öz fəaliyyəti ilə ölkəmizin inkişafına dəyərli töhfələr verir, respublikamızı beynəlxalq miqyasda uğurla təmsil edir.

Xüsusilə qeyd etməliyik ki, Mehriban xanım Əliyeva öz xalqına və dövlətinə qırılmaz mənəvi tellərlə bağlıdır. Onun müxtəlif vəzifə və statuslarda bu zamana qədərki fəaliyyəti - Azərbaycan naminə gördüyü genişmiqyaslı işlər cəmiyyətdə ona böyük inam və rəğbət yaradıb. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərinə də Mehriban xanım öz töhfələrini verir. Birinci xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu həmin ərazilərdə dini, mədəni və tarixi abidələrimizin bərpası ilə məşğuldur. Bu gün hər bir Azərbaycan vətəndaşı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini olduqca yüksək dəyərləndirir.

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

**Cənab İlham Əliyevin prezidentliyindən sonra Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini nəinki Azərbaycana, həm də dünyaya təqdim etmək imkanı yarandı. Mehriban xanım dövlət başçısı ilə birlikdə XXI əsrdə Azərbaycan dövlətinin, millətinin ağır və məsuliyyətli yükünü çiyinlərinə aldı. Bu ailə modeli ilə həm də Şərq qadınının dəyanətli, zəhmətkeş, bununla yanaşı, humanist, son dərəcə sadə, mehriban obrazı cəmiyyətə təqdim olundu.**

# Azərbaycan qadınının qürur simvolu



Nəzərə alsaq ki, Şərq xalqlarında qadının ictimai-siyasi işlərdə çalışmalarına bəlli münasibət var, onun birinci şəxsi tamamlaması, cəmiyyətin arzu və istəklərinə cavab verməsi, həmçinin dövlətin beynəlxalq mənafelərini üstün tutaraq bərabər addımlaması istənilir. Bu mənada ilk olaraq birinci xanım kimi üzərinə götürdüyü iş Heydər Əliyev Fondu üzərindən ölkə miqyasında tikilən məktəblər, bağçalar, xüsusilə inklüziv sahədə fəaliyyət, məhdudiyyətləri olan, daha çox qayğıya ehtiyacı olanlar üçün atılan addımlar Mehriban xanımın cəmiyyətə dolğun obrazını təqdim etməyə imkan verdi və xalqımız onu sevdi. Sonrakı dövrdə görülən işlərin miqyası o qədər çoxşaxəli, tutumlu və hərtərəfli idi ki, bunu dövlət həyatından ayrıca təsəvvür etmək qeyri-mümkün idi. Düşünürəm ki, bu mənada ilk növbədə mədəniyyətimizin inkişafı üçün görülən tədbirlər misilsiz oldu. Musiqinin, incəsənətin istənilən sahəsinin inkişafı ilə bağlı atılan addımlar, sistemli tədbirlər çox həssas və qayğıya ehtiyacı olan bu sferanı ayağa qaldırdı, qorudu, saxladı. Əsrlərdən gələn ənənələrimizi hifz elədi və onu millətimizin qoruyucu zirehinə çevirdi. Eyni zamanda xarici məkanda - Romada katakombaların bərpası, o cümlədən Fransada müxtəlif sferaların inkişafı, həm UNESCO, həm də ICESCO-nun xoşməramlı səfiri kimi bu mandatı millətin mənafelərinə xidmət etdirdi.

Hər kəs yaxşı başa düşür ki, mədəniyyət dünya çapında "yumşaq güc" siyasətinin dövlətin mənafelərini tanksız, topsuz yürütmək platformasının, strategiyasının dəqiq, sistemli planlarının ayrılmaz hissəsidir. Bu, həqiqətən bir savaş silahıdır. İlk növbədə tariximizi, milli varlığımızı qorumaq, eyni zamanda beynəlxalq məkana çıxmaq, Azərbaycanın yüz illər ərzində yaradılan obrazını, xüsusilə son 30 ildə millətimizin adına vurulan yarlıqlardan xilas olmaq üçün Mehriban xanımın beynəlxalq miqyaslı işləri Prezident İlham Əliyevin strateji kursunu tamamladı və ona son dərəcə böyük dəstək verdi. Hesab edirəm ki, bu, xalqımızın savaşa hazırlıq dövründə çox önəmli oldu. Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyətinin böyük bir hissəsini şəhid ailələri, Vətən müharibəsi qaziləri, veteranları ilə münasibəti, onlara qayğısı təşkil edir. İnformasiya məkanında bu barədə yüzlərlə kiçik hekayələrin, paylaşımların, şərhlərin, böyük yazıların şahidi olacaqsınız. Mehriban xanımın şəhid ailələri ilə görüşlərdə səmimi olaraq onları bağrına basması, onlarla bərabər kədərlənməsi, onların ağrılarını bölüşməsi millətin baxışında dərin izlər qoyur. Müsbət mənada dövlətlə xalqı, Prezident və ailəsi ilə millətini birləşdirir.

Hər zaman Prezident İlham Əliyevi müşayiət edərkən bir addım geridə, amma mahiyyət etibarilə ölkə rəhbərini tamamlayan miqyasda atılan addımlar mühüm rol oynayır. Onun fəaliyyəti, humanist addımları amnistiya çağırışlarında da özünü aydın göstərir. Bununla nə qədər ailələr sevinib. Eyni zamanda xəstəliyi olanların, xaricdə müalicəyə ehtiyacı olan on minlərlə ailələrin Mehriban Əliyevaya müraciətləri etibarın, ümidin, inamın bir ifadəsidir.

2020-ci ildə başlayan Vətən müharibəsində şəhid olanların ailələrini Mehriban xanımın dövlət başçısı ilə birlikdə ziyarət etməsi, qazilərimizə xəstəxanada baş çəkərkən göz yaşlarını qürurla gizlətməyə çalışması Azərbaycan qadınının obrazının, əslində, simvollaşmış halda Mehriban xanımda təcəssüm etdiyini bir daha göstərir. Qələbəmizdə Azərbaycan qadınlarının böyük payı olduğunu daim qeyd edirik, bu qələbənin önündə həm də Mehriban xanım gedib. Birinci xanım qələbəmizin ildönümünə həsr olunmuş böyük ümumxalq yürüşündə də ölkə rəhbəri ilə çiyin-çiyinə addımladı.

Düşünürəm ki, Şərq qadını dövlət və millət həyatı üçün məhz belə olur. Ona görə də qalibiyyətdən, zəfərimizdən danışarkən Mehriban xanımın böyük, misilsiz xidmətlərini qeyd etməliyik. O, bu illər ərzində bəlkə də yüz illərə sığmayan işlər görüb. Düşünürəm ki, Ulu Öndər Heydər Əliyevdən dərs aldığı - dövlətçilik, xalqın mənafeyinin qorunması, mətinlik, təvazökarlıq, mübarizlik, sadəlik - hamısı Mehriban xanımın obrazında öz ifadəsini tapır. Bir sözlə, Azərbaycan insanının nəzərində Mehriban xanım həm də zəfərimizin xanım obrazlarından biridir.

*Yubiley münasibətilə Mehriban xanımı səmimi-qəlbdən təbrik edirik. Beynəlxalq hücumlar, bəlli dairələrin iftira və böhtanları olmasına baxmayaraq, dövlətimizin gələcək böyük qələbələrində Prezident İlham Əliyevlə çiyin-çiyinə Mehriban xanımın da addımlamasını arzulayırıq. Ona və ailəsinə ən xoş arzularımızı ifadə edirik.*

**Zahid ORUC,**
***Milli Məclisin İnsan hüquqları komitəsinin sədri***

# Şəfqət və mərhəmət nümunəsi

**Hər bir xalq özünün layiqli övladları, yetişdirmələri ilə tanınır, dünyaya çıxır, uğur qazanır. Hər bir toplumu xalqa, millətə çevirən onun parlaq, işıqlı zəka sahibləri, öndə gedən layiqli övladlarıdır. Bu baxımdan xalqımızı, millətimizi şansı gətirənlərdən hesab etmək olar.**

Çünki uzun əsrlərdən, yüzilliklərdən bu yana hər bir tarixində Azərbaycan xalqının çox böyük oğul və qızları, mütərəqqi, parlaq zəkalı, tarixi şəxsiyyətləri, ziyalıları olub. Onlar hər biri öz fəaliyyəti ilə həm xalqımızın, həm dövlətimizin və dövlətçiliyimizin tarixinə, həm də bəşər tarixinə öz möhürlərini vurub, adlarını tarixə, yaddaşlara qızıl hərflərlə həkk etdiriblər.

Azərbaycan xalqının belə layiqli övladlarından, parlaq zəka sahibi olan vətən sevdalılarından biri də Birinci vitse-prezidentimiz, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır.

Mehriban xanım Azərbaycanın ən tanınmış ziyalılar ailəsindən - Paşayevlər və İmanquliyevlər nəslindəndir. Həm də XX əsrin ən böyük tarixi şəxsiyyətlərindən, müstəqil Azərbaycanın qurucusu və memarı olan Ulu Öndərin - Əliyevlər ocağının təmsilçisi, nümayəndəsidir.

Mehriban xanım əsl Azərbaycan qadını, ana, ziyalı, həm də əsl dövlət və siyasət adamıdır. Mehriban xanım istər zamanında həkimlik, istərsə də ictimai-siyasi, humanitar fəaliyyəti ilə məşğul olduğu dövrdə digərlərindən fərqlənib, seçilib, harada olubsa, öz imzasını atıb, möhürünü vurub. Bütün bunları Mehriban xanım öz istedadı, bacarığı, titanik və yorulmaz, Azərbaycan naminə fəaliyyəti ilə bir ömrə sığdıra bilib.

Mehriban Əliyeva eyni zamanda Azərbaycanın qalib və Müzəffər Ali Baş Komandanı, ölkəmizi son 21 ildə sözün həqiqi mənasında qələbələrdən-qələbələrə aparan Prezident İlham Əliyevin ən yaxın, sadiq və ən etibarlı silahdaşıdır. Onlar qoşa addımlayır və hər addımları ilə də tarix, dastan yazır, Azərbaycanın imzasını imzalar içində tanıdırlar. Məhz 7 il öncə ölkə rəhbərinin Mehriban xanımı Birinci vitse-prezident vəzifəsinə təyin etməsi də sıradan təyinat deyildi, həm də ona olan güvən, etimad və etibar idi. Prezident bilirdi və əmin idi ki, bütün sahələrdə, məsələlərdə üzərinə düşən bütün ağır və məsuliyyətli işlərdə hər zaman etimadı doğruldan Mehriban xanım bu çətin vəzifənin də öhdəsindən tam layiqincə gələcək, ona olan inamı bir daha doğruldacaq.

Son 7 ildə Mehriban xanımın parlaq fəaliyyəti deyilənlərin əyani sübutu və təsdiqidir. Hər bir məsələdə, hər bir işdə olduğu kimi, bu ali dövlət vəzifəsində də Mehriban Əliyeva daim Azərbaycan insanının yanında oldu və bu gün də yanındadır. Bu illər ərzində ona yüksək etimad göstərən Prezident İlham Əliyevin, bütövlükdə cəmiyyətimizin, Azərbaycan vətəndaşının etimadını, güvənini tam mənada doğruldub və bu gün də doğrultmaqdadır. Bu, bütövlükdə hər birimizin uğuru, iftixar hissi və qürur mənbəyidir. Azərbaycan xalqının 44 günlük tarixi Vətən müharibəsi günlərində və ondan sonra Qarabağda, işğaldan azad olunmuş yerlərdə başlanan dirçəliş, Böyük qayıdış hərəkatında Mehriban xanımın rolu, fəaliyyəti misilsiz və ölçüyəgəlməzdir.

Hər zaman şəhid ailələri və qazilərə həssas münasibəti ilə seçilən Mehriban xanım İkinci Qarabağ müharibəsi günlərində də Qarabağın azad olunması yolunda sağlamlıqlarını itirmiş vətən övladları, qazilərlə bir araya gəldi, onlara ana, bacı şəfqəti göstərdi.

Mehriban xanım Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri kimi çoxdan özünü dünyaya rəhm, mərhəmət, şəfqət simvolu olaraq tanıdıb və təsdiq edib. Təşəbbüsçüsü, icraçısı, dəstəkçisi olduğu sosial-humanitar layihələrlə Mehriban xanım nəinki Azərbaycanda, onun hüdudlarından çox-çox uzaqlarda da qayğıya, mərhəmətə, köməyə ehtiyacı olanların ürəklərini fəth edərək onların qəlblərində özünəməxsus yer tutub. Qürur duyur, iftixar hissi keçiririk ki, dünyada mərhəmət və şəfqət simvoluna çevrilmiş Mehriban Əliyeva məhz bizim - Azərbaycan xalqının qızı, övladıdır.

Heç təsadüfi deyil ki, xeyirxahlıq, mərhəmət, insanpərvərlik nümunəsi olan Mehriban Əliyevanın ölkə daxilində həyata keçirdiyi humanitar missiyası dövlətimiz tərəfindən yüksək dəyərləndirilib və o, Azərbaycanın ən ali dövlət mükafatlarına - "Heydər Əliyev" ordeninə və Heydər Əliyev mükafatına layiq görülüb. Bundan başqa, xidmətlərinə görə bir sıra xarici ölkələrin ali dövlət mükafatlarını da qazanıb.

Mehriban Əliyeva eyni zamanda Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktorudur. Bütün bunlar Mehriban xanımın uğuru olmaqla yanaşı, həm də Azərbaycan adına qazanılan nailiyyətlər, təltiflərdir.

Yarandığı, fəaliyyətə başladığı gündən xeyriyyəçiliyi, mərhəməti, şəfqəti özü üçün deviz seçən Heydər Əliyev Fondu 20 il ərzində böyük uğurlara nail olub, zəfərlərə imza atıb. Ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü, iştirakı, xeyir-duası ilə düz 20 il öncə yüksək amallar naminə yola çıxan, qarşısına böyük hədəflər qoyan Heydər Əliyev Fondu fəaliyyəti ilə nəinki Azərbaycanda, hətta onun hüdudlarından çox-çox uzaqlarda tanınıb, şöhrətlənib. Həm özü tanınıb, həm də Azərbaycanı tanıdıb. Bu fond nəinki Azərbaycanda, tam qətiyyətlə demək olar ki, dünyada rəhm, mərhəmət, şəfqət ünvanına çevrilib. Fondun rəhbəri, Birinci vitse-prezident Mehriban Əliyeva azərbaycanlıların, bütövlükdə dünyada mərhəmətə, şəfqətə, qayğıya ehtiyacı olan milyonların sevimlisinə çevrilib. O, Azərbaycanda və dünyada harada yaşamasından asılı olmayaraq, yardıma ehtiyacı olan insanların yanında olub, onların harayına, imdadına yetişib, himayədarına çevrilib, ana, bacı, övlad məhəbbəti, sevgisi göstərib. Onlarla ağlayıb, kədərlənib, onlarla gülüb, birgə sevinib, şadlanıb. Budur Mehriban Əliyeva sevgisi, nümunəsi...

Mehriban Əliyevanın birbaşa təşəbbüsü və iştirakı ilə illər öncə Azərbaycanda, o cümlədən dünyanın bir neçə ölkəsində böyük layihələrə start verilib. Həmin layihələrdən biri məhz "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır ki, ötən illər ərzində ölkənin elə bir bölgəsi, guşəsi qalmayıb ki, oranı əhatə etməsin. Heydər Əliyev Fondunun layihələri əsasında yüzlərlə uşaq bağçası, məktəblər tikilib və ya müasir standartlara uyğun təmir olunub. Mehriban xanımın humanist, xeyirxahlıq fəaliyyəti yalnız ölkə daxili ilə məhdudlaşmır, ölkə miqyasından kənara çıxaraq beynəlxalq humanitar təşəbbüsə çevrilib. Belə ki, digər ölkələrdə də məktəblər tikilir və təmir olunur. Pakistanda, Gürcüstanda, Rusiyada, Hollandiyada, Misirdə həyata keçirilən layihələr buna misaldır. Bunlar Mehriban xanımın təhsilin inkişafına, Azərbaycanın işıqlı gələcəyinə, parlaq sabahına verdiyi əvəzsiz, misilsiz töhfələrdir. O dövlət, cəmiyyət güclü olur ki, onun təhsil sistemi güclü, rəqabətədavamlı və dayanıqlı olsun. Heydər Əliyev Fondunun da qarşıya qoyduğu, hədəflədiyi ən mühüm məqamlardan biri məhz təhsilimizin inkişafı, savadlı, bilikli, müasir və milli dəyərlərinə bağlı gəncliyin yetişməsi, yüksək standartlara cavab verən modern təhsil müəssisələrinin yaradılmasıdır.

Ötən illər ərzində Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu əhalinin sağlamlığının qorunması məsələsində də yaxından iştirak edib. Fondun bu istiqamətdə həyata keçirdiyi layihələrlə tanış olduqda, onların mahiyyətini dərk etdikdə bir daha əminlik yaranır ki, Mehriban xanımın fəaliyyəti səhiyyənin inkişafına da sistemli yanaşmanı ön plana çəkir. Çünki səhiyyə, əhalinin sağlamlığının təmin olunması ayrı-ayrı lokal tədbirlərlə deyil, ona sistemli yanaşma ilə ölçülür. Bu baxımdan fondun bu istiqamətdə müəyyən etdiyi başlıca vəzifələrdən biri uşaq evləri və internatlardakı azyaşlı və yeniyetmələrə, şəhid, qaçqın, məcburi köçkün və aztəminatlı ailələrdən olan, habelə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım etməkdir. Eyni zamanda ötən illər ərzində onlarca xəstəxananın, sağlamlıq mərkəzlərinin tikilməsi və ya yüksək səviyyədə təmir edilərək yenidən istifadəyə verilməsi ən mühüm işlərdəndir. Bunlar hamısı Mehriban xanımın və rəhbərlik etdiyi fondun təmənnasız xidmətləridir.

Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri də Azərbaycan mədəniyyətinin dünyada tanıdılması, təbliğidir. Bu yöndə atılan addımların nəticəsidir ki, bu gün Azərbaycan mədəniyyəti, xüsusilə milli kimlik göstəricilərimizdən olan muğam sənətimiz özünün ikinci nəfəsini, inkişaf, intibah mərhələsini yaşayır. Bu gün Azərbaycan muğamı dünyaya səs salmaqda, ən geniş salonları, məkanları fəth etməkdədir. Ümumiyyətlə, hər il təşkil edilən beynəlxalq musiqi yarışmaları nəinki Azərbaycanın, hətta dünyanın mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirilir.

Ümumiyyətlə, Mehriban xanım Əliyeva ictimai-siyasi fəaliyyəti dövründə ona göstərilən etimadın, həvalə olunan vəzifələrin öhdəsindən uğurla, şərəflə gəlib və bu gün də həmin missiyanı ləyaqətlə davam etdirir. Bu gün hər bir Azərbaycan vətəndaşı ona güvənir və inanır. Mehriban xanım da ona olan güvəni və etimadı həmişə doğruldub. Bütün uğurların, qələbələrin kökündə məhz inam və etimad dayanır. Bu baxımdan Mehriban xanımın fəaliyyətində və həyatında bu iki məqam daim qırmızı xətlə keçib və bu gün də keçməkdədir.

Birinci vitse-prezidentin gördüyü işlər saysız-hesabsız, ucsuz-bucaqsızdır, ölçüyəgəlməzdir. Bu haqda cild-cild kitablar ortaya qoymaq olar. Ancaq atalar məsəlində də deyildiyi kimi, görünən dağa bələdçi nə lazım?!

Mehriban xanımı doğum günü münasibəti ilə ürəkdən təbrik edir, ona Tanrıdan möhkəm can sağlığı, uzun ömür, ictimai-siyasi fəaliyyətində uğurlar və qələbələr diləyirəm.

**Kamilə ƏLİYEVA,**
***Milli Məclisin deputatı***

# Xoş məramlı, saf niyyətli

**Hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq insana hörmət və ehtiram qazandıran amillər birinci növbədə onun əməlləridir. Xüsusən yüksək mənəvi dəyər kəsb edən və insanlıq üçün faydalı olan nəcib əməllər hər kəsin həyat ştrixlərinin əsas məzmununa çevrilməklə, ona cəmiyyətdə başucalığı gətirir. Bununla bağlı ən gözəl misalları isə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyətinin timsalında çəkə bilərik.**

Mehriban xanım Əliyeva Azərbaycanın müasir inkişafında böyük rolu və tarixi xidmətləri olan siyasi-ictimai xadimdir. Çünki daşıdığı vəzifəsindən asılı olmayaraq, onun rəhbərliyi və təşəbbüsləri ilə görülən bütün işlər birinci növbədə respublikamızın yüksəlişinə və xalqımızın rifahına xidmət edir. Nəticə etibarilə bu fəaliyyət Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, respublikamızın ərazi bütövlüyünü təmin edən cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinə böyük töhfələr verir, nailiyyətlərimizin sayını daha da artırır.

Mehriban xanım Əliyevanın dərin ictimai və siyasi mahiyyət kəsb edən çoxşaxəli fəaliyyətinin bütün istiqamətləri dövlətimiz və xalqımız üçün böyük önəm kəsb etməklə, ən yüksək alqışa və ehtirama layiqdir. Onun Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları və xalqımızın milli idealları ilə daha da zənginləşən missiyasının təməlində dayanan əsas amil isə özünün yaratdığı insanlıq nümunəsidir. İlk növbədə bu amil Mehriban xanım Əliyevaya Azərbaycan cəmiyyətinin böyük ehtiramının formalaşmasını şərtləndirən əsas faktordur.

Elə buna görə də Mehriban Əliyevanın fəaliyyətindən bəhs edərkən yada düşən ilk məsələ onun xeyirxah əməlləridir. Azərbaycan xalqı tarixən yüksək mənəvi çəkisi olan ənənələri ilə tanınıb. Xeyirxahlıq göstərmək xalqımızın mənəvi aləmindən və böyük milli ruhundan irəli gəlir. Mehriban Əliyeva da öz xalqının zəngin mənəvi dünyasından və milli ruhundan qidalanan bir ziyalıdır. Eyni zamanda o həm özünün şəcərəsindən, həm də Heydər Əliyev ocağından ilham alan bir genetikanın layiqli təmsilçisidir. Təsadüfi deyil ki, onun müraciət edən hər bir şəxsə təmənnasız yaxşılığı, Heydər Əliyev Fondunun timsalında yaratdığı mükəmməl xeyriyyəçilik institutunun müxtəlif çoxsaylı sosial proqramları minlərlə insanın həyatında öz əksini tapıb, onların ömür yolunda sönməyən nura çevrilib. Respublikamızda Heydər Əliyev Fondu tərəfindən uşaq evlərinin, internat məktəblərinin, xəstəxanaların bərpası və tikintisi, talassemiyalı, daun sindromlu və diabetli xəstəliklərdən əziyyət çəkənlər üçün müxtəlif layihələrin həyata keçirilməsi, bunlarla yanaşı, ehtiyacı olan hər kəsə yardım etmək, ona maddi və mənəvi dayaq durmaq uzun illərdir ki, Mehriban Əliyevanın xeyirxahlıq missiyasının mühüm bir istiqamətini təşkil edir. Bu nəcib missiyası ilə Mehriban xanım Əliyeva neçə-neçə insanın, valideyn himayəsindən məhrum olmuş uşaqların himayədarına çevrilib, müxtəlif xəstəliklərdən əziyyət çəkən vətəndaşlarımızı sağlamlığa qovuşdurub, onlara yeni həyat bəxş edib.

Eyni zamanda həm bu gün, həm də gələcəkdə on minlərlə şagird müasir məktəblərdə oxuduqlarına görə, yüz minlərlə vətəndaşımız ən modern standartlara cavab verən tibb ocaqlarında şəfa tapdıqlarına görə məhz Mehriban Əliyevaya minnətdar olacaqlar.

Böyük məmnunluqla qeyd etmək istərdim ki, 2005-ci, 2010-cu və 2015-ci illərdə Milli Məclisin deputatı seçilən Mehriban Əliyeva vətənə və dövlətə layiqincə xidmət göstərib, təmsil etdiyi ərazilərdə gördüyü işlərlə seçicilərinin dərin sevgisini qazanıb. Mehriban Əliyevanın deputatlıq fəaliyyəti dövründə qanunvericiliyimizin təkmilləşməsində, Azərbaycanın beynəlxalq münasibətlərinin inkişafında göstərdiyi xidmətlər parlamentarizm tariximizin mühüm səhifələridir.

Artıq 7 il yarımdır ki, Mehriban Əliyeva özünün vətənpərvərlik missiyasını həm də respublikamızın Birinci vitse-prezidenti kimi davam etdirir. Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin fevralında Birinci vitse-prezident vəzifəsinə Mehriban Əliyevanın təyin olunması cəmiyyətimizdə böyük razılıq və sevinclə qarşılanmışdı. Çünki hər kəs bu vəzifəyə ən layiqli namizəd kimi məhz Mehriban Əliyevanı görürdü. Beləliklə, Mehriban Əliyeva bu gün həm də Azərbaycanın Birinci vitse-prezidenti olaraq dövlət və xalqa layiqli xidmətin örnəyini nümayiş etdirir. Özünəxas yüksək işgüzar keyfiyyətləri ilə Mehriban xanım Əliyeva bu müddətdə ona göstərilən etimadı layiqincə doğruldub, vəzifəsini əzmlə, fədakarlıqla yerinə yetirib. Və bu vəzifədə də Mehriban Əliyevanın əsas diqqət yetirdiyi məsələlərdən biri müharibə əlillərinin, veteranların, xüsusi dəstəyə ehtiyacı olan insanların sosial qayğılarının həllidir.

Hazırda respublikamızın milli prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulmasıdır. Ötən 4 ilə yaxın dövr ərzində Prezident İlham Əliyevin birbaşa diqqət və qayğısı ilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa işləri həqiqətən qürurvericidir. Bu prosesdə xalqımız bir daha Mehriban Əliyevanın vətən sevgisinə şahidlik etməkdədir. Onun təşəbbüsləri ilə Şuşada və digər ərazilərdə ermənilər tərəfindən dağıdılmış məscidlərin, tarixi bina və abidələrin, muzeylərin bərpası işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuğun daha da sürətləndirilməsinə xidmət edir. Artıq bir neçə ildir ki, Heydər Əliyev Fondunun fəaliyyətinin bir istiqamətini də Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində layihələrin həyata keçirilməsi təşkil edir.

Mehriban xanım Əliyevanın xeyirxah əməlləri və humanist obrazı hər zaman xalqımız tərəfindən yüksək qiymətləndirilir, insanlar müxtəlif vasitələrlə öz təşəkkürlərini ifadə edirlər. Mehriban Əliyevanın vətən sevgisi, dövlətə və insanlara xidmət fəaliyyəti sənət adamlarının, o cümlədən mənim yaradıcılığımda öz əksini tapıb. İnsanların Mehriban Əliyevaya olan dərin ehtiramını mən hələ 2004-cü ildə sözləri Gülnur Aslana məxsus "Mehriban insan" musiqisini ərsəyə gətirməklə ifadə etmişəm. Daha sonra hazırladığımız "Uşaqları qoruyaq", "Öndər Fondu" kimi əsərlərimiz də Mehriban Əliyevanın nəcib missiyasına həsr edilib. Bu sırada musiqisi mənə, sözləri şairimiz Baba Vəziroğluya məxsus və əməkdar artist Lalə Məmmədovanın ifasında səslənən "İki qəlbin dastanı" adlı layihəmiz də Mehriban Əliyevaya həsr olunmuş möhtəşəm əsər kimi dinləyicilərin rəğbətini qazanıb.

Mehriban xanım Əliyevanın hər bir işi, hər bir layihəsi yalnız ümummilli məsələlərə və məqsədlərə xidmət edir. Bu mənada Mehriban Əliyeva Prezident İlham Əliyevin silahdaşı, Heydər Əliyev ideyalarının daşıyıcısı kimi xalqın adamıdır, cəmiyyətin sevgisini və etimadını qazanmış siyasi-ictimai xadimdir.

*Avqustun 26-sı isə Mehriban Əliyeva üçün özəl gündür. Mehriban xanım Əliyevaya təbriklərimizi çatdırır, xoşməramlı missiyasının bundan sonra da böyük uğurlar qazanmasını arzu edirik.*

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***



# Ümummilli etimadın uğurla gerçəkləşməsi

Azərbaycan tarixi inkişafının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçid edib. Vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş effektiv inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən zamanın ruhuna, çağırışlarına, milli hədəflərimizə uyğun zənginləşdirilərək uğurla həyata keçirilir.

Bu, Azərbaycanda hərtərəfli resurs potensialını formalaşdıran inkişaf strategiyası ilə yanaşı, həm də zəfər strategiyası oldu. 2020-ci ilin payızında ərazilərimizin Ermənistanın işğalından azad edilməsi dünyaya Azərbaycan dövlətinin hərbi, iqtisadi, siyasi-diplomatik gücünü, dövlət başçısının isə dərin strateji baxışlarını, iradə və əzmini əyani şəkildə nümayiş etdirdi. Siyasi olimpdə Azərbaycan dövləti hansı zirvələri fəth etməyə qadir olduğunu göstərdi. 2023-cü ildə isə başladığımız işi böyük uğurla başa çatdırıb ərazi bütövlüyümüzü və suverenliyimizi vətənimizin hər bir qarışı üzərində effektiv və dönməz şəkildə təmin etdik.

Prezident İlham Əliyevin prinsipial siyasəti, mövqeyi həm döyüş meydanında, həm də siyasi müstəvidə inamlı qələbəmizi şərtləndirdi. Azərbaycan dövlətinin, xalqının tarixi uğurları haqqında danışarkən bütün gücü ilə ölkədə uğur prosesinə töhfə verən, daim ölkə Prezidentinə yaxından dəstək olan Mehriban xanım Əliyevanın rolunu ayrıca qeyd etmək lazımdır. Azərbaycanda həyat fəaliyyətinin müxtəlif sahələrində, ölkənin sistemli sosial-iqtisadi, mədəni inkişafında, milli-mədəni dəyərlərimizin dünyada tanıdılmasında Mehriban Əliyevanın rolu olduqca böyük və təsirlidir. Mehriban xanım Əliyevanın təklifləri, təşəbbüsləri ölkəmizin sosial, mədəni, humanitar modernləşməsinin ən təsirli, effektiv drayveri olmuşdur. Müasir mərhələdə istər siyasi, istər iqtisadi, istərsə də digər fəaliyyət sahələrində qadınların rolunun artması, iştirakçılığının genişlənməsi artıq dünya trendi kimi müşahidə olunmaqdadır. Lakin Mehriban Əliyevanın dövlət idarəçiliyi sistemində, ölkənin ictimai-siyasi həyatında səmərəliliyi digər mövcud təcrübələrdən köklü şəkildə fərqlənir. Məsələn, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu qeyri-hökumət təşkilatı olsa da, ölkənin hərtərəfli inkişafına olduqca ciddi töhfə verib və bu, davam etməkdədir. Belə ki, Heydər Əliyev Fondu elm, təhsil, səhiyyə sahələrində həyata keçirilən dövlət siyasətinə yaxından dəstək olmaqla yanaşı, vacib istiqamətlərdə layihələri də uğurla həyata keçirməkdədir. Beləliklə, Mehriban xanım Əliyeva sayəsində fond Azərbaycan Respublikasının hərtərəfli inkişafının qeyri-institusional, olduqca effektiv amilinə çevrilib. Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu sosial və humanitar xarakterli layihələr təşəbbüskarı və icraçısı olmaqla, həm də ölkəmizdə oturuşmuş bir xeyirxahlıq institutunu formalaşdırdı. Diqqətəlayiq digər vacib məqam isə ondan ibarətdir ki, fondun yaradılmasından qısa zaman keçdikdən sonra müxtəlif sahələrdə verdiyi töhfələr sürətlə milli səviyyəni aşaraq beynəlxalq müstəvidə genişlənmişdir. Hər şeydən öncə milli-mədəni dəyərlərimizin qorunması və dünyada tanıdılması ilə yanaşı, dünya xalqlarının maddi-mədəni irsinin qorunub saxlanılmasında da Mehriban Əliyevanın çox təsirli rolu var. Belə ki, dünya tarixində ilk təcrübə olaraq, müsəlman ölkəsində fəaliyyət göstərən bir institut Vatikanda xristian abidələrinin bərpasını həyata keçirib. Belə bir addım islam və xristian dünyası arasında yeni konstruktiv dialoq mühitinin yaranmasına xidmət edir. Ümumiyyətlə, dialoq mühitinin yaradılması və inkişaf etdirilməsi isə mövqelərin uzlaşdırılmasının, ziddiyyətlərin aradan qaldırılmasının, bununla da əməkdaşlıq imkanlarının genişləndirilməsinin ən effektiv yoludur. Nəzərə alsaq ki, Avropada konfessional ziddiyyətlər, münaqişələr potensialı kifayət qədər yüksəkdir, onda Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun ümumilikdə qlobal barış üçün nə qədər ciddi və böyük missiya yerinə yetirdiyi haqqında daha dəqiq təsəvvürlərə sahib olmaq mümkündür. Qlobal sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması beynəlxalq təhlükəsizliyin təmin olunması istiqamətində verilən ən böyük töhfədir. Bu baxımdan əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın adı diplomatiya tarixinə artıq həkk olunub.

Heydər Əliyev Fondu ölkəmizdə multikultural cəmiyyətin daha da oturuşmasında xüsusi rol oynamaqdadır. Bu gün multikulturalizmin Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycandakı unikal multikultural mühit müxtəlif xalqların və dinlərin təmsilçilərinin dinc yanaşı yaşamalarını, öz milli identikliklərini qorumalarını şərtləndirməkdədir. Həqiqətən də, ölkəmizdə pravoslav, katolik kilsələrinin, sinaqoqların təmir edilməsi Azərbaycan cəmiyyətinin nə dərəcədə multikultural və tolerant olduğunu göstərir. Sözün əsl mənasında Mehriban xanım Əliyeva sayəsində Azərbaycan sivilizasiyalararası körpü rolunu oynamaqla beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın əsas şərtlərini təmin etməkdədir. Azərbaycan dünyaya nümayiş etdirir ki, fərqli mədəniyyətlərin, baxışların, yanaşmaların daşıyıcıları dinc, yanaşı mövcud ola, əməkdaşlıq edə və öz aralarında konstruktiv dialoq mühiti yarada bilərlər. Beləliklə, Azərbaycan multikulturalizm modeli ölkəmizin beynəlxalq pozitiv imicinin daha da möhkəmlənməsini şərtləndirməklə dünyaya unikal təcrübə təqdim edir. Etnik tərkibi zəngin olan ölkələrdə digər xalqların və dinlərin təmsilçilərinə münasibətdə diskriminasiya hallarının yolverilməzliyini Azərbaycan öz timsalında nümayiş etdirməklə, başqa cəmiyyətləri də oxşar yanaşma sərgiləməyə dəvət edir. Mədəniyyət amilini sülhün və əməkdaşlığın əsas alətlərindən birinə çevirməklə Mehriban xanım Əliyeva mədəni diplomatiyanı artıq oturuşmuş, peşəkar bir fəaliyyət sahəsinə çevirməyi bacarmışdır. Onun dünya səviyyəsində yüksək nüfuzunu şərtləndirən vacib amillərdən biri də məhz budur. Çünki Mehriban Əliyevanın sosiomədəni inkişafa verdiyi töhfə Azərbaycanın hüdudlarını xeyli aşaraq, böyük bir coğrafiyanı əhatə etmişdir.

Mehriban xanım Əliyeva Birinci vitse-prezidentlik kimi olduqca məsuliyyətli bir vəzifəni üzərinə götürməklə də həm dövlət idarəetmə sisteminin effektivliyinin yüksəlməsində, həm də hakimiyyət-cəmiyyət dialoqunun inkişaf etməsində xüsusi rol oynadı. Azərbaycanda vitse-prezidentlik institutu 2016-cı ilin sentyabrında Konstitusiyaya edilən dəyişikliklər və əlavələrə əsasən təsis edilərək, 2017-ci ilin fevralında konstitusion əsaslarla formalaşdırılıb. İlk olaraq, bu mühüm dövlət vəzifəsinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Mehriban Əliyevanın təyin edilməsi böyük etimad olmaqla yanaşı, həm də böyük məsuliyyət idi. Belə ki, vitse-prezidentlik institutunun dövlət idarəetmə sistemində öz yerini və rolunu təyin etməsi, yəni səmərəliliyi artıq birbaşa ilk təyin edilən şəxsdən asılı idi. Dünya təcrübəsinə nəzər salsaq, görərik ki, əksər hallarda vitse-prezidentlik institutu formal xarakter daşıyır. Azərbaycan Respublikasında isə bu institut yeni yaranmasına baxmayaraq, kifayət qədər effektiv bir dövlət idarəetməsi orqanına çevrildi. Bunu şərtləndirən başlıca amillər isə Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti və cəmiyyət üzvlərinin inamını doğrultmaq istəyindən ibarət idi.

Artıq qeyd edildiyi kimi, bu vəzifəyə təyinat alana qədər də o, müxtəlif sahələrdə uğurlu fəaliyyəti ilə xalqın rəğbətini qazana bilmişdi. Azərbaycan dövlətində sosial siyasətin uğurla həyata keçirilməsində Mehriban Əliyevanın rolu danılmazdır. Onun diqqəti sayəsində cəmiyyətimizin ehtiyacı olan təbəqələri evlə, işlə təmin olunurlar, sağlamlıq problemlərini həll edirlər, bir sözlə, dövlətin hərtərəfli qayğısı ilə əhatə olunurlar. Bununla yanaşı, Mehriban xanım Əliyeva hər zaman cəmiyyət üzvlərinin arasında olmaqla, hakimiyyət-cəmiyyət ünsiyyətini daha da sıxlaşdırıb, inkişaf etdirib. Bu da imkan verir ki, cəmiyyətdən gələn impulslar dövlət hakimiyyətinə daha tez və dəqiq çatsın. Yəni xalq öz istək və arzularını, gözləntilərini dövlətə tez və aydın çatdırmaq imkanlarına malik olmaqla, dövlət siyasətinin formalaşmasına birbaşa təsir edir. Bununla dövlət-xalq dialoqu daim inkişaf edir və müvafiq olaraq, vətəndaş cəmiyyəti elementləri möhkəmlənir. Dövlət-xalq birliyinin güclənməsi isə xalqın rifahına xidmət etməklə yanaşı, milli maraqlarımızın qorunması, yeni inkişaf hədəflərimizə çatılması istiqamətlərində olduqca təsirli amil rolunda çıxış edir.

Ölkənin Birinci vitse-prezidenti kimi Mehriban Əliyeva özünün yorulmaz, səmərəli fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşında dövlətinin onun yanında olması hissini əhəmiyyətli dərəcədə gücləndirdi. Beləliklə, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, sosial-iqtisadi inkişafında, humanitar və mədəniyyət sahələrində Mehriban xanım Əliyevanın verdiyi ölçüyəgəlməz töhfələri həm ölkə daxilində, həm beynəlxalq müstəvidə aydın müşahidə edilir və qiymətləndirilir.

*Dövlətinə, xalqına sevgi ilə, səmimiyyətlə və fədakarlıqla xidmət Mehriban Əliyevanın ictimai-siyasi obrazının əsas cizgiləri olmaqla yanaşı, həm də onun uğurlarının başlıca şərtlərini təşkil edir.*

**Elşad MİRBƏŞİROĞLU,**
***Milli Məclisin deputatı***

# Azərbaycana şərəfli xidmətin mükəmməl örnəyi




**Ərazi bütövlüyünü bərpa edən Azərbaycan xalqı yalnız müstəqillik deyil, son bir neçə əsrlik tarixinin ən şanlı dövrünü yaşayır. Çünki biz yalnız ərazilərimizi işğaldan azad etmədik, həm də 200 il əvvəl torpaqlarımızda yaranmış erməni separatizminə son qoyduq və bütün bunlar həm xalq, həm də vətəndaş olaraq, hər birimizin qürur və fəxarət mənbəyimizdir.**

Əlbəttə, bütün qələbələrimizin təməlində Prezident İlham Əliyevin qətiyyətli siyasi kursu, iradəsi, dövlət və milli maraqlarımızı inamla, əzmlə qoruması, düzgün strategiyası dayanır. Tarix də sübut edir ki, məhz müdrik və güclü lideri olan xalqlar bütün burulğanlardan və böhranlardan alnıaçıq və qalib çıxa bilirlər. Son bir neçə ildə ərazi bütövlüyümüzün təmin olunması istiqamətində qazandığımız hərbi və siyasi-diplomatik uğurlarımızın hər biri həm də Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi deməkdir.

Bütün bu tarixi nailiyyətlərimiz fonunda qürur doğuran başqa bir reallıq isə xalqımızın bizlərə zəfər bəxş edən İlham Əliyev siyasi kursu ətrafında daha sıx həmrəy olmasıdır. Təsadüfi deyil ki, indi vəzifəsindən və statusundan asılı olmayaraq hər kəs yaranmış yeni reallığa öz töhfəsini verməyə, Ali Baş Komandanımıza, qəhrəmanlarımıza layiq olmağa çalışır. Bu sahədə ən gözəl nümunələri isə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətinin timsalında görmək mümkündür.

Mehriban Əliyevanın fəaliyyəti həm siyasi, həm də ictimai məzmun daşımaqla çoxşaxəlidir. Amma bu çoxşaxəli və müxtəlif məzmun daşımasına baxmayaraq Mehriban Əliyevanın üzərinə götürdüyü bütün vəzifələrin ortaq dəyərləri də var. Bu da onun insanlara yaxşılığı, ehtiyacı olanlara kömək əli uzatması, xeyirxahlığı və xeyriyyəçiliyi özünün ən böyük vətəndaşlıq missiyası elan etməsidir. Hansı ki, bütün bunlar Mehriban xanım Əliyevanı nəinki respublikamızda, xarici ölkələrdə də gözəl əməllər sahibi kimi tanıtmışdır.

Elə buna görə Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu yarandığı ilk gündən mərhəmət ünvanı kimi tanınır. Təsadüfi deyil ki, Heydər Əliyev Fondu əhalinin aztəminatlı təbəqələrini müdafiə etməyi, irsi qan, diabet, daun və digər xəstəliklərdən əziyyət çəkən, habelə valideyn himayəsindən məhrum olmuş uşaqlara, ahıl və tənha vətəndaşlarımıza dayaq durmağı, xalqımızın genetik fondunun qorunub saxlanmasını özünün prioritet sosial məqsədlərindən biri elan edib. Fondun 20 ildən artıq müddətdə həyata keçirdiyi sosial layihə və proqramların da əhəmiyyətli hissəsi məhz bu məqsədlərə yönəldilib. Bu baxımdan Bakıda və regionlarda çoxsaylı uşaq və qocalar evlərinin, o cümlədən çoxsaylı tibb ocaqlarının tikintisi və bərpası Mehriban xanım Əliyevanın xalqımız qarşısında xidmətlərinin mükəmməl nümunəsidir. Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun bu sahədə gördüyü bütün işlər həm də ölkəmizdə xeyriyyəçilik institutunun inkişafına yol açıb.

Mehriban xanım Əliyeva həm də xalqımızın maddi və mənəvi dəyərləri ilə qürur duyan, fəaliyyətinin mühüm bir hissəsini bu dəyərlərin qorunmasına, yaşadılmasına və təbliğinə həsr edən böyük vətənpərvərdir. Bununla bağlı Heydər Əliyev Fondu tərəfindən tarixi, mədəni və dini abidələrin yenidən qurulması, eləcə də Azərbaycan Mədəniyyət Fondu tərəfindən həyata keçirilən layihələr, Mehriban Əliyevanın şəxsi təşəbbüsləri ilə milli mədəniyyətimizin nümunələrinin UNESCO-nun irs siyahısına salınması xalqımız tərəfindən rəğbətlə qarşılanır.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın gördüyü bütün işlərin mərkəzində öz ölkəsinə və xalqına xidmət dayanır. Azərbaycanda səhiyyənin, təhsilin inkişafında Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir. Onun Azərbaycan həqiqətlərini böyük fədakarlıqla beynəlxalq ictimaiyyətə çatdırması, "Avroviziya" Mahnı Müsabiqəsinin, I Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının təşkilat komitələrinin sədri kimi uğurlu təşkilatçılıq fəaliyyəti, ölkəmizdə gimnastikanın inkişafına nail olması həm də xalqımıza başucalığı gətirən məqamlardır.

Mehriban xanım Əliyeva həm də sıralarında qürurla təmsil olunduğumuz Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavinidir. Onun bir neçə il əvvəl bu vəzifəyə təyin olunması partiya fəaliyyətində dinamizmin daha da yüksəlməsinə, Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan YAP-ın sıralarında qadınların iştirakının çoxalmasına yol açıb, bütövlükdə partiyanın fəaliyyətinə yeni nəfəs verib.

Siyasi fəaliyyət baxımından Mehriban Əliyevanın 2005-2017-ci illərdə Milli Məclisin deputatı kimi gördüyü işlər də hər zaman rəğbətlə xatırlanır. Parlamentin deputatı kimi Mehriban Əliyeva nəiniki öz seçicilərinin, bütün xalqın vəkilinə çevrildi, Azərbaycanın beynəlxalq əlaqələrinin güclənməsinə layiqli töhfələr verdi.

Təbii ki, bütün bunlar 2017-ci ildə Prezident İlham Əliyev tərəfindən Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi təyin olunmasında əsas rol oynadı. Bu vəzifədə də ilk günlərdən bəlli idi ki, Mehriban Əliyeva öz diqqətini ilk növbədə həssas sosial qruplara yönəldəcək. Ötən dövrün reallıqları bunu təsdiq edir. Mehriban Əliyevanın Birinci vitse-prezident kimi gördüyü işlər cəmiyyətimiz tərəfindən məmnuniyyət və minnətdarlıqla qarşılanır. Çünki bu fəaliyyət Azərbaycanın yüksəlişinə, Prezident İlham Əliyevin siyasi kursuna xidmət edir.

Bu fəaliyyətin, dövlətə xidmətin ən böyük göstəricilərindən biri isə Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun işğaldan azad edilmiş ərazilərimizdə gördüyü bərpa və quruculuq işləridir. Beləliklə, özünün vətənpərvərlik missiyasını indi Mehriban Əliyeva həm də Qarabağ və Şərqi Zəngəzurda davam etdirir. Heydər Əliyev Fondu tərəfindən xüsusən Şuşa şəhərində həyata keçirilən nəcib missiya mədəniyyət paytaxtımızın bərpasında, keçmiş şöhrətini özünə qaytarmasında böyük rol oynayır.

Mehriban xanım Əliyevanın fəaliyyətini vətəni sevməyin mükəmməl təcəssümü də adlandıra bilərik.

*Əminik ki, Mehriban xanım Əliyeva bundan sonra da həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun prezidenti kimi dövlətimizin və xalqımızın yüksəlişinə böyük töhfələr verəcək, öz əməlləri ilə hər zaman xalqımızın yüksək ehtiramını qazanacaq. Bu şərəfli və məsuliyyətli yolda Mehriban xanım Əliyevaya uğurlar arzulayırıq.*

**Nəsib MƏHƏMƏLİYEV,**
***Milli Məclisin deputatı***

# Böyük vətənpərvər və milli təəssübkeş

Böyük xeyriyyəçi, milli və mənəvi dəyərlərimizin yorulmaz təbliğatçısı, nəcib əməllər müəllifi, Azərbaycan həqiqətlərini fədakarcasına dünyaya çatdıran şəxsiyyət, vətənə və xalqa layiqli xidmət nümunələri yaradan dövlət xadimi… Ad çəkilmədən belə bu ifadələri oxuyanda söhbətin Mehriban xanım Əliyevadan getdiyi hər kəsə dərhal agah olur. Çünki cəmiyyətimiz, xalqımız Mehriban Əliyevanı məhz bu xarakterik keyfiyyətləri ilə tanıyıb, onu hər zaman belə əməllərlə bizə təqdim edən yüksək mənəvi dəyərlərin ucalığında görüb.

Respublikamızın Birinci vitse-prezidenti, Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun prezidenti, Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban Əliyevanın fəaliyyəti cəmiyyət həyatı üçün gərəkli olan geniş bir spektri əhatə edir. Ayrı-ayrı sahələr olsa da, onların hər biri üzrə Mehriban Əliyevanın gördüyü işlər möhtərəm Prezident İlham Əliyevin siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursunun dəstəklənməsinə xidmət edir. Eyni zamanda Mehriban Əliyevanın bu vəzifələrdə həyata keçirdiyi fəaliyyətin mərkəzində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarının həyata vəsiqə alması dayanır. Nəzər yetirdikdə görürük ki, Mehriban Əliyeva özünün çoxşaxəli missiyasında qarşısına qoyduğu bütün məqsədlərə layiqincə çatmaqla, cəmiyyətə vətənə xidmətin ən gözəl nümunələrini təqdim edir, ümummilli çağırışlarla bağlı əsl vətəndaşlıq mövqeyi ortaya qoyur.

Ümumiyyətlə, Mehriban Əliyevanın milli təəssübkeşliyə əsaslanan və yüksək mənəvi dəyərləri özündə ehtiva edən fəaliyyətini iki istiqamətdə qruplaşdırmaq olar. Bunlardan biri vətənə xidmət, digəri isə insanlara yaxşılıq etməkdir. Mehriban Əliyevanın gördüyü işlərə və əldə etdiyi uğurlarına nəzər salanda bunu aydın görmək mümkündür. Məsələn, Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycan Mədəniyyət Fondunun uzun illər həyata keçirdiyi layihələr milli mədəniyyətimizin qorunmasına və dünyada təbliğinə xidmət edir. Eyni zamanda Mehriban Əliyeva hazırda dünyada böyük maraqla qarşılanan mədəni nümunələrimizin yad ünsürlər tərəfindən mənimsənilməsinin qarşısını alıb. Fondun keçirdiyi festivallar, konsertlər və sərgilər də bu məqsədə xidmət edib.

Məqsəd və məramı Ulu Öndərin ideyalarının təbliği və irsinin yaşadılması olan Heydər Əliyev Fondunun isə Azərbaycanın müasir tarixindəki xidmətləri əvəzolunmazdır. Heydər Əliyev Fondunun cəmiyyət həyatının demək olar ki, bütün sahələrində imzası var. Heydər Əliyev Fondunun dəstəyi ilə ötən 20 ildə Azərbaycanda inşa olunan və bərpa edilən yüzlərlə orta məktəb, xəstəxana, uşaq bağçası, internat məktəbləri, uşaq evləri məhz bu fonda layiqincə rəhbərlik edən Mehriban xanım Əliyevanın sosial təşəbbüslərinin təcəssümüdür. Fond həm də mədəni-humanitar sferada əzəmətli layihələr reallaşdırır, tarixi, mədəni və dini abidələrimizin bərpası istiqamətində böyük işlər görür. Bu baxımdan Mehriban Əliyeva cəmiyyətimizdə Azərbaycan təhsilinin, səhiyyəsinin və mədəniyyətinin inkişafının himayədarı kimi tanınır.

Xüsusilə qeyd etməliyik ki, Heydər Əliyev Fondunun həyata keçirdiyi müxtəlif məzmunlu tədbirlərlə Mehriban Əliyeva hər zaman Ermənistanın işğalçı simasını ifşa edib, Xocalı hadisələrinin ayrı-ayrı ölkələrin parlamentləri tərəfindən Ermənistanın törətdiyi soyqırımı cinayəti kimi tanınmasını təmin edib. Bütün bunların nəticəsi kimi xalqımız Mehriban Əliyevanı böyük vətənpərvər və milli təəssübkeş kimi tanıyır.

Heydər Əliyev Fondunun fəaliyyətini xalqımız Mehriban Əliyevanın milli- mənəvi dəyərlərimizə bağlılığının göstəricisi olaraq qəbul edir. Lakin Mehriban Əliyevanın təşəbbüsləri, fondun reallaşdırdığı proqramlar yalnız ölkəmizlə yekunlaşmır. Bu fəaliyyət həm də qlobal miqyasda sülhə, mədəniyyətlər və sivilizasiyalararası dialoqa xidmət edir. Mehriban Əliyevanın təşəbbüsləri ilə fondun Pakistanda, Rusiyada, Vatikanda həyata keçirdiyi layihələr həmin ölkələrdə daim böyük minnətdarlıqla xatırlanır.

Ümumiyyətlə, Mehriban Əliyeva yüksək işgüzarlığı, vətən sevgisi, insanlara qayğısı ilə xalqımızın yüksək rəğbətini və etimadını qazanmış şəxsiyyətdir. Bu baxımdan 2017-ci ilin fevral ayında cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması bu etimadın və Mehriban Əliyevanın fəaliyyətinə verilən ali qiymətin təcəssümüdür. Mehriban Əliyeva Birinci vitse-prezident kimi ona göstərilən etimadı əməli işləri ilə uğurlu şəkildə doğruldur, Azərbaycan üçün yeni olan bu vəzifəni layiqincə yerinə yetirir. Böyük məmnunluqla qeyd etməliyik ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi dövlətimizin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsinə yüksək töhfələr verir.

Mehriban Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi fəaliyyəti də cəmiyyətdə xüsusi rəğbət doğurur. Çünki bu fəaliyyət ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə və Heydər Əliyevin ideyalarının həyata vəsiqə almasına xidmət edir.

Ərazi bütövlüyümüzün təmin edilməsindən sonra respublikamız üçün yeni tarixi dövr başlayıb. Bu yeni dövrün öz hədəfləri və vəzifələri var. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən hər bir uğur göstərir ki, yeni vəzifələri yerinə yetirmək üçün qarşımızda keçilməsi mümkün olmayan hədəf yoxdur. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən kompleks bərpa və quruculuq işləri də bunu təsdiq edir. Düşmən tapdağından xilas edilmiş torpaqlarımız Prezident İlham Əliyevin qətiyyəti ilə cənnətə çevrilir. Bu ümummilli vəzifənin yerinə yetirilməsində Mehriban Əliyevanın xidmətləri, Qarabağın, Şərqi Zəngəzurun ermənilər tərəfindən vandallığa məruz qalmış tarixi və mədəni abidələrinin bərpasına verdiyi dəyərli töhfələr bir daha onun milli təəssübkeşliyini və torpaqlarımızın azad edilməsindən keçirildyi böyük qürur hissini göstərir.

Bütövlükdə Mehriban xanım Əliyevanın geniş və çoxşaxəli fəaliyyətinin məzmununu və fəlsəfəsini respublikamızın yüksəlişi, xalqımızın sosial rifahı təşkil edir. Eyni zamanda bu fəaliyyət Azərbaycan dövlətinin qlobal miqyasda gözəl təqdimatıdır.

*Özündə Ulu Öndər Heydər Əliyev ideyalarını və Prezident İlham Əliyevin siyasi kursunu layiqincə əks etdirən bu fəaliyyət qarşıdakı dövrdə də ölkəmizə möhtəşəm nailiyyətlər bəxş edəcək.*

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

# Milli dəyərlərin layiqli yaşadıcısı



**Müasir qlobal reallıqda Azərbaycan ərazi ölçüsü, əhali sayına görə xüsusi göstəricilərə malik deyil, əksinə, kiçik ölkə sayılır. Lakin məhz cənab İlham Əliyevin vizyonu sayəsində danılmaz faktdır ki, Azərbaycan müasir geosiyasi situasiyada nəinki bölgəmiz, bütövlükdə qlobal mənada hərbi-siyasi və iqtisadi güc mərkəzlərindən birinə çevrilib.**

Təbii ki, qlobal ziddiyyətlərin gücləndiyi bir şəraitdə rəqabətqabiliyyətli güclü dövlətə çevrilmək sadə məsələ deyil. Amma bu gün hətta Azərbaycan əleyhinə bütün güc və imkanlarını səfərbər etmiş beynəlxalq subyektlər belə ölkəmizin siyasi cəhətdən tam müstəqil, iqtisadi cəhətdən isə tam suveren dövlət olduğunu etiraf edirlər.

Prezident İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbələr və əldə edilən nailiyyətlər fonunda dəyişməyən bir reallıq var ki, tarixin heç bir dövründə ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövləti bu səviyyədə təmsil, xalqın vahidliyi bu şəkildə təcəssüm, dövlətçiliyin varisliyi isə bu səviyyədə təmin edilməyib. İndi tarixin heç bir dövründə olmadığımız qədər güclüyük. Əlbəttə ki, Prezident İlham Əliyevin sayəsində!

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun bazisində bu inkarolunmaz reallığın yaradılmasında möhtərəm Prezidentin ən yaxın silahdaşı isə Birinci vitse-prezident Mehriban xanım Əliyevadır.

Milli dövlətçilik tariximizdə irs və iz qoymuş qadınlar az olmasa da, siyasətdə, diplomatiyada, idarəçilikdə, beynəlxalq münasibətlər müstəvisində Mehriban xanım Əliyeva qədər yüksək zirvəni fəth edən olmayıb. Mehriban xanımın, sözün əsl mənasında, böyük azərbaycanlı, qətiyyətli mövqeyə malik vətəndaş kimi xidmətləri onun çox gənc yaşlarına, hələ ötən əsrin 80-ci illərinin sonuna təsadüf edir.

Ulu Öndər Heydər Əliyevin qərəz, həsəd və düşmənçiliklə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən heç bir əsaslandırma olmadan uzaqlaşdırılmasının ardınca Ümummilli Liderin ətrafında ona sədaqətlə bağlı qalan çox azsaylı cəsarətli insanlardan biri məhz artıq öz cameəsində kifayət qədər yaxşı tanınan, hörmət edilən həkim və ziyalı Mehriban xanım Əliyeva idi. Elə həmin dövrlərdə Azərbaycan Xalq Cəbhəsi hərəkatı M.S.Qorbaçovun yenidənqurmasını dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alındığı dövrdə İlham Əliyev sovet miqyasında, əslində, cəbhəçilərin ideoloqu olan Qorbaçovun rejiminə təhdid hesab edildiyi üçün işdən çıxarılaraq təzyiqlərlə üzləşərkən onun ən yaxın silahdaşı kimi Mehriban xanım əsl Azərbaycan qadını və ailə dəyərlərinin mücəssəməsi olaraq onun həyat yoldaşı olmaqla bərabər, həm də əsas əqidə dostu və fikir tərəfdaşına çevrilmiş, bu ağır, keşməkeşli və şərəfli mübarizədə daim onunla bərabər yürümüşdür.

Bakıda sovet rəhbərliyi ilə nüfuz alveri edilərkən gənc alim, tarix elmləri namizədi İlham Əliyev Moskvada Ulu Öndərlə birlikdə 20 Yanvar hadisələrinə görə sovet rejiminə qarşı açıq etiraz edən ilk iki nəfərdən biri idi. Ulu Öndər Bakıya qayıtdıqdan sonra məhz onun sayəsində hakimiyyət iyerarxiyasında yer tutmuş bir sıra şəxslər nankorluq edən zaman, parlamentdə Ümummilli Liderə qarşı çirkab kampaniya nümayiş etdiriləndə, hətta ona danışmağa imkan verilməyəndə, təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə onun əsas silahdaşı yenə də İlham Əliyev idi. Bütün bu illər ərzində Mehriban xanım Əliyeva cənab İlham Əliyevlə bərabər yürümüş, özü də çox böyük nüfuza malik bir ziyalı nəslin davamçısı olaraq əsl vətəndaş mövqeyindən və dönməz əqidəsindən heç vaxt geri çəkilməmişdi.

Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinin ən həlledici dönəmi isə 2003-cü ildən başlanır. Birinci xanım kimi proseslərdə birbaşa fəal rol almaqla yanaşı, Heydər Əliyev Fondunu təsis etməklə o, bütövlükdə müasir Azərbaycanın dövlətçilik və fikir tarixində yeni səhifə başlatmış oldu. Mehriban xanım Əliyevanın hər bir məsələyə yaradıcı münasibəti, insanları vahid məqsəd naminə səfərbər etmək bacarığı, humanizmi və səmimiyyəti, əslində, Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin uğurunu təmin etmiş oldu. Aydındır ki, hörmətli Mehriban xanım Heydər Əliyev Fondunu vahid azərbaycançılıq ideyası və milli maraqların kökündə dayanan əsas amil - Ulu Öndərin zəngin irsinin, milli dövlətçilik ideyalarının təşviqi, gələcək nəsillərə çatdırılması, xalqımızın milli-mənəvi dəyərlərinin, ənənələrinin təbliği, ölkəmizin sosial-iqtisadi inkişafına töhfə vermək məqsədilə yaratmışdı.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi isə onun möhtərəm Prezidentin rəhbərliyi altında xalqa xidmətdə ehtiva olunan fəaliyyətinin qızıl dövrünü başlatdı. Tam məsuliyyətimizlə deyə bilərik ki, Mehriban xanımın ölkənin ikinci şəxsinə çevrilməsi dövlətimiz üçün kadr islahatlarından tutmuş Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsindəki Zəfərimizin əldə olunmasına qədər taleyüklü bütün proseslərə köklü təsirini göstərdi.

Təyinata qədər Mehriban xanım onsuz da ölkənin ictimai-siyasi həyatında birinci xanım institutunun Azərbaycan tarixində ən güclü nümayəndəsi, Azərbaycan Mədəniyyət Fondunun, Heydər Əliyev Fondunun rəhbəri, Milli Məclisin deputatı kimi əhəmiyyətli rol oynamaqla inklüziv cəmiyyətin qurulması, sosial ədalətin bərqərar olması istiqamətlərində dövlət başçısının ən yaxın məsləhətçisinə, cəmiyyətin isə ümid yerinə çevrilmişdi. Mehriban xanım 2017-ci ilin 21 fevralına qədər faktiki təsir alətinə və büdcəyə malik olmasa da, istənilən mərkəzi icra hakimiyyəti orqanından daha çox vətəndaş müraciəti alaraq, çoxsaylı aparata malik qurumlardan daha faydalı iş əmsalı olan nəticələr əldə etməklə ümumxalq sevgisinə nail ola bilmişdi. Bundan başqa, UNESCO və ICESCO kimi mötəbər təsisatlarla qurduğu sağlam təməllərə dayanan əlaqələr, habelə Gimnastika Federasiyasındakı əhəmiyyətli fəaliyyəti, eləcə də "Avroviziya", Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq tədbirlərin Azərbaycanda uğurla realizəsi, həmçinin ABŞ-dən Pakistana qədər geniş coğrafiyada önəmli layihələri gerçəkləşdirməklə beynəlxalq platformada da adı ehtiramla çəkilən ictimai-siyasi xadim hesab edilirdi. Təsadüfi deyil ki, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması xalq tərəfindən böyük sevinclə qarşılanmaqla bərabər, həm də beynəlxalq ictimaiyyət tərəfindən təbii qəbul edilərək yüksək qiymətləndirildi.

Birinci vitse-prezident kimi sosial və humanitar istiqamətləri nəzarətə götürən Mehriban xanımın fəaliyyətinin nəticələri ilk gündən hiss edilməyə başladı. Aztəminatlı ailələrlə iş, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində yeni tədbirlər planı, məşğulluq və özünüməşğulluq proqramlarının mahiyyətinə yeni baxış gətirdi. Həmçinin iri biznes strukturları və dövlətin sosial məsuliyyət tədbirləri istiqamətində inisiativ və səylərin birləşməsi sosial məqsədli tikintilərin masştabına köklü təsir etdi ki, bu da əvvəllər qaçqın və məcburi köçkünlər, hazırda isə şəhid ailələri və qazilərin mənzil şəraitinin yaxşılaşdırılması statistikasında özünü göstərməkdədir.

İstər birinci xanım, istərsə də Birinci vitse-prezident kimi fəaliyyəti dövründə dövlət başçısından sonra Azərbaycanda sosial dövlət anlayışının mahiyyətini reallaşdıran əsas sima olmağı bacarmış Mehriban Əliyevanın eyni zamanda Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini təyin edilməsi ölkəmizin siyasi tarixində yeni mərhələ oldu. Bu qərarla Prezident İlham Əliyev nəyi necə və nə zaman etmək lazım olduğunu gözəl bildiyini bir daha göstərdi.

Sirr deyil ki, həssas təbəqə, xüsusilə şəhid ailələri, qazilər, müharibə iştirakçıları və aztəminatlı insanlar üçün xanım Əliyeva həmişə pənah yeri, ümid işığı sayılıb. Müharibə dövründə və Zəfərimizdən sonra cənab İlham Əliyevin Ali Baş Komandan kimi cəbhədə, diplomatik müstəvidə və informasiya məkanında mübarizəyə rəhbərlik etdiyi bir zamanda onun ən yaxın silahdaşı, Birinci vitse-prezident və Heydər Əliyev Fondunun rəhbəri kimi müharibə iştirakçılarının müalicə və reabilitasiyası işi, həmçinin şəhid ailələrinin və qazilərin bütün sosial məişət yükü şəxsən Mehriban xanımın çiyinlərində olmuş, o, bu çətin və şərəfli vəzifənin öhdəsindən ləyaqətlə gələrək həssas təbəqənin tam məmnunluğunu qazanmışdır. Bu mənada Mehriban xanımın partiyada birinci müavin vəzifəsinə təyinatı YAP-ın sosial və humanitar fəaliyyət istiqamətlərində müsbət mənada dönüşə gətirib çıxarmaqla təşkilatı siyasi bir qurum olmaqla bərabər, həm də vətəndaşın ümid yerinə çevirməkdədir.

Əlbəttə, bütün bunlar xalqın dövlətə və cənab İlham Əliyevə olan inamının daha da möhkəmləndirilməsinə səbəb olmaqla bərabər, cəmiyyətdə daha güclü milli birlik, barış ruhu və dialoq mühitinin formalaşmasında rol oynamaqdadır. Təbii ki, COVID-19 və onun səbəb olduğu iqtisadi böhranın yaratdığı məhrumiyyətlərə baxmayaraq, istər Tovuz döyüşləri, istərsə də Vətən müharibəsində xalqımızın bir nəfər kimi Müzəffər Ali Baş Komandanın ətrafında birləşməsində də yuxarıda sadaladığımız titanik fəaliyyətin rolu əvəzedilməzdir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında müəyyən olunmuş onillik milli prioritetlərin realizəsinə köklənib. Bu prosesdə də öndə Prezident İlham Əliyevdən sonra ikinci addımlayan Mehriban xanım Əliyevadır. Bütün mümkün risklərə baxmayaraq, Mehriban xanım hərbi geyimdə dövlət başçısı ilə bərabər Şuşa başda olmaqla, dəfələrlə işğaldan azad olunmuş ərazilərə səfər edərək, Böyük qayıdışın mühüm mərhələsi olan yenidənqurma və bərpa prosesinə töhfəsini verməkdə, erməni vandalizminə məruz qalmış maddi-mədəni, dini abidələrin bərpasına şəxsən rəhbərlik etməkdədir.

Mehriban xanımın fəaliyyətinin ən mühüm istiqamətlərindən biri cənab İlham Əliyevin direktivlərini rəhbər tutaraq milli-mənəvi dəyərlərə, humanizm prinsiplərinə sadiq olan gənc nəslin formalaşdırılması üzərində xüsusi fokuslanmaqdır. Məlumdur ki, gənc nəslin tərbiyəsi, vətənə, dövlətə bağlı, milli ruhlu gəncliyin formalaşdırılması cənab İlham Əliyevin siyasi kursunun mühüm həlqəsidir. Vətən müharibəsində müşahidə olunan yekdillik, Azərbaycan oğullarının döyüş ruhu, Qarabağ və Şərqi Zəngəzur görməmiş gəncliyin bu torpaqlar uğrunda ölümə getməsi sübut etdi ki, möhtərəm Prezident bu prosesin uğurlu realizəsinə nail ola bilib və milli ruhlu Azərbaycan gəncliyinin yetişməsi təmin edilib. Bu prosesdə də dövlət başçısının ən yaxın silahdaşı məhz xalq arasında böyük nüfuza malik və milli dəyərlərin layiqli yaşadıcısı hesab edilən Mehriban xanım Əliyeva olub.

Mehriban Əliyeva eyni zamanda Azərbaycanın haqq səsinin dünyaya çatdırılması prosesində də müstəsna rol oynamış, XX əsrin ən dəhşətli soyqırımı hadisələrindən biri olan Xocalı faciəsi, Ermənistanın ölkəmizə vurduğu ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərər onun rəhbərliyi altında Heydər Əliyev Fondunun daim diqqət mərkəzində saxladığı mövzular olaraq qalmaqdadır. Bu çərçivədə Azərbaycan barəsində doğru-düzgün məlumatların yayılması və dövlətimizin milli maraqlarının qorunması istiqamətində ən uğurlu layihələrdən biri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasıdır. Xocalı həqiqətlərinin dünyada yayılmasına, cinayətkarların beynəlxalq ifşasına yönələn tədbirlərin vahid konsepsiyası əsasında sistemli şəkildə həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, Xocalı soyqırımı ətrafında qurulmuş informasiya blokadası yarılmış, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı, bir çox ölkənin parlamentləri Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğunu təsdiq etmiş və bir sıra ölkələrin parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər.

Mehriban xanım Əliyeva İkinci Qarabağ müharibəsində qələbəmizə mühüm töhfələr vermiş, cənab İlham Əliyevdən sonra ölkənin ikinci ən inanılan və güvənilən şəxsi olaraq onun tərəfindən xalqın dövlət başçısı ətrafında yumruq kimi birləşməyə çağırılması, cəbhədə işğalçılara qarşı döyüşən, şəhid olan və yaralanan əsgər və zabit valideynlərinə hərtərəfli dəstək göstərilməsi tarixi zəfərimizi təmin edən amillərdəndir. Ötən dövrün yekunlarını təhlil edərkən əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandanın cəbhədə və diplomatik müstəvidə müstəsna uğurlarının təməlində dayanan ən mühüm amillərdən biri arxa cəbhənin Mehriban xanıma etibar olunması idi. Məlumdur ki, 44 günlük savaş boyu şanlı ordumuzun hər bir hərbçisi Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qələbədən qələbəyə irəliləyərkən ailəsi Mehriban xanıma əmanət idi. Mehriban xanım Əliyeva da bu ağır, lakin şərəfli missiyanı ləyaqətlə yerinə yetirdi və istər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində arxa cəbhənin bütün sosial yükü, kədəri, qəmi, itkisi onun çiyinlərində oldu. Mehriban Əliyeva Vətən müharibəsində 3000-ə yaxın şəhid üçün ailəsini əmanət etdiyi ana, 13 minə yaxın müharibə əlili üçün yaralarını sarıyan bacı, atasını, qardaşını itirmiş minlərlə şəhid ailəsi üçün güman yeridir. Mehriban xanımın birbaşa göstərişi ilə rəhbərlik etdiyi Heydər Əliyev Fondu Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlara böyük diqqət və qayğı göstərir, müharibə əlilləri yüksək texnologiyalı protezlərlə təmin olunur, zərurət yarandıqda yaralı hərbçilərimizin xaricdə müalicəsi təşkil edilir, onların sosial durumunun yaxşılaşmasına kömək göstərilir.

Eyni zamanda bu gün Qarabağ və Şərqi Zəngəzurda uğurla davam edən böyük quruculuq və bərpa prosesində də Mehriban xanım cənab Prezidentin əsas silahdaşıdır. Birinci xanım ilk dəfə kapitulyasiya aktından cəmi 6 gün sonra, 16 noyabr 2020-ci ildə olmaqla, bu günə qədər möhtərəm Prezidentlə bərabər 40 dəfədən artıq Qarabağ və Şərqi Zəngəzura səfər edib. İşğaldan azad olunmuş ərazilərimizdə bütün tarixi-memarlıq nümunələri, dini-mədəni abidələr, o cümlədən məscidlər, ziyarətgahlar, habelə təhsil və səhiyyə müəssisələri birbaşa Mehriban xanımın şəxsi nəzarətində yenidən tikilir, yaxud bərpa olunur. Artıq ötən 4 il ərzində Fond bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırıb.

Bu gün Mehriban xanımın adı, onun fəaliyyətinin xarakteri barədə düşünəndə göz önünə və ağıla ilk növbədə mərhəmət anlayışı gəlir. Mübaliğəsiz deyə bilərik ki, bu gün milyonlarla azərbaycanlı üçün Mehriban Əliyeva ümid yeri deməkdir. Mehriban xanıma ünvanlanan vətəndaş müraciətləri, cənab Prezidentə göndərilən məktubları çıxmaqla, bütün dövlət orqanlarına olan müraciətlərin cəmindən çoxdur. Onun mərhəməti və ədaləti çarəsiz durumda vətəndaşın güvən yeridir. Dara düşən, yardıma ehtiyacı olan insanların Heydər Əliyev Fonduna pənah aparması cəmiyyətin ilk növbədə fond rəhbərliyinə dərin inamından irəli gəlir.

Mehriban xanım Əliyevanın müəyyən etdiyi strategiya sayəsində Azərbaycan cəmiyyətinin tarixi dəyərlərə əsaslanan xeyriyyəçilik ənənələri məhz Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Bu gün nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda Mehriban Əliyevanın rəhbərlik etdiyi bu fond ən böyük xeyriyyəçidir.

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalı dönəmində yurdundan-yuvasından uzaq düşən 1 milyona yaxın məcburi köçkün də hər zaman Mehriban xanımın diqqət mərkəzində olub. Xüsusən Birinci vitse-prezident təyin olunduqdan sonra bu sahələrə birbaşa rəhbərlik etməklə həm dövlət hesabına, həm Heydər Əliyev Fondunun dəstəyi, habelə özəl sektorun təşviqi ilə Mehriban xanım minlərlə məcburi köçkün ailəsinin mənzil şəraitinin yaxşılaşdırılmasına nail olmaqla onların imdadlarına çatmışdı.

Mehriban xanım Əliyevanın fəaliyyətinin ana xətlərindən biri də mədəni irsimizin qorunması, tanıdılması və multikultural dəyərlərimizin təbliğidir. Ötən müddətdə Fondun təşəbbüsü ilə Müasir İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi, Beynəlxalq Muğam Mərkəzi və bir sıra digər mədəniyyət obyektləri inşa olunub. Dünyanın bir sıra ölkələrində Azərbaycan mədəniyyət mərkəzləri yaradılıb, beynəlxalq festivallar təsis olunub. Şanlı Zəfərimizdən sonra məhz Mehriban xanımın rəhbərliyi altında Azərbaycan xalqı üçün çox prinsipial məsələlər olan Vaqif Poeziya Günləri və "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı bərpa olunmaqla tarixi ədalət bərqərar edilmiş, milli ruh sanki yenidən dirçəlmişdir.

Qürurla deyə bilərik ki, bu gün ölkə daxilində və Pakistandan Fransaya qədər geniş arealda Heydər Əliyev Fondunun gördüyü işlər Azərbaycan tarixinin qızıl səhifələri hesab olunur və fəaliyyətin çoxşaxəliliyi, sözün əsl mənasında, ölkəmiz adına uğur hekayəsi sayılmalıdır.

Bu gün Mehriban xanım Əliyeva nəinki Azərbaycan, bütövlükdə Şərq-islam dünyasının ən nümunəvi və milli dəyərlərə sadiq ailəsinin təməl sütunudur. Azərbaycan və türk-islam coğrafiyası üçün qürur yerinə çevrilmiş 3 övladın anasıdır. Mehriban xanım bu bölgənin yeni reallığının yaradıcısı və tarixi Zəfərin memarının ən yaxın silahdaşıdır.

Bu gün ömrünün ən təcrübəli, ən yetkin və ideal xidmət dövrünə qədəm qoyarkən o, Azərbaycan mədəniyyətinin, incəsənətinin hamisi, bölgədə multikultural dəyərlərin qorunmasında müstəsna rolu olan, habelə 3 qitədə dünya mədəniyyəti və incəsənəti adına böyük işlərin memarı kimi adını tarixə əbədi olaraq yazdırmağı bacarıb.

*Bu mənada Mehriban xanım Əliyeva doğum günündə çoxsaylı səmimi təbriklər və xoş diləklərlə bərabər, həm də Ulu Öndərin irsini dahi Liderin adına layiq formada, ləyaqətli yaşatdığına, Azərbaycanı tarixinin bütün dövrlərinin ən qüdrətli dövlətinə çevirən Müzəffər Ali Baş Komandanın sədaqətli silahdaşı kimi yüksək fəaliyyətinə və ən nəhayət, hər bir azərbaycanlının ümid, pənah yerinə çevrilməyi bacardığına görə ən səmimi minnətdarlığı haqq edir.*

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***

## Xeyirxahlıq, mərhəmət və şəfqət Mehriban Əliyevanın həyat fəlsəfəsidir

"Xeyirxahlığı və nəcibliyi, humanizmi və bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan Birinci vitse-prezident Mehriban xanım Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdən biridir. Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın dinamik inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir".

Bu sözləri əməkdaşımızla söhbətində "Trend" BİA-nın direktor müavini, siyasi ekspert Sahil Kərimli deyib. O bildirib ki, birinci xanımın çoxşaxəli fəaliyyəti Azərbaycanın yüksəlişinə, mədəniyyətimizin qorunmasına və təbliğinə, dövlətimizin sosial siyasətinin daha böyük uğurlar qazanmasına layiqli töhfələrini verir: "Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. 2004-cü ilin mayından Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiram, ideyalarını yaşatmaq arzusu ilə yaradılan, onun adını daşıyan fonda rəhbərlik edən Mehriban xanım Əliyevanın təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələr, saysız-hesabsız xeyriyyəçilik tədbirləri həm ölkə daxilində, həm də ondan kənarda böyük əks-səda yaradır. Fond yarandığı gündən ictimai-siyasi həyatın bütün sahələrinə dərindən nüfuz etdi, çoxşaxəli layihələri ilə dövlət və vətəndaş həmrəyliyinin bariz nümunəsinə, əsl mərhəmət, şəfqət ünvanına çevrildi, ölkəmizdə xeyriyyəçilik hərəkatına böyük təkan verdi. Onun təhsil, səhiyyə, mədəniyyətlə bağlı layihələri isə mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna xidmətə malikdir".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Heydər Əliyev Mərkəzində "Opera və moda. 7 gözəl" layihəsi təqdim ediləcək

Sentyabrın 22-də Heydər Əliyev Mərkəzində "Opera və moda. 7 gözəl" adlı konsert keçiriləcək. "Trend" xəbər verir ki, "SULTAN COUTURE&Co" brendinin bu layihəsi incəsənətin iki aparıcı istiqaməti - musiqi və dəbin vəhdəti ideyasını çatdırır.

Opera və moda həmişə bir-birinə sıx bağlı olub. Opera geyimləri modaya və ya əksinə, geyim dəbləri opera səhnəsinə daim sirayət edib. "Opera və moda. 7 gözəl" də səhnədə rəssam-modelyer Orxan Sultanın təqdimatında Azərbaycan kəlağayısının ornamentlərini və milli geyimlərimizin elementlərini müasir ziyafət libaslarında birləşdirir.

Konsertin repertuarını Azərbaycan operaları, operettaları, romans və duetlərindəki ariyaların dünya əsərləri ilə sintezi təşkil edəcək. İfaçıları dirijor Mustafa Mehmandarovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edəcək.

# Dünyaya nümunə Şərq qadını



Milli-mənəvi-əxlaqi çalarlarla bəşəri dəyərlərin harmoniyasını nəsli-genetik kodunda, ruhunun hər zərrəsində, şəxsiyyətində, bir sözlə, bütün varlığında tam şəkildə birləşdirən nadir insanlarımıza nümunələrdən biri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır.

Xalqımızın mənəvi dəyərlərinə bağlılığı, yüksək insani keyfiyyətləri və vətəndaş mövqeyi, intellekti və vətənpərvərliyi ilə tək Azərbaycan üçün deyil, türk və müsəlman dünyası üçün örnək şəxsiyyət olan Mehriban xanım Əliyevanın şərəfli həyat yolu hər kəs tərəfindən məmnunluqla qarşılanır.

Ümumiyyətlə, insanın formalaşması, həyatını faydalı, xeyirli yaşaması, həqiqi xoşbəxtliyini tapmasında ailənin böyük rolunu dərk edən Mehriban xanımın milli-mənəvi dəyərlər, ailədə qadının rolu barədə fikirləri onun obrazını parlaq çalarlarla tamamlayır: *"Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma, yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir. Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə - bu, yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur".*

Mehriban Əliyevanın ictimai fəaliyyəti geniş və çoxşaxəlidir. 1995-ci ildə onun təşəbbüsü ilə Azərbaycan xalqının mədəni dəyərlərinin tanıdılması və dünya mədəniyyətinə inteqrasiya olunmasında müstəsna xidmətləri olan Azərbaycan Mədəniyyət Fondu təsis edilmişdir. Milli mədəniyyətimizin dünyada geniş təbliğ olunması məqsədilə 1996-cı ildə Mehriban xanım tərəfindən üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan və vətənimizə musiqi, memarlıq, təsviri və tətbiqi incəsənət sahələrində layiq olduğu şöhrəti gətirən "Azərbaycan - İrs" jurnalı təsis edilmişdir.

Mehriban xanım Əliyevanın Azərbaycan Mədəniyyət Fondunun və "İrs" jurnalının yaradılması ilə bağlı şəxsi mülahizələri qarşıya qoyulan məqsədlər, strategiya və taktikanın müəyyənləşdirilməsi baxımından xüsusi maraq doğurur: *"Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaradarkən onun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək, tanıtdırmaq idi. "İrs" jurnalını da mən elə onda təsis etdim. Jurnal, əslində, fondun fəaliyyətini işıqlandırmaqla məşğul olurdu və müəyyən bir mövzuya həsr edilən hər bir nömrə həm populyar, həm də tədqiqat materialı idi. İftixarla deyə bilərəm ki, Azərbaycan mədəniyyəti barədə bizdən əvvəl hələ heç kim belə şirin yazmayıbdır. Məsələn, miniatürdən və ya memarlıq abidələrindən yazmağı qarşımıza məqsəd qoyduqda, əməkdaşlığa, əslində, həm akademiya alimlərini, həm jurnalistləri, həm də sənətşünasları cəlb etmişdik. Fond da, jurnal da kifayət qədər mürəkkəb vəzifələri yerinə yetirməli idi. O illər müstəqil Azərbaycanın təşəkkül illəri idi. Siyasi, iqtisadi dəyişikliklərlə yanaşı, köhnə ideologiyadan xilasolma prosesi də gedir, stereotiplər dağıdılırdı. Kifayət qədər təlatümlü həmin dövrdə mədəni irsimiz yenidən fikir süzgəcindən keçirilir, əzəli milli ənənələrə və köklərə qayıdılırdı".*

Bu fikirlərin davamı olaraq demək olar ki, ümumən Azərbaycan xalq musiqisinin, muğamlarımızın, poeziyamızın inkişafında yüksək yaradıcılıq və təşkilatçılıq qabiliyyəti ilə fərqlənən Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Onun təşəbbüsü, rəhbərliyi və hərtərəfli dəstəyi ilə keçirilmiş çoxsaylı festival və müsabiqələr, konsert və sərgilər mədəniyyətimizin təbliğində mühüm rol oynamışdır və bu gün də oynamaqda davam edir. Azərbaycan mədəniyyətinin dəyərli incisi olan muğamlarımızın yaşadılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən dəfələrlə təşkil edilmiş muğam müsabiqələrini xatırlatmaq kifayətdir.

Mehriban xanım Əliyeva 2004-cü ildə Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə Ulu Öndərin müəyyən etdiyi, işləyib hazırladığı siyasətin təbliği və milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılmış və ötən dövrdə bir sıra milli və qlobal tarixyüklü layihələrə imza atmış Heydər Əliyev Fondunun prezidentidir.

Bu illər ərzində fond Mehriban Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə yerli əhəmiyyətli sosial problemlərin həllində, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərilməsində, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətənpərvər ruhda yetişdirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsində, milli elmin və kadr hazırlığının inkişafına, dini tolerantlığın bərqərar olmasına, hüquqi vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına real dəstək göstərilməsində, ekologiya və "yaşıl dünya"mızın xilası sahəsində addımlar atılmasında bir sıra mühüm nailiyyətlər əldə etmişdir. Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda həyatından keçmiş şəhidlərin ailələri, sağlamlığını itirmiş qazilərimiz, keçmiş qaçqın və məcburi köçkünlər, ehtiyacı olan insanlar, uşaq və internat evləri, səhiyyə və təhsil ocaqları daim fondun və şəxsən Mehriban xanımın diqqət və qayğısı altında olmuşdur.

Mehriban xanım Əliyevanın çoxşaxəli ictimai fəaliyyətində ölkədə idmanın inkişafına da daim xüsusi önəm verilmişir. O, ölkəmizdə Olimpiya hərəkatının, müxtəlif idman növlərinin populyarlaşdırılmasına, ölkə idmançılarının beynəlxalq arenalarda uğurlar qazanmasına şəxsi nüfuzu və himayədar dəstəyi ilə dəyərli töhfələr vermişdir. Mehriban xanım Əliyeva 28 dekabr 2004-cü ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir. O, ölkəmizin böyük uğurla evsahibliyi etdiyi "Bakı-2015" I Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədilə 2013-cü il yanvarın 17-də yaradılmış təşkilat komitəsinin, eləcə də IV İslam Həmrəyliyi Oyunlarının təşkilat komitəsinin sədri kimi bu işlərin öhdəsindən yüksək səviyyədə gəlmişdir.

Müasir müstəqil Azərbaycan Respublikası əsaslı siyasi və iqtisadi islahatların daimi xarakter daşıdığı, demokratik dəyərlərə sadiq olan dünyəvi sosial dövlətdir. Siyasi sahədə inqilabi xarakter daşıyan islahatlardan biri də 2016-cı il sentyabrın 26-da respublikamızda Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən referenduma əsasən, dövlət idarəçiliyində xalqın iradəsi ilə yeni təsisatın - Birinci vitse-prezidentlik institutunun yaradılması olmuşdur ki, bu da Azərbaycanın müasir simasının yeni və mütərəqqi əlaməti hesab edilə bilər. Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmuşdur. Bu sərəncam həmçinin Azərbaycan xalqının öz böyük övladına etimadının, inamının daha bir göstəricisidir. Mehriban xanım bu gün təkcə birinci xanım deyil, həm də genişmiqyaslı islahatların aparılmasında, Azərbaycanın müstəqilliyinin qorunmasında, xalqın xoşbəxt gələcəyinin təmin olunması üzrə fəaliyyətlərdə Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır. Bu və ya digər problemlərlə bağlı Mehriban xanımın xalqa müraciətləri həmişə eşidilmiş və cəmiyyət həyatına öz əhəmiyyətli təsirini göstərmişdir.

2004-2022-ci illərdə UNESCO-nun, 2006-cı ildən bu günə kimi ICESCO-nun xoşməramlı səfiri kimi dünya miqyasında gördüyü və Azərbaycanın imicinə yüksək dividendlər gətirmiş xeyirxah əməlləri, yerli və xarici xeyriyyə təşkilatları, dini və vətəndaş qurumları ilə qurduğu səmimi münasibətlər və əməkdaşlıq əlaqələri Mehriban xanım Əliyevanın adını nəinki Azərbaycanın, hətta dünyanın tarixinə qızıl hərflərlə yazmışdır.

2005-ci ildə "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni, 2006-cı ildə BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, 2009-cu ildə Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni, 2010-cu ildə Fransa Respublikasının "Şərəf Legionu" ordeni və UNESCO-nun "Qızıl Motsart" medalı, 2012-ci ildə MDB dövlətlərinin Humanitar Əməkdaşlıq Şurasının və Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun "Birlik Ulduzları" dövlətlərarası mükafatı, 2013-cü ildə qardaş Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı", 2014-cü ildə Rusiya Federasiyasının Həştərxan vilayətinin "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni, 2016-cı ildə "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni, 2016-cı ildə Bolqarıstanın mədəni irsinin qorunmasına və təşviqinə böyük töhfəsinə, bu işdə fəal iştirakına görə Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomu, 2017-ci ildə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni, 2018-ci ildə İtaliya Respublikasının "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, 2020-ci ildə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Papa Cəngavər ordeninin ən ali dərəcəsi - IX Piy ordeninin Böyük Xaçı, eləcə də Küveyt Krallığının, Almaniyanın, Rusiyanın, Gürcüstanın və s. bir sıra beynəlxalq təşkilatların digər ən yüksək mükafatları ilə təltif olunması, dəfələrlə ölkədə və xaricdə "İlin adamı", "İlin birinci xanımı" titullarına layiq görülməsi Mehriban xanım Əliyevanın xeyriyyəçilik, eləcə də dövlətlər və xalqlar, dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı anlaşmanın, əməkdaşlığın gücləndirilməsinə, dini və milli tolerantlığın, multikulturalizmin təbliğinə və təsbitinə istiqamətlənmiş səmərəli fəaliyyətlərinin dünya miqyasında möhtəşəm, tarixiləşmiş təsdiqidir.

Mehriban xanım Əliyevanın Azərbaycan səhiyyəsinə, xalqın sağlamlığına verdiyi töhfələr də ölçüyəgəlməzdir. Bir neçə il ərzində dünyanı gərgin vəziyyətdə saxlamış COVID-19 pandemiyasına qarşı Azərbaycanda ölkə Prezidenti tərəfindən aparılan və virusun yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının və sosial rifahının qorunması istiqamətində uğurlu fəaliyyətlərdə Birinci vitse-prezident, ixtisasca həkim olan Mehriban xanım Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çox böyük xidmətləri olmuşdur.

Məlumdur ki, hər bir dövlətin pandemiyaya qarşı özünəməxsus mübarizə taktikası, fərdi yanaşması olmuşdur. Yalnız az sayda ölkələr, o cümlədən Azərbaycan bu mübarizədə düzgün addımlar atmış, vaxtında lazımi qərarlar qəbul etmişdir ki, bunlar da öz uğurlu nəticələrini, bəhrələrini vermişdir.

Ölkəmizdə Prezident İlham Əliyevin hakimiyyəti dövründə elm və təhsilin inkişafına göstərdiyi diqqət və qayğıya ən güclü dəstək verən ictimai və dövlət xadimi məhz Mehriban xanım Əliyeva olmuşdur. Onların bilavasitə təşəbbüsü və səyləri ilə ölkə üzrə təhsil və mədəniyyət ocaqlarının tikintisi və yenidən qurulması sahəsində irimiqyaslı layihələr həyata keçirilmiş, təkcə 2003-2023-cü illərdə paytaxtda və regionlarda 3630 məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur. Sevindirici haldır ki, Azərbaycan təhsilini, elmini və alimlərini himayə edən Mehriban xanımın özü də alimdir və bu fakt bütün elmi ictimaiyyətimiz üçün fəxr mənbəyidir.

Məlumdur ki, 2024-cü il ölkə Prezidenti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu ilin noyabr ayında Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), eyni zamanda Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər tədbirlər keçiriləcəkdir. Bu barədə dünya birliyi tərəfindən qəbul edilmiş yekdil qərar qlobal siyasi arenada Azərbaycanın özünü etibarlı tərəfdaş kimi sübut etməsinin, BMT-də, Qoşulmama Hərəkatında, UNESCO və ICESCO kimi müxtəlif beynəlxalq təşkilatlarda oynadığı fəal rolun, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək şəxsi nüfuzunun nəticəsidir.

Ulu Öndərin "yaşıl dünya" ilə bağlı siyasi kursunu uğurla davam və daha da inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması, biomüxtəlifliyin qorunub saxlanması istiqamətində inanılmaz dərəcədə böyük işlər görülmüşdür. Mütəmadi həyata keçirilən "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Milli Strategiya"lar və fəaliyyət planları, 2010-cu ilin "Ekologiya ili" elan olunması, Cənubi Qafqazda ilk dəfə Azərbaycanda Vəhşi Təbiətin Bərpası və Reabilitasiya Mərkəzinin yaradılması, Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi tərəfindən respublikamızda nadir və həssas növlərin bərpası məqsədilə əhəmiyyətli tədbirlər, o cümlədən ceyran, bəbir, bizon, bezoar keçisi, muflon və maralların tarixi yaşayış məskənlərində bərpa edilməsi, fondun "Hərəmiz bir ağac əkək" kimi layihələri, şəxsən Mehriban xanım Əliyevanın İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü, Ulu Öndərin 100 illik yubileyi münasibətilə xüsusilə böyük vüsət almış və bütün ölkəni (həmçinin işğaldan azad edilmiş əraziləri) əhatə edən, dövlət başçısının və birinci xanımın, eləcə də onların ailə üzvlərinin fəal şəkildə iştirak etdikləri ağacəkmə kampaniyaları ekologiyanın sağlamlaşdırılması istiqamətində atılan addımlara, görülən işlərə gözəl nümunələrdir.

Mehriban xanım Əliyevanın ölkədə gənclər siyasətinin həyata keçirilməsində rolu və xidmətləri danılmazdır. Onun Azərbaycan gəncliyinə dəstəyi, gənclərin milli-mənəvi dəyərlərə sadiq, savadlı və vətənpərvər insanlar kimi yetişdirilməsi istiqamətində fəaliyyətləri misilsizdir.

Azərbaycanın yeni tarixinin ən möhtəşəm səhifələrinin yazılmasında Mehriban xanım Əliyevanın böyük xidmətləri özünü 44 günlük Vətən müharibəsi dövründə də bariz şəkildə göstərmişdir. Azərbaycanın Birinci xanımı Müzəffər ordumuzun Ali Baş Komandanı ilə çiyin-çiyinə verərək Böyük Zəfər naminə əlindən gələn hər şeyi etmişdir. Mehriban xanım hər zamankı kimi Vətən oğullarının yanındaydı, onlara övladım, qardaşım deyə müraciət edirdi və döyüşçülər bu doğma münasibəti hiss edirdilər.

Mehriban xanım Əliyeva Böyük Zəfərdən sonra işğaldan azad edilmiş əraziləri Ali Baş Komandanla birgə qarış-qarış gəzmiş, Qarabağın bərpası və Böyük qayıdış üçün bir sıra önəmli layihələrin əsasının qoyulmasında iştirak etmişdir. Mehriban xanımın cənab Prezidentlə birgə Şuşadan və digər bölgələrdən dünyaya verdiyi mesajlar, şəxsən özünün təşəbbüsü ilə həyata keçirilmiş və düşmənə gözdağı olan uğurlu tədbirlər, məsələn, Şuşada və son zamanlar həmçinin Xankəndidə mütəmadi təşkil edilən forumlar, festivallar, konsertlər, sərgilər, tarixi abidələrin, məscid və digər müqəddəs inanc və ibadət yerlərinin, ziyarətgahların yüksək şəkildə bərpasına, konservasiyasına və yenidən qurulmasına sərf etdiyi zəhmət, onun təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən layihələr, şəhidlərimizin xatirəsi və qazilərimizin şəfası üçün gördüyü işlər onu xalqımızın gözündə ucaltdıqca ucaltmışdır.

Mehriban xanım Əliyevanın Azərbaycan xalqı və dünya birliyi qarşısında xidmətləri hər zaman yüksək qiymətləndirilmişdir. Onun bu günə qədər beynəlxalq səviyyədə aldığı orden və medalların, fəxri adların bir qismi yuxarıda sadalanmışdır. Ölkənin Birinci vitse-prezidenti və birinci xanımı həmçinin Azərbaycanın "Heydər Əliyev mükafatı", Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı ilə təltif edilmiş, Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeninə, Rusiya Federasiyasının "Dostluq" ordeninə, Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru diplomuna və onlarca digər təltif və mükafatlara, fəxri adlara layiq görülmüşdür.

*Şəxsiyyətində, amallarında və əməllərində mübarizliyi və əxlaqı, diplomatiyası və müdrikliyi, səmimiyyəti və mərhəməti ilə sevilən Mehriban xanım Əliyeva haqlı olaraq, bütün müsəlman və Şərq dünyasının fenomenal qadın-lider simvoluna çevrilmişdir.*

**İradə HÜSEYNOVA,**
***AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik***

# Nəcib missiya

**İnsanın elə bir yaş dövrü var ki, ona ömrün kamillik zirvəsi deyilir. Əslində, kamilliyin yaşı olmur. İnsan hər yaşda bu ali dəyərə sahib ola bilir. Amma müdrikliyin qapısından içəri girən kamil insan bu zirvədən keçmişə boylananda illərin o tayında qalan acılı-şirinli günləri aydın görmək olur.**

Məhz həmin görüntüdə insan qoyub gəldiklərini yenidən "çeşidləyib" nəyin ağ, nəyin qara olduğunu anlayır, ötən günlərə dönməyin mümkünsüzlüyünü kamillik işığında yenidən dərk edir.

Amma o da var ki, hamı bu zirvəyə layiqincə gedib çata bilmir. Çünki ora gedən yol asan və rahat deyil. Tanrı heç də hər kəsə bu yolun məsuliyyətini "yükləmir". İnsan da var ki, lap gəncliyindən çıxdığı yolun kamilliyə doğru istiqamət götürdüyünün fərqinə varır. Bütün ağrı-acılarını, sevgi və sevinclərini, taleyin ona bəxş etdiyi şansın, ya da şanssızlığın "yük"ünü özü ilə daşıyıb asanlıqla o ali zirvəyə aparır. Bu, tək-tək insana nəsib olan taledir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva belə bir taleyin daşıyıcısı olan birincilərdəndir. Birinci xanım o qədər mehriban, zərif, incə, gözəldir ki, bunlar bəzən adama illüziya kimi görünür, nağıl təsiri bağışlayır. Amma bu, nə illüziyadır, nə də nağıldır. Bu, Tanrının bir Azərbaycan xanımına verdiyi lütfdür. Bu gün Mehriban xanım Əliyeva dönüb arxaya baxanda yəqin ki, bəzən keçmişin acılı-şirinli xatirələrini vərəqləyərək ötən günlərin nostalgiyası ilə duyğulanır. Keçmiş isə çox da uzaqda deyil, əlini uzatsa "tuta" bilər. Və həmin yaxın keçmişin görünən tərəfi Azərbaycan xalqının gözü önündən gəlib keçib. Görünməyən tərəfində hansı yaşantıların olduğunu isə yalnız özü bilir.

Əslində, bu yaşantılar ömrün müəyyən bir dövrünü əhatə edənlərdir. Hələ taleyin uzun yolları, bu yollarda irəliyə doğru addımlamaq var. Bu yolda yıxılsan da, büdrəsən də, yenidən ayaqda durmaq var. Nə etməli? Həyat belədir - tufanlı, boranlı. Gərək bu tufanlardan keçib boranı üstələməyi bacarasan, nəyin arxasınca düşdüyünü, nəyi axtardığını biləsən.

İnsan nə axtarır, nəyi gözləyir ki?! Xoşbəxtliyimi, səadətimi? Bəlkə insan ömrü boyu özünü axtarır?! Heç uydurma "uçan xalça" da insanın özünü özündən uzaqlaşdıra bilməz. Xoşbəxtlik axtarmaq o demək deyil ki, onun üçün düz-dünyanı gəzib-dolaşasan. Xoşbəxtlik və bədbəxtlik insanın öz içindədir. Onu yük kimi özünlə daşıyırsan - belədən-beləyə, elədən-eləyə. Bu, çox etibarlı yükdür. Hara gedirsən get - nə itəcək, nə batacaq, nə azalacaq, nə də artacaq... Heç "xəyanət" də etməyəcək.

Biz Mehriban xanımın "xoşbəxtlik yükü" daşıdığına əminik. Onun ömür payının ayrı-ayrı yaşantıları bu xoşbəxtliyin ayrı-ayrı anlarıdır.

Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın və akademik Arif Paşayevin ailəsində dünyaya gəlmək xoşbəxtliyin qapısını açmaqdır. Orta məktəbi qızıl medalla bitirib Tibb İnstitutuna qəbul olmaq xoşbəxliyin addım səsidir. Söz dünyasının ədəbi və ədəbli fikir yazarı Mir Cəlal Paşayev, Azərbaycan mətbuatının sönməz işığı Nəsir İmanquliyev kimi şəxsiyyətlərin nəvəsi olmaq xoşbəxtliyin sorağıdır. Ulu Öndər Heydər Əliyevin və oftalmologiya elmi ilə qaranlığa qalib gələn akademik Zərifə xanım Əliyevanın gəlini olmaq xoşbəxtliyin şərəfi və ləyaqətidir. Prezident İlham Əliyevin həyat yoldaşı kimi onunla çiyin-çiyinə dayanmaq, yan-yana addımlamaq, üç övlad anası olmaq, dünyanın ən gözəl, gənc nənəsi kimi diqqətləri cəlb etmək xoşbəxtliyin elə özüdür. Vətən müharibəsi günlərində Müzəffər Ali Baş Komandanla 44 gün eyni hissləri yaşamaq, eyni duyğuların burulğanında "üzmək", gecələr yuxusuz qalmaq, sabahı dirigözlü açmaq, həyəcandan, gözləməkdən az qala nəfəssiz qalmaq, boğulmaq, Vətən oğullarının güllə yarasına sığal çəkmək, şəhid övladlara ağı demək, analarını bağrına basmaq, göz yaşını gizlədə bilməmək, qazilər haqqında "fəxr edirəm ki, belə qardaşlarım var" deyə qürurlandığını paylaşmaq və bütün bu yaşantıların sonunda Zəfər sevincini yaşamaq isə xoşbəxtliyin müqəddəs məqamıdır.

O, bu məqama ömrün pillələrini Azərbaycan qadınına məxsus zəkası, müdrikliyi, sədaqəti, vəfası və etibarı, yüksək xanımlıq keyfiyyətləri ilə çatıb. Azərbaycan və dünya siyasi arenasında ictimai-siyasi fəallığı ilə seçilən, cəmiyyətin inkişafında, dövlət quruculuğu proseslərində böyük rol oynayan Mehriban xanım Əliyevanın vətən və xalq üçün son 20 ildə gördüyü işləri sadalasaq, təbii ki, bir qəzet məqaləsinə sığmaz. Amma ömründən keçən illərdə gördüyü işlərə möhür vuran bəzi məqamları xatırlamamaq mümkün deyil.

Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyeva bütün zamanlarda həm ictimai xadim, həm ailəsinin xanımı, həm də ana kimi qadınlarımıza cəmiyyət həyatında layiqli yer tutmaq nümunəsini göstərib. Birinci vitse-prezident Avropada və dünyada ciddi mədəni və sosial layihələrə verdiyi dəstəklə yaddaşlara hopub. Vaxt var idi Azərbaycan hər tərəfdən mühasirəyə alınmışdı, informasiya blokadasından əziyyət çəkirdi. Dünyada ölkəmizə qarşı ikili standartların hökm sürdüyü belə bir zamanda işğal altında olan Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün Mehriban xanımın layihələri informasiya blokadasını yarıb.

Mehriban xanım Birinci vitse-prezident kimi öz gərgin fəaliyyəti ilə hər zaman Azərbaycan xalqının xidmətində dayanıb. Onun bu humanist və xeyirxah xidmətləri bütün türk və dünya mətbuatında xüsusi qeyd olunur, təşəbbüslərinin əks-sədası Azərbaycandan kənara yayılır. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə gördüyü xeyriyyə işləri insanların qəlbinə sevgi ilə hopur. Fəaliyyəti ilə həmkarlarını heyran edən birinci xanım hər zaman zərif, mehriban və xeyirxah, şəfqətli və humanist addımlar atır. Və bu addımlar mənalı bir ömrün naxışları kimi xanım Mehriban Əliyevanın həyat yolunu nurlandırır. Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı və dünyanın ən qədim tarixi-arxeoloji qoruğu olan Qobustan yaşayış məskəni, aşıq sənəti və Azərbaycan kəlağayısı, Novruz bayramı və milli atüstü oyun olan Çövkən dünya qeyri-maddi mədəni irs siyahısına salınıb.

*Gözəl, zərif, kübar, incə və işıqlı Mehriban xanım ömründən keçən illərin özəl anlarını toplasa, nə qədər edər? Azmı olar, çoxmu olar? Bunu yəqin ki, özü daha yaxşı bilir. Yəqin onu da bilir ki, biz - onu sevənlər, eləcə də onun sevdikləri, doğmaları, əzizləri bu gün qərar tutduğu müdrikliyin zirvəsində onunlayıq.*

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

**Hazırda dünyada baş verən mürəkkəb hadisələr və qloballaşma prosesləri fonunda müasir Azərbaycanın inkişaf xarakteristikasına baxdıqda hər şeydən əvvəl formalaşmış möhkəm dövlət, cəmiyyətin bütün təbəqələri arasında sevilən güclü dövlət başçısı, humanitar və sosial idarəetmə prinisplərini ön planda tutan, əhalinin sosial müdafiəsini və gələcəyə yönəlmiş dayanıqlı inkişaf siyasətini əldə əsas tutan demokratik idarəetmə sisteminin olduğunu görürük.**



# Xalqın sevgisini nəcib missiyası ilə qazanıb

Qalib Azərbaycan vətəndaşlarının gələcəyə baxışlarını, ölkəmizin uzaq onillər sonrası hərtərəfli inkişafını və müdafiə qabiliyyətini hədəfləyən mütəvazi, amma dərin düşünülmüş bu siyasətin memarları bu gün hər zamankından daha qüvvətli və daha qətiyyətli addımlarla bütün xalqımızı öz ətrafında birləşdirməyi bacarmışlar. Məhz dövlət başçısı, Prezident İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın formalaşdıraraq, uğurla davam etdirdiyi çoxşaxəli dövlətçilik fəaliyyəti bu gün tam suveren Vətənimizi siyasi və sosial-iqtisadi sabitliyə qovuşdurub, hər il böyük Zəfərin bayram edildiyi bir ölkə kimi qlobal arenada tanıtmışdır. Bu baxımdan, ölkəmizin son onilliklərdə qazandığı zəfərlərdə böyük əməyi olan, xalqımızın sahib olduğu bütün nəcib keyfiyyətləri özündə təcəssüm etdirən birinci xanım Mehriban Əliyevanın müstəqil Azərbaycan Respublikasının dövlətçilik tarixindəki xidmətlərinin təhlili və təbliği yeni dövr elmi, sosial-mədəni mühitimizin araşdırmaçılarının mühüm vəzifələrindən biridir.

Müasir Azərbaycan öz tarixinin ən yüksək inkişaf mərhələsini yaşayır. Dövlət müstəqilliyimizin yenidən bərpası ilə ötən əsrin 90-cı illərindən başlayan tarixi mərhələdə Azərbaycanın həyatında baş verən mürəkkəb, keşməkeşli hadisələr xalqmızın həyatında elə dərin izlər qoymuşdur ki, bu gün həmin günləri canlı xatırlayan, yaxud tarix səhifələrindən görüb, oxuyanlar bu gün qazandığımız qələbələrin kökündə məhz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideyalarına sadiqlik, demokratik dəyərlərin yayılması və inkişafı, praqmatik düşüncə və qətiyyətli idarəçiliyin dayandığına heç şübhə etmədən inanırlar. Bu gün Cənubi Qafqazın lider ölkəsi, regionun iqtisadi, mədəni və hərbi güc mərkəzi olan Azərbaycanın əldə etdiyi potensialın məhz yürüdülən düzgün daxili və xarici siyasətin məhsulu olduğunu qonşuluğumuzdakı və ölkəmizlə eyni tarixi yolu keçmiş digər ölkələrin faktiki çətin vəziyyəti ilə də müqayisədə açıq görmək mümkündür. Ona görə də güclü dövlət qurmaq, güclü dövlətdə sülh və asayiş içində yaşamaq, gülcü dövlətin vətəndaşı kimi xarici səfərlərdə hörmətlə qarşılanmaq və ən nəhayət, güclü dövlətin xarizmatik rəhbəri kimi bütün platformalarda söz sahibi olmağın nə dərəcədə böyük xoşbəxtlik olduğunu indi hər bir azərbaycanlı öz həyatında bilavasitə yaşamaqda, dünya mediasindan izləməkdədir. Bütün bunları bir daha xatırlayıb ölkəmizin keçdiyi inkişaf yoluna qısa nəzər saldıqda, şübhəsiz, dövlət başçımızın ən yaxın silahdaşı Mehriban xanım Əliyevanın xalqımız qarşısındakı böyük xidmətlərini açıqca görür və bu əvəzsiz xidmətlərin müasir cəmiyyətimiz ilə yüz il sonrakı Azərbaycan arasında etibarlı mənəvi bağlar formalaşdırdığına inanırıq. Odur ki, Ulu Öndərdən miras qalmış xalqa, Vətənə təmənnasız xidmət missiyasını bir həyat fəlsəfəsi kimi öz şəxsi həyatına, ictimai-siyasi fəaliyyətinə hopdurmuş Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsində bu gün bütün cəmiyyətimizin gələcəyə inamını, insanların bir-birinə qarşılıqlı hörmətini və tolerantlığını, sağlam böyüyən gəncliyə göstərilən qayğıkeşliyi və bir azərbaycanlı ailəsinin xoşbəxtliyini də görürük.

Mehriban xanım Əliyevanın tanınmış ictimai-siyasi xadim olması ilə yanaşı, nəcib insan, mehriban ana kimi də sahib olduğu bütün bəşəri keyfiyyətləri onun doğulub-böyüdüyü və təhsil aldığı ailəsindən başlayır. Tanınmış ziyalı mənsubiyyətinə malik ata ocağına xas olan yüksək intellekti və mənəvi keyfiyyətləri daha sonra taleyini bağladığı Ulu Öndər Heydər Əliyevin ailəsində daha da püxtələşmişdir. Dahi rəhbərin siyasi idarəçilik məktəbi və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın zəngin irsi Mehriban xanım Əliyeva üçün əsl həyat məktəbi olmuş və bu məktəb bir qadın, bir ana üçün daşıdığı məsuliyyəti ona ən dərindən hiss etdirən, Azərbaycan xalqına məxsus ən nəcib ailə dəyərlərini yaşadan bir etalon rolunu oynamışdır. Bu gün ölkəmizdə balacaların sevimlisi ola bilmək, şəhid və qazi ailələrinin, maddi və mənəvi dəstəyə ehtiyacı olan səxslərin, valideyn himayəsindən məhrum uşaqların təskinlik yeri ola bilmək bu mənada, Mehriban xanım Əliyevanın həyat axarı, onun gündəlik qayğılarının mühüm bir hissəsidir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, xüsusən ölkəmizin müstəqillik illərində düşmən təcavüzü və xarici təsirlərə məruz qaldığımız ilk illərdə yaşadığımız çətinliklər qarşısında sınmayan xalqımızın mətanətinin bir gün mütləq polad kimi daha da bərkiyərək "dəmir yumruğ"a dönəcəyini yaxşı bilən Mehriban xanım Əliyeva bu mənada Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, onun yetişdirdiyi mübariz, vətənpərvər gəncliyin qayğısına qalan mənəvi ana da olmuşdur. Bu mənada Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin bəhrəsi olan fiziki cəhətdən sağlam, mənəvi cəhətdən saf və vətənpərvər Azərbaycan gəncliyi bu gün ölkəmizin əsl milli sərvəti kimi hər birimizi xoşbəxt edir.

Bir siyasi xadim kimi də Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəli və məsuliyyətlidir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti kimi vəzifələri icra edən Mehriban xanım Əliyeva dövlət başçısının gərgin iş qrafikində onunla həmişə çiyin-çiyinə addımlayaraq, əsl silahdaş olduğunu da bütün dünyaya nümayiş etdirmişdir. İşğaldan azad olunmuş Şuşadan Xudafərinə, Ağdamdan Laçınadək bütün azad Qarabağ və Şərqi Zəngəzurda dövlət başçımızla bərabər addımlayaraq bu torpaqların yenidən dirçəldilməsində, böyük qayıdışa hazırlanmasında bütün idarəçilik biliklərini və bacarıqlarını ortaya qoyan Mehriban xanım Əliyeva bu mənada işğal sonrası reallıqları həzm edə bilməyən bəzi xarici bədnam qüvvələrə də ciddi humanitar mesajlar göndərmiş, onları bir an öncə insan olmağa səsləmişdir. İşğaldan azad olunmuş ərazilərimizdə törədilmiş vandalizmi, dağıntıları öz imzası ilə birbaşa olaraq dünya ictimaiyyətinə çatdıran Mehriban xanım Əliyeva dünyaya mədəniyyət dərsi keçənlərə də bu yolla həqiqi dərs keçməklə torpaqlarımızın əsl sahibinin artıq qayıtdığını prezidental kürsülərdən bir daha nümayiş etdirdi. Bütün bunlar isə təkcə son otuz ildə deyil, ümumilikdə XX əsrin əvvəllərindən başlayaraq ölkəmizin qarşılaşdığı ədalətsizliklərin, soyqırım və deportasiyaların dünyaya açıqca çatdırılmasında prinsipial məsələlər olub, Azərbaycan həqiqətlərinin tanıdılmasında yerli və xarici mediaya və dipolmatik təmsilçilərə yönverici tezislər kimi mühüm əhəmiyyətli çıxışlar və paylaşımlardır.

Bugünkü Azərbaycan isə 20 il əvvəlki Azərbaycandan çox fərqlidir. O dövrlər sadəcə iqtisadiyyatını və ordusunu gücləndirmək, beynəlxalq əlaqələrdə Azərbaycanın mövqeyini möhkəmləndirmək və bu gün dünya arenasında söz sahibinə çevrilmiş türk dövlətlərinin birliyini yaratmaq kimi vəzifələrin ilk addımlarının atıldığı Azərbaycan ötən dövrdə çox böyük məsafə qət edərək BMT-nin kağız üzərində qalmış qərar və qətnamələrini öz imkanları hesabına həll edib "Qarabağ Azərbaycandır!" son nidasını qoya biləcək bir inkişafa, siyasi nüfuza qovuşdu. Ölkəmizdə infrastruktun yenilənməsi və iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması, regionların tarazlı inkişafına nail olunması, ucqarlarda yeni iş yerlərinin yaradılması və sosial-mədəni sahələrin inkişafı, turizm ehtiyatlarımızın mühafizəsi və tanıdılması, ekoloji tarazlığın qorunması və "yaşıl enerji"yə keçid kimi müasir dövrün dayanıqlı inkişaf imperativlərini əhatə edən sahələrdə problemlərin davamlı həlli isə dövlətimizin növbəti onilliklərdə qarşıya qoyduğu həllivacib məsələlərdəndir. Bunlardan əlavə, Qarabağ və Şərqi Zəngəzurun yenidən inşası kimi milyardlar tələb edən nəhəng işin öhdəsindən gəlmək, bununla paralel olaraq, yaranmış yeni geostrateji vəziyyətdə və yaxın perspektivdə ölkəmizə qarşı yarana biləcək təhlükələrə qarşı preventiv tədbirlər görmək, Müzəffər Ordumuzun döyüş qabiliyyətini daim yüksək səviyyədə tutmaq, türk dövlətləri birliyi və ölkəmizlə dost olan digər dövlətlərlə iqtisadi-mədəni əlaqələrin tranzit mərkəzi güzərgahındakı mövqeyimizi daha da möhkəmləndirmək kimi vəzifələrin icrası da gələcək Azərbaycanın yeni dünyadakı vizit kartı olacaq. Bütün bu və digər çoxsaylı mürəkkəb işlərin həllində dövlət başçımız, Prezident cənab İlham Əliyevin ən yaxın silahdaşı olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dərin düşüncəsinin məhsulu olacaq qərarlar ölkəmiz üçün ən doğru olan seçimlər yaradacaq, Azərbaycan daha da inkişaf edəcəkdir.

Qədim mədəniyyətə malik Azərbaycan xalqı bu gün özünün intibah dövrünü yaşayır. Vahid azərbaycançılıq ideologiyası altında sıx birləşmiş çoxmillətli, tolerant Azərbaycan cəmiyyətinin hər bir fərdi dünyada gedən prosesləri yaxından izləməklə ən yeni innovativ yenilikləri həm şəxsi, həm də ictimai həyatında bilavasitə yaşamaq üçün öz istedadını və yaradıcı qüvvəsini ortaya qoyur. Bu mənada cəmiyyətin artan sosial-mədəni tələbatlarını ödəyə bilmək, tarixi-mədəni sərvətlərimizi olduğu kimi qoruyub ümumbəşəri dəyər kimi dünya mirasına qazandırmaq bu gün hər zamankından daha vacib məsələ kimi dövlətimiz tərəfindən qarşıya bir vəzifə qoyulub. Həmçinin Azərbaycan xalqının sahib olduğu yüksək qonaqpərvərlik və yaradıcılıq keyfiyyətlərini maddi-mədəni dəyərlərə çevirməklə bu sahədə layiq olduğumuz mövqeyə çatmağımız da dövlət başçımızı daim düşündürən məsələlərdəndir. Bu və digər belə mühüm məsələlər Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın gərgin iş qrafikində mühüm yer tutmaqla ardıcıl, məqsədyönlü qərarlar şəklində həll olunur. Ölkəmizdə milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün tarixi abidələrin qorunması, onların elmi əsaslarla bərpası, təhsil, səhiyyə, yeni mədəniyyət obyektlərinin tikintisi və ya yenidən qurulması keçmişdən gələcəyə salınan humanitar körpülərin etibarlı sütunları kimi yüzillərboyu öz əhəmiyyətini qoruyub saxlayacaqdır.

Bu mənada işğaldan azad olunmuş torpaqlarımızda məscidlərin və digər tarixi abidələrimizin bərpa olunması ilə paralel olaraq ölkəmizin müxtəlif yerlərindəki müsəlman və qeyri-müsəlman abidələrin də yenidən qurularaq xalqımızın sahib olduğu multikultural dəyərlərin və tolerantlıq keyfiyyətinin dünyaya nümayişi daim olaraq Mehriban xanım Əliyevanı düşündürən məsələlərdəndir. Uzun onilliklər boyu Azərbaycanın beynəlxalq aləmdə məruz qaldığı ikili standartlara qarşı tutarlı cavab verilə bilinməsi üçün məhz tolerantlığımızın və mədəniyyətimizin gücündən istifadə olunması mühüm bir politoloji düşüncə kimi Mehriban xanım Əliyevanın siyasətində əsas prioritetlərdən biridir. Şuşa şəhərindəki Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa məscidləri, Ağdam şəhər məscidi və Zəngilan şəhər məscidinin bərpa olunması, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi dünyaya Azərbaycanın maddi-mədəniyyət nümunələrinin sahibsiz olmadığını nümayiş etdirən tədbirlərdəndir.

Erməni işğalı sonrası Şuşada keçirilən festivallar və müxtəlif mədəniyyət tədbirləri də Mehriban xanım Əliyevanın rəhbərliyində Heydər Əliyev Fondunun həyata keçirdiyi möhtəşəm layihələrdəndir. 2004-cü ilin mayından Ulu Öndərin ideyalarını yaşatmaq missiyası ilə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban xanım Əliyevanın təşəbbüskarlığı həm ölkəmiz daxilində, həm də onun hüdudlarından kənarda da böyük əks-səda yaradır.

Heydər Əliyev Fondunun dəstəyi ilə Avropadan uzaq Asiyaya qədər müxtəlif ölkələrdə həyata keçirilmiş humanitar-mədəni məzmunlu işlər, ümumilikdə ölkəmizin dünya arenasındakı siyasi çəkisini artıran, dostlarımızın sayını çoxaldan yaddaqalan tədbirlərdəndir. Mehriban xanım Əliyevanın birbaşa qayğısı ilə milli musiqimizi, musiqi alətlərmizi, milli geyimlərimizi, xalçalarımızı öz həqiqi kimliyi ilə tanıdan festivallar, sərgilər Azərbaycan mədəniyyətindən daşlar oğurlayıb binalar tikmək istəyən üzdəniraq işğalçı qonşumuzun bədnam istəyini ürəyində qoymuş, bu mövzuda illərboyu həyəcan təbili çalmış ziyalılarımızın, araşdırmaçı jurnalistlərin ürəyinə isə su səpmişdir. Onillər boyu beynəlxalq ekspertlərin görməzdən gəldiyi, ancaq sahib olduğu unikal tarixi dəyərlərə görə dünya mirasına ən güclü namizəd olmuş abidələrimizin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi məsələsi Azərbaycanın rastlaşdığı ən prinsipial problemlərdən biri olmuşdur. Məhz Mehriban xanım Əliyevanın apardığı gərgin və məqsədyönlü işlər sayəsində artıq xalqımıza məxsus dörd maddi-mədəniyyət və bir təbiət abidəsi bu mühüm sənəddə öz yerini almış, digər abidələrin, xüsusən də Naxçıvanda mövcud olan tarixi-mədəniyyət abidələrindən birinin bu siyahıya salınması qarşıya məqsəd kimi qoyulmuşdur.

Bu gün ölkəmizə səyahət edən turistlərin bu siyahıda olan İçərişəhərə, Qobustan qayaüstü rəsmlərinə, Şəki Xan Sarayına, Xınalıq Köç yoluna, həmçinin Hirkan meşələrinə səfərləri nə qədər prestijlidirsə, sabah qədim Ordubadın və Naxçıvan türbələrinin də bu məzmunda təqdimatı bir o qədər həyəcanverici olacaq. Milli muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənətinin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya daxil olunması bu fikrimizə ikiqat əminlik yaradır.

Bütün bunlar isə şübhəsiz ki, təkcə ölkəmizin dünya arenasındakı söz sahibi olmaq yolundakı yoxuşların aşılmasına deyil, eyni zamanda bugünkü qarışıq dünyada, Yaxın Şərqdə və Avropada baş verən konfliktlər fonunda hamının get-gedə daha çox ehtiyac duyduğu sivilizasiyalararası dialoqa və qarşılıqlı tolerantlığın möhkəmlənməsinə verilən töhfə baxımından Azərbaycanın sivil dünyaya qazandırdığı ən qiymətli dəyərlərdir. 2006-cı ildən ICESCO-nun xoşməramlı səfiri titulunu böyük şərəf və məsuliyyətlə daşıyan Mehriban xanım Əliyeva bu dəyərləri daha da dərinləşdirmək üçün siyasi və təşkilati bacarıqlarından daim məharətlə istifadə etmiş, vətənpərvər bir qadın kimi ölkəmizin maraqlarını beynəlxalq arenalarda qorumağı bacarmışdır. Bir neçə dildə səlis danışa bilən Mehriban xanım Əliyevanın bütün bu bacarıqları tarixdə dərin izlər qoymuş Azərbaycanın qadın diplomatlarının bugünkü layiqli davamçısı kimi gənclərimizə də ilham qaynağıdır.

Azərbaycan sivil dövlətdir və ölkəmizdə hər bir vətəndaşın layiqli yaşamaq, təhsil almaq, iş yeri olmaq, özünə ehtiyac duyduğu turizm səyahətlərinə yollanmaq kimi hüquqları vardır. Son onilliklərdə ölkəmizin qarşılaşdığı işğala və digər çətinliklərə baxmayaraq, dövlətmiz öz vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi, hərtərəfli insan resurslarının hazırlanması, sağlam gəncliyin yetişdirilməsi və əhalinin sosial müdafiəsinin gücləndirilməsində mühüm məsafə qət etmiş və bu sahədə silsilə tədbirlər ardıcıl davam etdirilməkdədir.

Cəmiyyətimizin bu məsələdə yüksək tələbkarlığı dövlətimizin də daxili siyasətində müvafiq prioritet vəzifə kimi qarşıya qoyulub və hər bir Azərbaycan gəncinin gələcəyin layiqli vətəndaşı ola bilməsi üçün lazım olan tədbirlər davam etdirilir. Ölkəmizdə vətəndaşların təhsilalma hüquqlarından tam və səmərəli istifadə etməsi, sağlamlığının qorunması və bərpa edilməsi üçün imkanların yaradılması, turizm-rekreasiya potensialından faydalanması üçün dünya standartları səviyyəsində infrastruktur şəraitinin formalaşdırılması üçün ciddi işlər həyata keçirilir. Bütün bunlarla paralel olaraq, əhalinin xüsusi qayğıya möhtac, həssas təbəqəsinin tələbatlarının nəzərə alınması üçün ünvanlı tədbirlər görülməsində Mehriban xanım Əliyevanın şəxsi diqqəti ilə görülmüş işlər ölkəmizə vətəndaş həmrəyliyini daha da möhkəmləndirən monolit sütunlar rolunu daşıyır.

Maddi imkanları yüksək olmayan insanları əhatə edən xeyriyyəçilik tədbirlərini genişləndirən Mehriban xanım Əliyeva xüsusi qayğıya, xaricdə müalicəyə və istirahətə ehtiyacı olanların da istəklərinin gözündə qalmaması üçün öz diqqətini əsrigəmir, insanlarla ünsiyyət yaratmaq, sadə vətəndaşlara evində baş çəkib çay süfrəsində onlarla həmsöhbət olmaqla əsl yardımsevər azərbaycanlı qadını nümunəsi göstərir.

Ötən dövrdə Mehriban xanım Əliyeva öndərliyində Azərbaycanın gələcək ulduzlarının - xüsusi istedad sahibi uşaqların, gənclərin bacarıqlarının üzə çıxarılması, onların daha da inkişaf etdirilməsi üçün həyata keçirilən layihələr qısa müddətdə öz nəticəsini göstərdi və ölkəmiz "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, "Formula-1", Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi. Ölkəmizdə insan resurslarının hazırlanmasına yatırılan sərmayə, qara qızılın yerüstu sərvətə çevrilməsi üçün görülən işlər son illərdə, xüsusən Böyük Zəfərimizlə bitən II Qarabağ müharibəsindən sonrakı dövrdə öz əhəmiyyətini daha da açıq şəkildə göstərdi.

Artıq Azərbaycan London-Şanxay və "Şimal-Cənub" dəhlizinin ən sabit və ən cazibədar məkanı, Avropanın enerji təhlükəsizliyinin ən etibarlı partnyoru halına gəlmiş, ölkəmizin adı birgə beynəlxalq layihələrin titul vərəqində böyük hərflərlə yazılmaqdadır. Postmüharibə dövründə Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsi onun Qoşulmama Hərəkatına sədrliyi, Türk Dövlətləri Birliyinin aparıcı ölkələrindən biri olması və şübhəsiz, XXI əsr dünyasının ən kritik gündəm maddələrindən biri olan "Yaşıl dünya" və "Yaşıl enerji" üzrə diskussiyaların aparıldığı qlobal forum məkanı halına gəlməsi ilə məntiqi olaraq tamamlanır.

Hazırda dünyanın bir nömrəli problemi kimi iqtisadi, hərbi, demoqrafik potensialından asılı olmayaraq bütün ölkələri eyni dərəcədə təhdid edən qlobal iqlim dəyişikliyinə qarşı planetar mübarizəyə qoşulmuş Azərbaycan bu il COP29 kimi mötəbər beynəlxalq sammitə evsahibliyi edəcək. Dövlət başçımız, Prezident İlham Əliyevin də bu barədə dəfələrlə vurğuladığı kimi, Azərbaycanın 100 minə yaxın qonağın iştirakının gözlənildiyi belə genişmiqyaslı tədbirlərin keçirilməsi üçün iqtisadi imkanları və təşkilatçılıq gücü kifayət qədərdir. Dünyaya sülh və qarşılıqlı faydalı əməkdaşlığın vacibliyi haqda mesajların veriləcəyi bu beynəlxalq tədbirdə Azərbaycandan dünyaya veriləcək "Yaşıl dünya naminə həmrəylik" çağırışları dünyanın gündəminə öz imzasını qoyacaq. Ümumiyyətlə, ölkəmizdə Mehriban xanım Əliyeva liderliyində ekoloji tarazlığın qorunması istiqamətində görülmüş bütün işlər Azərbaycanın "yaşıl dünya" naminə bütün dünyaya nümunə olduğunu sübut edir. İşğal nəticəsində ekoterrora məruz qalmış Qarabağın "yaşıl libası"na yenidən qovuşdurulması üçün keçirilən kütləvi ağacəkmə kampaniyaları, ölkəmizdə biomüxtəlifliyin, xüsusilə də nəsli kəsilmək təhlükəsi yaşayan canlıların xüsusi mühafizə olunan ərazilərdə qoruma altına alınması, plastik tullantıların təbiətə atılmasının azaldılması üçün verilən qərarlar və digər mühüm ekoloji əhəmiyyətli tədbirlər Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın ekoloji tarazlığın qorunmasına ayırdığı diqqətin bariz nümunəsidir. Bütün bunlar hamısı yüksək təsir güclü "yaşıl enerji" diplomatiyası ilə dünyanın diqqət mərkəzi halına gələn Azərbaycanın gələcəyə baxış konsepsiyasında öz yerini alan təməl ekoloji tələblərdəndir.

Çətin anlarda insanların yanında olmaq bu dünyada ən böyük savab və vicdan işidir. Nəcib əməlləri ilə seçilən Mehriban xanım Əliyevanın geniş fəaliyyətində bu aspekt daim ön planda olub, cəmiyyətimizin həssas olduğu məsələlərdə öncül olmaq, mövcud problemləri yerində öyrənib operativ müdaxilə etmək, bir sözlə, ehtiyacı olanlara diqqət göstərməklə şaxələnir.

Azərbaycan xalqının qürur duyduğu, eyni zamanda ən həssas insanları olan şəhid ailələri və qazilərin sosial müdafiəsində olduqca qayğıkeş olan Mehriban xanım Əliyeva hər görüşündə şəhid analarının boynuna sarılan, qazi qardaşlarının yaralarını saran mənəvi məlhəm kimi bu sahədə böyük bir yükü öz çiyninə almışdır. Otuz il ərzində öz doğma yurdlarından ayrı düşmüş qaçqın və məcburi köçkünlərə dayaq olmuş Mehriban xanım Əliyevanın şəhid ailələrinə verdiyi təskinlik, qəhrəman qazilərimizin sağlamlığına qovuşması üçün ayırdığı maddi dəstək də cəmiyyətimizin bütün üzvləri tərəfindən yüksək məmnuniyyətlə qarşılanmış, bütün xalqımızda əzbər olmuş "Yaşat ki, yaşayasan!" devizinə çevrilmişdir. Ulu Öndərin bir zaman **"Biz o torpaqlara qayıdacağıq, inanın ki, qayıdacağıq!"** vəsiyyətini böyük cəsarətlə yerinə yetirib torpaqlarımızı düşmən işğalından azad edən Ali Baş Komandan İlham Əliyevə bu şərəfli missiyasında ən böyük dayaq olmuş Mehriban xanım Əliyeva Vətən müharibəsi qəhrəmanlarımıza göstərdiyi yüksək ehtiramla da onların əvəzsiz xidmətlərinin heç zaman unudulmayacağını ifadə etmişdir. Məhz şəhidlərimizin əziz xatirəsi, qazilərimizə ayrılan diqqət bu gün Azərbaycanda xalq-dövlət-ordu birliyini ən yüksək səviyyəyə çatdırmaqla ölkəmizin hər bir vətəndaşına qalib ölkədə yaşamaq qüruru nəsib etməkdədir.

Xalqa xidmət missiyası hər bir insanın cəmiyyətdə çatmaq istədiyi ən yüksək mərtəbə, qazanmaq istədiyi ən böyük mükafatdır. Azərbaycanın mövcud portretinə nəzər saldıqda ümumi inkişaf imperativlərinin diktəsi altında demokratik cəmiyyət quruculuğu, hər bir insanın rəhbəri ətrafında sıx birliyi, qazanılmış qələbələrimizin qorunub saxlanılması və böyüyən gənc nəslin bu amal uğrunda mübarizə aparacaq gücdə tərbiyə olunub yetişdirilməsi istəyinə şahid oluruq. İndi hər bir azərbaycanlı tutduğu vəzifədən asılı olmayaraq, Vətənə xidmətə öz vicdanının səsi kimi yanaşır və bununla fəxr edir.

Ölkəmizdə bərqərar olmuş vətəndaş həmrəyliyi elə bir səviyyəyə çatmışdır ki, dövlətçiliyimizin möhkəmləndirilməsinə verə biləcəyimiz ən kiçik bir töhfə belə, bu mənada, insanlar üçün ən böyük mükafat, ən böyük üstün xidmət mərtəbəsidir. Azərbaycan xalqının ən yeni tarixinə öz parlaq imzasını qoymuş Ulu Öndər Heydər Əliyevin ideyalarını nəcib xeyirxahlıq əməllərində bu gün də yaşadan, dövlət başçımız, Prezident İlham Əliyevin ən yaxın silahdaşı, birinci xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinə çox qısa nəzər saldıqda xalqa xidmət missiyasının nə qədər çətin olsa da, bir o qədər şərəfli olduğunu bir daha görürük. Yaşadığımız narahat dünyada, hər cür türbulanslarla dolu yaxın regionumuzda Azərbaycanı sabitlik məkanına, iqtisadi, mədəni, sosial və humanitar inkişaf meydanına çevirə bilmək bu mənada, işğala yenicə son qoymuş bir dövlətin başında duranlara Uca Allahın ən böyük mükafatıdır.

*Çox sayda dövlət mükafatları olan, dost və qardaş ölkələrin ali dövlət təltiflərinə, akademik vəzifələrə layiq görülmüş Mehriban xanım Əliyevanın xalqımıza xidmət missiyası haqqında çox deyilmiş, çox yazılmışdır. Ancaq bu gün göstərdiyi əvəzsiz xidmətlərlə Azərbaycanın ictimai-siyasi həyatına öz imzasını qoymuş Mehriban xanım Əliyevanın şəxsi keyfiyyətləri və dövlətçilik fəaliyyəti haqqında yeni bir fikrə gəlmək mümkün olursa, bu, ölkəmizin inkişafından fəxrlə danışa bilən hər bir ziyalının mənəvi qazancı, xalqına təmənnasız xidmət yoludur. Arzu edirik, bu yolumuz uzunömürlü olsun!*

**Ədalət MURADOV,**
***UNEC-in rektoru***

# "Gəl sənə

## Şərqi Zəngəzurun qədim diyarı







◆ Şərqi Zəngəzurdan reportaj

**Şərqi Zəngəzurun giriş qapısı, uca dağların qoynundakı cənnətməkan Laçındayıq...**

**İsti avqust ayı olsa da, Laçında dumanlı-çənli, yağmurlu hava var bu gün...**

**Tərtəmiz dağ havası oksigen deposudur sanki...**

**Kəklikotunun bihuş edən rahiyəsi ətrafa yayıldıqca adamın ruhunu oxşayır...**

**Həkəri çayını keçib şəhərə doğru yüksəkliyə qalxdıqca elə bil rəssamın peyzajına tamaşa edirsən...**

**Laçın bir ayrı mənzərədir, baxdıqca adamın ürəyi dağa dönür.**

**Bir anlıq fikirləşəndə ki, bu boyda əzəməti Zəfərimizin memarı İlham Əliyev cəmi 7 aya ərsəyə gətirib, qürurlanırsan, fəxarət hissi keçirirsən.**

### İlham Əliyev Laçını cənnətə döndərib

Şəhərin küçələri Zəfər bayrağımıza bürünüb. Laçın Şəhəri Gününə hazırdır. İllər sonra doğma yurdlarına qayıdan laçınlılar xoş əhvali-ruhiyyədədirlər. Bu da hər kəsin bayram ovqatında olduğunu hiss etdirir. Qarşımıza çıxan insanlar mehribanlıqla salam verir, bizi evlərinə dəvət edirlər...

Yolun lap kənarındakı evin küçə qapısında dayanan orta yaşlı bir kişi qürurla bizə yaxınlaşıb, "Ərəbzəngi" kimi yolumuzu kəsərək ərklə deyir:

- Əlinizdəki fotoaparatdan, dəftər-qələminizdən sizi jurnalistə oxşadıram. Atamın ruhu haqqı bir stəkan kəklikotulu çayımı içməsəniz, sizi heç yerə getməyə qoymaram. Adım Gündüzdür... Bu ev də heç adi ev deyil. Qarabağın xilaskarı, bu Vətəni cənnətə döndərən İlham Əliyevin özü də bu evdə olub...

Gündüz kişinin israrlı təklifi ilə razılaşmaqdan başqa çarəmiz qalmadığını hiss edib, söhbəti çay süfrəsi arxasında davam etdiririk. Öyrənirik ki, beş nəfərdən ibarət Təhməzovlar ailəsi doğma yurda dönən ilk 20 ailədəndir. Ailə 31 illik köçkünlük həyatını Pirəkəşküldə hərbi şəhərciyin yataqxanasında dar, şəraitsiz otaqlarda keçirib.

Ailənin başçısı, Gündüzün anası İpək xanım deyir: "Yaxşı ki, keçmişə qayıtmaq olmur. Əgər mənə desələr ki, keçmişi istəyirsən, yoxsa gələcəyi, məmnuniyyətlə gələcəyi seçərdim. Keçmişdə nə gördük ki? Ölüm, qan-qada... Qardaş-qardaşa silah qaldırırdı. Ermənilərin gündə bir kəndimizi işğal etməsini bir kənara qoyaq, qardaş qırğınının bir addımlığındaydıq. O illəri yada salanda adam az qalır ki, dəli olsun. Nə yaxşı ki, Allah Heydər Əliyevi bu millətə bəxş etdi. Nə yaxşı ki, Heydər Əliyev bu xalqa sahib çıxdı...

Laçından əliyalın, ayağıyalın, bir yaylığımızı götürüb çıxmışdıq. Göydən od ələnirdi. Cavanlarımız bizi - namuslarını qorumaq üçün canlarını düşmənə sipər etmişdilər. Düşmən evimizi, illər boyu zülmlə topladığımız nəyimiz vardısa, oda qalamışdı. Buradan çıxarkən dönüb geri baxanda yalnız yanan evlərimizin tüstüsünü görürdük.

Eşidəndə ki, Laçına qayıdırıq, gözlərim önündə o mənzərə təkrar canlandı. Anaların ahından, qız-gəlinlərin naləsindən qulaq tutulurdu. Düzünü deyim ki, qayıtmaq istəmirdim. Deyirdim, gəlib o xarabalıqları görüb, o illərin acı xatirəsini təkrar yaşayacağam. İndi bir ətrafa baxın, Laçın cənnətdir. Bu yaraşıqlı, gözəl evləri, güllü-çiçəkli həyətimizi görəndə gözlərimə inanmadım. Dedim ki, İlahi, bu nə hikmətdir, sən mənə bu dünyada sağ ikən cəhənnəmi də, cənnəti də göstərdin. 30 il bundan əvvəl biz həyatımızda cəhənnəm əzabı yaşadıq. 30 il bundan əvvəlki Azərbaycanla indiki Azərbaycanı müqayisə etsək, fərq elə cənnətlə cəhənnəm qədərdir. Heydər Əliyevin oğlu İlham Əliyev bizə bu dünyada cənnəti də göstərdi. Bundan sonra ölsəm də, dərdim yoxdur.

Söhbətə Gündüz Təhməzov qoşulur. Şuşa işğal edildikdən sonra Laçın mühasirəyə düşmüşdü. Ermənilər həm Şuşa tərəfdən, həm Gorus istiqamətindən, həm də Zabux tərəfdən şəhərə hücum edirdilər. Dığ kəndində yerləşdirdikləri uzaqvuran toplarla şəhəri artilleriya atəşi altında saxlayırdılar. Ordu deyilən bir şey yox idi.

Laçın işğal olunan gün biz od-alovun içində, ayaqyalın, sahibsiz canımızı götürüb dədə-baba yurdumuzu tərk etmək məcburiyyətində qalmışdıq. Hara gedəcəyimizi, nə edəcəyimizi kimdənsə soruşmağı belə bilmirdik. Allah sanki bizi sınağa çəkirdi. Buradan birtəhər Pirəkəşkülə getdik, orada hərbçilərin yataqxanasında yerləşdik...

Heydər Əliyev yarımçıq qalmış işlərini İlham Əliyevin tamamlayacağını demişdi. Maşallah, oğul belə olar. Ata vəsiyyətini birə-bir yerinə yetirdi… Torpaqları işğaldan azad edib bu torpaqları cənnətə döndərdi.

İndi Laçında öz evimizdəyik. O evdə ki, 31 il əvvəl burada ürəyimizi qoyub getmişdik. Deyirlər ki, dövlət başçısını yuxuda görən adamın evindən bərəkət əskik olmaz. Həyatımız yuxu kimi olsa da, gördüklərimizə hətta özümüz inanmasaq belə, dövlətimizin başçısı evimizdə qonağımız oldu. Bu evin açarlarını özü bizə təqdim etdi. Bizə ən xoş arzularını çatdırdı. Artıq evsiz-eşiksiz deyilik. İndi bizə daha "qaçqın" deyən də yoxdur. İlham Əliyev Laçını gülüstana döndərib. Dünyanın hər yerindən turistlər axışıb Laçına gəlir. Turistlərin gəlişi dolanışığımıza da yaxşı təsir edir.





***Gündüz Təhməzov:***

**- Bu ev də heç adi ev deyil. Qarabağın xilaskarı, bu Vətəni cənnətə döndərən İlham Əliyevin özü də bu evdə olub...**

**Heydər Əliyev yarımçıq qalmış işlərini İlham Əliyevin tamamlayacağını demişdi. Maşallah, oğul belə olar. Ata vəsiyyətini birə-bir yerinə yetirdi… Torpaqları işğaldan azad edib bu torpaqları cənnətə döndərdi.**

**İndi Laçında öz evimizdəyik. O evdə ki, 31 il əvvəl burada ürəyimizi qoyub getmişdik. Deyirlər ki, dövlət başçısını yuxuda görən adamın evindən bərəkət əskik olmaz. Həyatımız yuxu kimi olsa da, gördüklərimizə hətta özümüz inanmasaq belə, dövlətimizin başçısı evimizdə qonağımız oldu. Bu evin açarlarını özü bizə təqdim etdi. Bizə ən xoş arzularını çatdırdı. Artıq evsiz-eşiksiz deyilik. İndi bizə daha "qaçqın" deyən də yoxdur. İlham Əliyev Laçını gülüstana döndərib. Dünyanın hər yerindən turistlər axışıb Laçına gəlir. Turistlərin gəlişi dolanışığımıza da yaxşı təsir edir.**

### "Belə bir evimizin ola biləcəyini xəyal etmirdik"

Ailənin böyük övladı Həsən keçmişi xatırlayır: "Gözümüzü dar, heç bir şəraiti olmayan otaqda açmışıq. Elə bilirdik ki, dünya özü o dar otaqdan ibarətdir. İnsan gördüyünə inanır. Nənəm, valideynlərim Laçından, onun gözəl təbiətindən danışanda bizə çox qəribə gəlirdi. Elə bilirdik ki, valideynlərimizin təsvir etdiyi gözəlliyi yalnız kinolarda görmək olur. Ona da hansısa xarici ölkədə çəkilmiş filmlərdə rast gəlmək mümkündür.

Xəyal belə edə bilməyəcəyimiz gözəl evimiz var. Həyətimizdə yaradılan şəraiti görəndə özümüz də təəccübləndik. İnanın, burada yaşadığımızın ili tamam olsa da, bu evin, bu gözəlliyin bizim olduğuna hələ də inana bilmirik. Biz gerçək mənada özümüzü cənnətdə hesab edirik. Sinif yoldaşlarımıza, dostlarımıza şəkillər çəkib göndəririk. Dostlarımıza deyirik ki, biz Laçında yox, cənnətdə məskunlaşmışıq. İndiyə kimi özümüzü perspektivsiz, dünyanın ən imkansız uşaqları hesab edirdik. Elə zənn edirdik ki, yaşadığımız o həyat ömürlük bizə yoldaşdır. İndi dünyanın ən xoşbəxt uşaqlarıyıq. Prezidentimiz həyatımızı dəyişdi, bizi xoşbəxt etdi. Bu, borcu ödənilməz, haqqı verilməz böyük bir işdir. Gözəl evimiz, cənnətə bənzər Laçınımız var. Şəhər gününü qeyd etməyə hazırlaşırıq. Bu, cənnətməkan yurdun vətəndaşı olduğumuz üçün çox qürurluyuq. Bizə bu gözəlliyi verdiyi üçün Prezidentimizə minnətdarıq".

Söhbətimizi Gündüzün həyat yoldaşı Arifə xanımla davam etdiririk...

- Pirəkəşküldə şəhid Həsən Qorçiyev adına Səfyan kənd orta məktəbində müəllim işləmişəm. Problemlər, şəraitsizlik olan yerdə nəinki işləməyə, adamın yaşamağa belə həvəsi olmur. Laçına gəldikdən sonra özümdə çox böyük enerji, işləmək həvəsi hiss edirəm. Şagirdlərimə Azərbaycan Ordusunun qüdrətindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətindən, qəhrəman əsgərlərimizin döyüş şücaətindən, işğaldan azad olunmuş torpaqlarımızda gedən abadlıq, quruculuq işlərindən danışıram.

Bayrama - Laçın Şəhəri Gününü qeyd etməyə hazırlaşırıq. Respublikanın müxtəlif yerlərində yaşayan bütün laçınlılar bu gözəl gündə Laçında olmaq istəyirlər... İnsanlar maşın-maşın axışıb bura gəlirlər. Mehmanxanalarda yer tapmaq mümkün deyil... Son günlər təsərrüfat mağazalarında ən çox satılan "şiş", "manqal" olub...

Prezidentimizə minnətdarıq. Bizi evli-eşikli, yenidən laçınlı etdiyi, bu gözəllikləri təkrar qaytardığı üçün...

Qonşu həyətdən manqal tüstülədikcə, ətrafa yayılan kabab iyi adama "gəl-gəl" deyirdi. Bu arada qonşudan səs eşidildi:

- Gündüz, mamaoğlu, sən Allah, qonaqlarını da götür gəl bizə.

- Qisməti qaçırmayın...

### "Evimin açarlarını Qarabağın xilaskarı şəxsən özü mənə təqdim edib"

Gündüz izahat verir ki, qonşuluqdakı ev dayısı oğlu Elxan Qaraşovundur. Ötən il mayın 28-də doğma yurda qayıdan ilk 20 ailədən biri də Elxanın ailəsidir. Laçında ən nümunəvi, geniş, yaraşıqlı evlərdən biri də onun evidir. Bizi mehribanlıqla, köhnə tanışı kimi qarşılayan Elxan Qaraşov evini göstərərək deyir:

- Qaçqınlıq dövründə Bakının Nizami rayonunda yataqxanada yaşamışıq. İnanın ki, hər gün Laçını, evimizi yuxuda görürdüm... Evimdə ermənilər məskunlaşmışdı. Laçın azad olunandan sonra tam təmir edilib....

Bu evin əsas dəyəri ondadır ki, açarlarını Qarabağın xilaskarı, hörmətli Prezidentimiz İlham Əliyev özü mənə təqdim edib. Sizə qəribə gəlməsin, yataqxana həyatından sonra bir müddət bu saraya alışa bilmirdik. Mənə elə gəlirdi ki, kim isə gəlib deyəcək "çıxın buradan. Bu ev sizin deyil". Allah dövlətimizi var etsin. Prezidentimizi qorusun. Bu həyatı yaşadığımız üçün ona borcluyuq. Oğlum Rəsulun evlənmək, mənim də baba olmaq vaxtımdır. Artıq heç bir dərdimiz yoxdur. Tezliklə bu həyətdə elə bir toy edəcəyik ki, sədası hər yerə yayılacaq...

Söhbətə Elxanın ömür-gün yoldaşı Yeganə müəllim qoşulur:

- İngilis dili müəllimiyəm. Laçın 2 nömrəli məktəbində və Zabuxda dərs deyirəm. Hərdən fikirləşirəm ki, yaşadığımız qaçqınlıq həyatı da bir imtahanmış... Çox şükür, hər şey arxada qaldı. Bu cənnət diyarda, belə gözəl şəraitdə yaşayırıq. Hər açılan sabah şükr edirik. Laçın Şəhəri Gününü qeyd edəcəyik. Bu, bizim üçün ən yaddaqalan bir bayramdır. Keçən il Mehriban xanım ad gününü bizimlə bir yerdə keçirdi. Laçında əsl çal-çağır idi...

Bizə bu gözəlliyi bəxş etdiyi üçün Prezidentimizə minnətdarıq. Bu torpaqları qansız, qadasız azad edib, qısa müddətdə belə cah-cəlal yaratmaq böyük hünər istəyir. O da bizim Prezidentimizdə var. Allah onu daim var etsin!

***Elxan Qaraşov:***

**- Bu evin əsas dəyəri ondadır ki, açarlarını Qarabağın xilaskarı, hörmətli Prezidentimiz İlham Əliyev özü mənə təqdim edib. Allah dövlətimizi var etsin. Prezidentimizi qorusun. Bu həyatı yaşadığımız üçün ona borcluyuq. Oğlum Rəsulun evlənmək, mənim də baba olmaq vaxtımdır. Artıq heç bir dərdimiz yoxdur. Tezliklə bu həyətdə elə bir toy edəcəyik ki, sədası hər yerə yayılacaq...**

***Yeganə Qaraşova:***

**- Keçən il Mehriban xanım ad gününü bizimlə bir yerdə keçirdi. Laçında əsl çal-çağır idi...**

**Bizə bu gözəlliyi bəxş etdiyi üçün Prezidentimizə minnətdarıq. Bu torpaqları qansız, qadasız azad edib, qısa müddətdə belə cah-cəlal yaratmaq böyük hünər istəyir. O da bizim Prezidentimizdə var. Allah onu daim var etsin!**





### "Dövlətimlə, Prezidentimlə fəxr edirəm"

Qonağı olduğumuz Mirzəyevlər ailəsi də şəhərə ilk köçənlərdəndir. Evin böyüyü Rəşad Mirzəyev "Laçın Abadlıq Xidməti"ndə çalışır. Rəşadın iki qızı var: Fatimə və Zəhra. Ömür-gün yoldaşı Ülviyyə xanım müəllimdir.

Rəşad deyir ki, Laçın təbii istehkamdır, təbii qaladır. Belə bir alınmaz qalanı Prezidentimiz güllə atmadan geri qaytardı. İllərlə üstümüzdə olan ağır yükü götürdü. Üzümüzün qarasını təmizlədi.

- Prezidentimlə qürur duyuram. Dövlətimlə fəxr edirəm. Laçında gedən abadlıq-quruculuq işlərini ermənilər görür. İllərlə dağıdıb xarabazarlıqlara çevirdikləri torpaqlarda bu mənzərəni görən ermənilər artıq anlayırlar ki, biz torpağın sahibi olduğumuz üçün qururuq, yaradırıq. Bu torpaqlara yenidən həyat veririk. Görünür, ermənilər buradan gedəcəklərini bilirlərmiş. Ona görə dağıtmaqla, talamaqla məşğul olublar. Heç vaxt xəyal edə bilməzdim ki, Laçın bu qədər gözəlləşə bilər, biz nə vaxtsa belə gözəl şəraiti olan evlərdə, cənnətlə müqayisə oluna biləcək bir məkanda yaşayacağıq. Bunu bizlər üçün xilaskar Prezidentimiz etdi. Bizə bu dünyada cənnəti yaşadır. Dövlətimlə fəxr edirəm. İlham Əliyev kimi Prezidentimiz olduğu üçün qürur duyuram.

Rəşadın həyat yoldaşı Ülviyyə Cəfərova söhbətə qoşulur:

- Laçının həsrətini çox çəkmişik. İndi də yatanda yuxuda Laçını görürəm... Bu gözəllikləri seyr etməkdən doymuram. Laçın təbiətlə insan zəkasının yaratdığı bir gözəllik tablosuna bənzəyir. Bu gözəllikləri biz laçınlılara bəxş edən dövlətə, onun Prezidentinə min alqış. Laçın şəhər 2 nömrəli məktəbdə şagird birliyinin rəhbəri işləyirəm. Məktəbdə şagirdlərimə, evdə isə övladlarıma deyirəm ki, biz layiqli vətəndaş olmaqla yanaşı, yaxşı əməllərimizlə vətənə xidmət etməliyik. Nə vətənin, nə bizə bu həyatı yaşadan dövlətin, nə də həyatını Azərbaycanın quruculuğuna həsr edən Prezidentimizin borcunu verə bilərik. Ömrü boyu Prezidentimizə minnətdar olacağıq.

Rəşadın qızları Fatimə ilə Zəhra deyirlər ki, Laçın haqqında valideynlərindən, məktəbdə müəllimlərdən çox eşidiblər: "Buraya ilk dəfə gələndə düşündük ki, yəqin valideynlər bizimlə zarafat edir. Yəqin hansısa Avropa ölkələrindən birinə səyahət etmişik.

# Laçınımı göstərim..."

## Şəhər Gününü möhtəşəm təntənə ilə qeyd edir

Burada Allahın və insanların əlləri ilə yaradılan möcüzəni, gözəllikləri görüb təəccüblənirdik. Bakıda olan sinif yoldaşlarımızla, rəfiqələrimizlə telefonla əlaqə saxlayanda bizim Laçında olduğumuza inanmırlar. Bəlkə də haqlıdırlar. Az bir vaxtda bu gözəlliyi yaratmaq üçün gərək möcüzə baş versin. Amma bu möcüzə yox, həqiqətdir. Bu gözəlliklər Prezidentimizin öz vətəndaşlarına olan sevgisinin ifadə formasıdır. Dövlətimizlə, dövlətimizin başçısı ilə fəxr edirik. Çalışıb yaxşı oxuyacaq, bu vətənə olan borcumuzu layiqli vətəndaş olmaqla qaytaracağıq. Bizə verilən fürsətdən istifadə edib bütün laçınlıları şəhər günü münasibətilə təbrik edirik.

### 2026-cı ilədək Laçına 12 min nəfər sakinin köçürülməsi planlaşdırılır

Beləcə şəhərdə bir neçə ailənin qonağı olub, səmimi fikirlərini öyrəndik. Laçındakı yenidənqurma, əhalinin məşğulluğu, müasir yeni infrastrukturlar, şəhərə köç ilə bağlı ətraflı məlumat almaq üçün Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinə baş vururuq.

Laçın rayonunda Azəbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmisi Hüseyn Quliyevlə söhbətimiz əsnasında bəlli olur ki, Laçın Şəhər Gününə hazırllıqlar gedir. Ötən ilin 28 may tarixindən başlayaraq laçınlıların doğma yurda qayıdışına start verilib. Böyük qayıdışı təmin edəcək dövlət proqramına əsasən, indiyədək Laçın şəhərində 552 ailə məskunlaşıb. Ümumilikdə isə Zabux və Sus kəndləri və Laçın şəhərinə indiyədək 828 ailə, təxminən 3069 nəfər sakinin köçürülməsi təmin edilib.

Laçın şəhərində əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilir. Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və bura gələn qonaqların sevimli istirahət məkanlarındandır. Artıq Həkəri çayında astana və göl yaradılıb. Gölün üzərində asma körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb, kotteclər tikilib.

Bütövlükdə qısa müddət ərzində Laçın şəhərində 411 fərdi yaşayış evi və 40 mənzil, o cümlədən 75 qeyri-yaşayış binası inşa edilib.

Laçın rayon 2 nömrəli tam orta məktəbinin 510 şagird yeri var, məktəbin üçmərtəbəli binasının sahəsi 4550 kvadratmetrdir.

Ötən il avqustun 25-də Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olub. Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan "Hoçazfilm" studiyası Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqla regional audiovizual mərkəz kimi fəaliyyət göstərəcək.

Şəhərdən bir qədər aralıda yerləşən Zerti kəndində böyük sənaye sahəsi yaradılıb. Orada əhalinin məşğulluğu üçün bir çox müəssisə fəaliyyət göstərir. Laçına geri qayıdan sakinlərin burada işlə təmin edilməsi prosesi reallaşır.

2024-cü ildə şəhərin tikintisinin növbəti fazası işə başlayacaq. Hüseyn Quliyev deyir ki, yeni yaşayış məntəqələrinin salınması, yol infrastrukturunun qurulması nəzərdə tutulur.

Əhalinin dövlət xidmətlərinə əlçatanlığının asanlaşdırılması üçün şəhərdə DOST və "ASAN xidmət" mərkəzlərinin yaradılması nəzərdə tutulub. 2026-cı ildək Laçına 12 min nəfər sakinin köçürülməsi planlaşdırılır. 2025-ci ilin əvvəlində isə Qorçu hava limanının açılması gözlənilir.



- 1923-cü ildə Abdallar kənd yaşayış məntəqəsi Laçın adlandırılıb və şəhər statusu alıb. Laçın rayonu isə 1930-cu ldə inzibati ərazi vahidi statusu alıb;
- Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub;
- Böyük Zəfərdən sonra imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb;
- Prezident İlham Əliyev indiyədək 7 dəfə Laçına səfər edib;
- 2022-ci il sentyabrın 21-də Müzəffər Ali Baş Komandan Laçın şəhərində Azərbaycan bayrağını ucaldıb;
- Prezidentin sərəncamına əsasən, 26 avqust Laçın Şəhər Günü kimi müəyyən edilib;
- 2023-cü il mayın 28-də Prezident Laçına köçən ilk 20 ailəyə evlərinin açarlarını təqdim edib;
- İndiyədək Laçın şəhərinə, Zabux və Sus kəndlərinə 828 ailə, yəni 3069 nəfər sakinin köçürülməsi təmin edilib;
- Hazırda Laçın şəhərində 552 ailə məskunlaşıb;
- 2026-cı ilədək Laçına 12 min nəfər sakinin köçürülməsi planlaşdırılır;
- Qısa zamanda Laçın şəhərində 411 fərdi yaşayış evi və 40 mənzil, o cümlədən 75 qeyri-yaşayış binası, Zabux kəndində 223, Sus kəndində isə 59 yaşayış evi inşa edilib;
- Gələn ilin əvvəlində Bəylik kəndinin tikilməsi və oraya 91 ailənin köçürülməsi planlaşdırılır;
- 2021-ci ildə Laçın rayonunda generasiya gücü 8 meqavat olan Güləbird Su-Elektrik Stansiyası işə salınıb;
- 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Su-Elektrik stansiyaları tam yenidən qurulub;
- Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su-elektrik stansiyası yenidən qurularaq istismara verilib;
- Ümumilikdə Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su-elektrik stansiyası fəaliyyət göstərəcək;
- Prezidentin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 75,8 kilometrdir və mövcud yoldan 32 kilometr qısa olacaq;
- Təməli 2021-ci ildə qoyulan Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi 2025-ci ilə planlaşdırılır;
- Laçın şəhərində Aqro və Sənaye Parkı yaradılıb. Burada ümumilikdə 46 müəssisə fəaliyyət göstərəcək;
- Laçında "Həkəri Balıq Təsərrüfatı" fəaliyyətə başlayıb;
- "Hoçazfilm" yaradıcılıq studiyası açılıb;
- Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksi tikilir;
- Hazırda Laçında 100 otaqlı mehmanxana kompleksi inşa edilir.







***Rəşad Mirzəyev:***

**- Heç vaxt xəyal edə bilməzdim ki, Laçın bu qədər gözəlləşə bilər, biz nə vaxtsa belə gözəl şəraiti olan evlərdə, cənnətlə müqayisə oluna biləcək bir məkanda yaşayacağıq. Bunu bizlər üçün xilaskar Prezidentimiz etdi. Bizə bu dünyada cənnəti yaşadır . Dövlətimlə fəxr edirəm. İlham Əliyev kimi Prezidentimiz olduğu üçün qürur duyuram.**

***Ülviyyə Cəfərova*:**

**- Məktəbdə şagirdlərimə, evdə isə övladlarıma deyirəm ki, biz layiqli vətəndaş olmaqla yanaşı, yaxşı əməllərimizlə vətənə xidmət etməliyik. Nə vətənin, nə bizə bu həyatı yaşadan dövlətin, nə də həyatını Azərbaycanın quruculuğuna həsr edən prezidentimizin borcunu verə bilərik. Bütün ömrü boyu Prezidentimizə minnətdar olacağıq.**

### Prezident 7 dəfə Laçına səfər edib

Laçının tikinti-quruculuq işlərini daim diqqətdə saxlayan Prezident İlham Əliyev mütəmadi olaraq Şərqi Zəngəzura səfərləri zamanı bu cənnətməkana da baş çəkir. Hər səfərində dövlət başçısı hansısa obyektin təməlqoyma və ya açılış mərasimində iştirak edir. Prezidentin Laçına ilk səfəri 2021-ci il yanvarın 14-də olub. Həmin gün Güləbird kəndində Azərbaycan bayrağını ucaldan İlham Əliyev su-elektrik stansiyasının açılışını da edib.

Prezidentin ikinci səfəri 2021-ci il avqustun 16-da olub. Bu səfər zamanı dövlət başçısı Laçın Beynəlxalq Hava Limanının təməlini qoyub.

2022-ci il iyun ayının 26-da Prezident Şərqi Zəngəzura səfəri çərçivəsində Kəlbəcər-Laçın avtomobil yolunun inşası prosesi, "Qorçu" elektrik yarımstansiyasında görülən işlər, "Həkəriçay" su anbarı layihəsi və Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub.

2022-ci il sentyabrın 21-də Prezident Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanış olub, Laçın şəhərində Azərbaycan bayrağını ucaldıb, Laçın şəhərində inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib.

2023-cü il mayın 28-də Laçına səfəri çərçivəsində doğma yurdlarına qayıdan laçınlılarla görüşən dövlət başçısı yeni mənzillərin açarlarını onlara təqdim edib. Bununla yanaşı, Laçın şəhərinin Baş planının təqdimatı olub,

2023-cü il 25-26 avqust tarixlərində Prezident "Azərenerji"nin "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarının açılışını edib, Laçın Beynəlxalq Hava Limanında aparılan işlər, Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə tanış olub, mehmanxana kompleksinin təməlqoyma mərasiminə qatılıb, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin, "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, Laçın rayon 2 nömrəli tam orta məktəbin, "Həkəri Balıq Təsərrüfatı"nın açılışlarını edib.

Dövlət başçısı Laçının Zabux kəndində görülmüş işlərlə tanış olub və sakinlərlə görüşüb, Laçın şəhərində keçirilən "Laçın Şəhəri Günü" münasibətilə bayram şənliklərində iştirak edib.

Bu il Prezident mayın 10-da Laçına səfər edərək Sus kəndində görülmüş işlərlə tanış olub, sakinlərlə görüşüb və həmçinin "Azərenerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su-Elektrik stansiyalarının (KSES) açılışlarında iştirak edib.

Bütün bunlar bir daha onu göstərir ki, dövlət başçısı Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesini daim diqqətdə saxlayır və Böyük qayıdış konsepsiyasının tez bir zamanda reallaşması üçün əlindən gələni əsirgəmir.

Yenidən qurulan Laçın şəhəri həqiqətən də möhtəşəmliyi ilə göz oxşayır. Avqustun 26-da şəhər gününü qeyd edən Laçın düşmənə göz dağı verir.

*Buraya qonaq gələn geri dönmək istəmir. Amma bizim bu maraqlı reportajı hazırlamaq üçün Bakıya dönməyimiz mütləq olduğu üçün məcburən geri qayıdırıq. Amma xoş təəssürat, sevinc dolu hisslərlə...*

***Rəşad BAXŞƏLİYEV,***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*









# Örnəyə çevrilən milli məram



**Azərbaycan dövlətinin öz tarixinin ən qüdrətli dövrünü yaşaması tək ölkəmizdə deyil, regionda və dünyada qəbul olunan həqiqətdir. Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə nail olunan sosial-iqtisadi yüksəlişdən başlamış, Azərbaycanın qlobal miqyasda söz sahibinə, regionun nəqliyyat qovşağına çevrilməsinə və kosmik kluba daxil olmasına qədər qazanılan hər bir möhtəşəm nailiyyət bu reallığı təsdiq edən mühüm siyasi uğurlardır. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, bu qələbənin davamı olaraq ərazi bütövlüyümüzün tam bərpa olunması, tarixi yurd yerimiz olan Qarabağda iki əsr əvvəl başlamış mənfur erməni separatizminə son qoyulması isə uğurlarımızın möhtəşəm zirvəsidir.**

## Dövlət və vətəndaş naminə

Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasi kursunun nəticəsində tariximizə həkk olunan hər bir uğur və qürurdoğuran hadisə həm də müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın Ulu Öndəri Heydər Əliyevin ideyalarının təntənəsi, həyata vəsiqə alması deməkdir. Heydər Əliyev respublikamızı hər zaman zirvələrdə, torpaqlarımızı isə azad görmək istəyirdi. Cənab Prezident İlham Əliyev bunu təmin etməklə həm də Ulu Öndərin arzusunu çin etdi, vəsiyyətini yerinə yetirdi.

Beləliklə, xalqımız tariximizin dinamik sosial-iqtisadi inkişafla əlamətdar olan şanlı dövrünü, ən əsası, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizə mərhələsini şərəflə, layiqincə başa vurdu. Və indi biz haqlı olaraq daxil olduğumuz yeni inkişaf mərhələsindən və bu mərhələdəki məsuliyyətimizdən, qarşımızda dayanan vəzifələrdən bəhs edirik.

Bu mərhələdə əsas hədəflərdən biri azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışıdır. Ötən 4 ilə yaxın dövrdə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərinin miqyası olduqca əzəmətli və qürurvericidir.

Bununla yanaşı, yeni çağırışlar əsasında sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, "yaşıl enerji"yə keçidin sürətləndirilməsi, insan kapitalının inkişafı, inklüziv və müasir innovasiyalara əsaslanan intibah tariximizin yeni mərhələsinin əsas hədəfləri sırasında yer alan milli vəzifələrdir. Qeyd edilən bu istiqamətlər üzrə proseslərin uğurlu gedişi perspektivdəki nailiyyətlərdən xəbər verir.

Belə dönəmdə sosial statusundan, siyasi və dini mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının qarşısında dayanan ən mühüm vətəndaşlıq vəzifəsi respublikadakı inkişaf proseslərinə dəstək vermək, Prezident İlham Əliyevin siyasi kursu ətrafında daha sıx səfərbər olmaqdır.

Bu kontekstdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mükəmməl örnəyə çevrilən fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Həm vətəndaş, həm şəxsiyyət, həm də bir məmur kimi Azərbaycanın siyasi-ictimai həyatında çox mühüm rol oynayan xanım Mehriban Əliyevanın fəaliyyət sferası əhatəli və məzmunludur. Onun Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, ICESCO-nun Xoşməramlı səfiri kimi daşıdığı böyük missiyanın mərkəzində yalnız dövlətə və insanlara xidmət məramı dayanır. Mehriban xanım Əliyevanın hər bir təşəbbüsü, layihəsi, addımı məhz dövlətimiz, xalqımız və insanlıq üçündür. Onun cazibədar uğur hekayəsini şərtləndirən və eyni zamanda ona xalqın rəğbətini qazanmağa əsas verən amillər də bu missiyanın möhtəşəm nəticələridir.

## Yüksək mənəvi idealların daşıyıcısı

Mehriban xanım Əliyevanın xalqımızın maraqlarına xidmət edən ictimai fəaliyyəti ötən əsrin 90-cı illərindən başlayır. Hələ 1995-ci ildə onun yaratdığı Azərbaycan Mədəniyyət Fondunun əsas məqsədi milli incəsənətimizi inkişaf və təbliğ etdirmək, xarici ölkələrdə daha geniş tanıtmaq idi. Elə bu məqsədlərin özü Mehriban xanım Əliyevanın daşıdığı yüksək mənəvi təcəssümüdür və milli-mədəni dəyərlərimizə nə qədər bağlı olduğunu göstərir. Bu sırada hörmətli Mehriban Əliyevanın təşəbbüsləri ilə Azərbaycan muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği istiqamətində görülən işləri, milli və mədəni dəyərlərimizin UNESCO-nun irs siyahısına salınmasını xüsusi qeyd etməliyik.

Böyük elm xadimi, akademik Arif Paşayevin və tanınmış şərqşünas alim Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açan, ruhunda milli qürur və iftixar mənbəyimiz olan böyük ədibimiz Mir Cəlal Paşayevin və Nəsir İmanquliyevin mənəvi gücü dayanan, Ümummilli Liderimiz Heydər Əliyevin və Zərifə xanım Əliyevanın daim yanar ocağından nur alan, Prezident İlham Əliyev kimi həyat yoldaşı olan xanım Mehriban Əliyevanın malik olduğu mənəvi ideallar da başqa cür ola bilməzdi.

Ötən əsrin 90-cı illərinin ortalarından bəri genişmiqyaslı, sistemli, ardıcıl layihələrlə milli mədəniyyətimizi dünyada təbliğ edən Mehriban xanım Əliyevaya Azərbaycan cəmiyyətində dərin ehtiram qazandıran, dünyaya daha yaxından tanıtdıran mühüm cəhətlərindən biri isə onun xeyriyyəçiliyi, qayğıkeşliyi, insanlara təmənnasız yaxşılığı, nəcibliyi, maddi dəstəyə ehtiyacı olanların hər zaman yanında olması, vətəndaşların sosial məsələlərinə olduqca həssas münasibətidir. Xeyirxahlıq, mərhəmət və şəfqət kimi anlayışlar onun həyat fəlsəfəsinin ayrılmaz hissəsidir. Təsadüfi deyil ki, sevimli Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunu Azərbaycan və onun hüdudlarından kənarda məhz xeyirxahlıq məbədi kimi tanıyırlar.

Heydər Əliyev Fondu qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə Azərbaycanda, ümumiyyətlə isə, Cənubi Qafqazda analoqu olmayan qurumdur. Əsas məramı Ulu Öndər Heydər Əliyevin ideyalarının yaşadılması, irsinin davam etdirilməsi olan fond fəaliyyətə başladığı 2004-cü ilin may ayından ötən dövrdə reallaşdırdığı layihə və proqramlarla Azərbaycanda müxtəlif istiqamətlərdə həyata keçirilən dövlət siyasətinin daha böyük uğurlar qazanmasına, cəmiyyətimizdə yüksək əhvali-ruhiyyənin və vətəndaş məmnuniyyətinin təmin olunmasına layiqli töhfələr verməkdədir.

Heydər Əliyev Fondu yarandığı ilk gündən insanlara qayğı və təmənnasız xidmət məramını prioritet vəzifə kimi qarşıya qoyan Mehriban xanım Əliyeva öz təşəbbüslərini əhalinin aztəminatlı təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara, qocalara və ehtiyacı olanlara kömək göstərilməsinə yönəldir. Müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların yenidən sağlam həyata qayıdışı üçün Bakıda Psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin, Autizm Spektr Pozuntulu Uşaqlar üçün Bərpa Mərkəzinin və onlarla müxtəlif xəstəxanaların inşası, uşaq evlərinin, qocalar evlərinin bərpası və ya yenidən qurulması, "Talassemiyasız həyat naminə" və "Diabetli uşaqlara ən yüksək qayğı" layihələri çərçivəsində müxtəlif tədbirlərin təşkili, indiyədək Heydər Əliyev Fondunun çoxsaylı insanların müalicə xərclərini öz üzərinə götürməsi, onların müalicə üçün xarici ölkələrin tibb müəssisələrinə göndərilməsi Mehriban xanım Əliyevanın milli genefondumuzun qorunması ilə bağlı əvəzolunmaz xidmətlərinin, həm də onun insan sevgisinin, nəciblik və mərhəmət kimi ülvi dəyərlərə malik olmasının göstəricisidir.

Ötən 20 ildən artıq müddətdə Heydər Əliyev Fondunun xətti ilə ölkəmizin dörd bir yanını əhatə etməklə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə məktəb binasının inşası, o cümlədən uşaq bağçası, internat evləri və xəstəxana binalarının tikintisi və ya yenidən qurulması, tarixi, mədəni və dini abidələrin bərpası Mehriban xanım Əliyevanın təhsilimizin, milli genofondumuzun və tarixi irsimizin qorunmasına və inkişafına yönəlik vətəndaşlıq mövqeyindən xəbər verir.

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi məzmunlu, tutumlu tədbirlər isə erməni yalanlarının ifşa edilməsində, Xocalı soyqırımının dünyada tanıdılmasında mühüm rol oynamaqla, xarici siyasətimizin daha böyük uğur qazanmasına xidmət edib. Bu işdə Mehriban xanım Əliyevanın təşəbbüsləri hər birimiz üçün həm də vətəni sevməyin mükəmməl örnəyidir.

Bütövlükdə xeyirxahlıq və mərhəmət ünvanına çevrilən, hər bir azərbaycanlının qürur yeri, fəxri və vüqarı olan Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə qarşıya qoyduğu məqsədlərin həyata vəsiqə alması işində bundan sonra da yeni-yeni zirvələr fəth edəcək, doğma Azərbaycanın adını hər zaman layiqincə ucaldacaq.

## Ən fədakar silahdaş

Qeyd etdiyimiz kimi, Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyət sferası çox genişdir. Hələ 2005, 2010 və 2015-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmiş Mehriban xanım Əliyevanın millət vəkili kimi fəaliyyəti parlament tariximizin şərəfli səhifəsidir. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban xanım Əliyeva Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib.

Ulu Öndər Heydər Əliyevin siyasi irsinə sadiqliyin və Azərbaycanda siyasi sferada qadınlara olan etimadın xüsusi göstəricisi kimi Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini təyin olunması isə bütövlükdə partiya qarşısında dayanan vəzifələrin uğurla həyata keçirilməsinə, siyasi partiyada humanizm prinsiplərinin daha da güclənməsinə, partiya yaranan gündən bu günə qədər xidmətdə fərqlənmiş fəal üzvlərin, dövlətçi gənclərin layiqincə qiymətləndirilməsinə yol açıb. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ən fədakar silahdaşı olan Mehriban xanım Əliyevanın partiyanın ali rəhbərliyində təmsil olunması YAP-ın gücünü daha da artırıb, cəmiyyətin ictimai-siyasi həyatında qadın fəallığı ənənələrinin inkişafına təkan verib.

Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ona həvalə etdiyi bütün vəzifələri uğurla yerinə yetirərək Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. "Eurovision" mahnı müsabiqəsində olduğu kimi, I Avropa Oyunlarında və IV İslam Həmrəyliyi Oyunlarında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoyub.

Bütün bunlarla yanaşı, Mehriban xanım Əliyevanın Azərbaycan idmanının inkişafında da böyük xidmətləri var. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban Əliyevanın səmərəli fəaliyyəti ölkəmizdə bu idman növünün inkişafına layiqli töhfələr verir. Olimpiya Oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğısının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir.

## Ali dövlətçilik məqamı

Mehriban xanım Əliyevanın 2017-ci ilin fevral ayında Birinci vitse-prezident təyin olunmasında da buna qədər dövlətimiz və xalqımız naminə gördüyü işlər böyük rol oynadı. Vətənə layiqli xidmət missiyasının müəllifi olan Mehriban xanım Əliyeva Prezident İlham Əliyev tərəfindən Birinci vitse-prezident vəzifəsinə təyin olundu. Bu, təsadüfi bir təyinat deyildi, uzun illərdən bəri ölkəmizin, eləcə də dünyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan çox hörmətli xanım Mehriban Əliyevaya ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən irəli gələn qərar idi.

2017-ci il fevralın 21-də keçirilən Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının iclasında Prezident İlham Əliyev demişdi: "Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti kimi ötən 7 ildən artıq fəaliyyət dövrünün reallıqları Prezident İlham Əliyevin əminliyinin təsdiqi olmaqla yanaşı, onun kadr siyasətində nə qədər müdrik olduğunu sübut edir. Çünki Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın missiyası Prezident İlham Əliyevin həyata keçirdiyi dövlətçilik kursunun prinsip və şərtlərinə uyğun olaraq respublikamızın inkişafına, beynəlxalq əlaqələrinin genişlənməsinə və sosial məsələlərə yönəlib.

Bu təyinat həm də islahatlar prosesinə böyük dəstək ola biləcək bacarıqlı təşkilatçı, yüksəksəriştəli rəhbər kimi xanım Mehriban Əliyevanın peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətinə əsaslanırdı. Ölkə vətəndaşlarının böyük sevinc və rəğbətlə qarşıladıqları bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni tarixi reallığın başlanğıcını qoydu. Ümummilli Lider böyük Heydər Əliyev məktəbinin layiqli yetirmələrindən olan Mehriban xanım Əliyeva Birinci-vitse prezident kimi Azərbaycanda dövlət quruculuğu prosesinin modernləşməsinə və davamlı islahatlarla təkmilləşməsinə böyük töhfələr verir. Digər tərəfdən, Mehriban xanım Əliyevanın idarəçilik üslubu dövlət aparatının daha da yenilənməsinə, mükəmməlləşməsinə xidmət edir.

Xüsusilə qeyd etməliyik ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunduğu ilk günlərdən artıq məlum idi ki, sosial qayğıya ehtiyacı olan insanlara diqqət onun fəaliyyətində prioritet istiqamət təşkil edəcək. Bu mənada, xanım Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi öz vəzifəsinin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından, Aprel döyüşlərində sağlamlığını itirmiş qəhrəman hərbçilərimizin yüksək texnologiyalara əsaslanan protezlərlə təmin olunmasından başlaması onun əsl vətəndaşlıq missiyasından, xüsusən sosial məsələlərə olan həssas münasibətindən xəbər verdi.

Koronavirus pandemiyasının şiddətli dövründə isə xanım Mehriban Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun prezidenti kimi bu problemlə mübarizəyə verdiyi töhfələr bir daha onun həyat fəlsəfəsinin dövlət və xalqa xidmət məramından ibarət olduğunu nümayiş etdirdi. Xanım Mehriban Əliyevanın təşəbbüsləri ilə Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən xeyriyyəçilik minlərlə ailəyə, ahıl insanlara böyük maddi və mənəvi dəstək oldu.

Azərbaycan ictimaiyyəti Mehriban xanım Əliyevanın ən yüksək milli dəyərlərin daşıyıcısı olmasına, eyni zamanda Birinci vitse-prezident kimi bu vəzifəni layiqincə həyata keçirməsinə 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə bir daha şahidlik etdi.

Vətən müharibəsinin davam etdiyi günlərdə kənd və şəhərlərimiz azad olunduqca Mehriban Əliyevanın tarixi qələbələrimizlə bağlı həssas münasibətinin şahidi olduq. Birinci vitse-prezident özünün müraciətləri və sosial şəbəkələrdəki paylaşımları ilə Azərbaycan xalqının haqq və ədalət uğrunda mübarizə apardığını dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Hələ müharibənin ilk günlərində Mehriban xanım Əliyevanın rəsmi "İnstaqram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşımında deyilirdi: "Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!" Bu, Mehriban Əliyevanın timsalında Azərbaycan qadınlarının sevinci və duası idi…

Zəfərimizlə başa çatan Vətən müharibəsi Mehriban Əliyevanın öz vətəninə nə qədər bağlı olduğunu göstərdi, onun yüksək vətənpərvərlik keyfiyyətlərini bir daha təsdiq etdi. Mehriban Əliyeva şəhid analarının yanında oldu, qazilərimizin şəfqət alması üçün əlindən gələni əsirgəmədi. Döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsi xalqımızın dərin rəğbəti ilə qarşılandı.

## Qarabağın bərpasına möhtəşəm töhfələr

Vətən müharibəsindən sonra dövlətimiz öz inkişaf tarixinin yeni mərhələsinə qədəm qoyub. Bu mərhələdə də xanım Mehriban Əliyeva Prezident İlham Əliyevin inkişaf siyasətinə layiqli töhfələr verir və bunun ən bariz nümunələrindən biri Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləridir.

Əvvəlcə onu qeyd edək ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza səfərləri zamanı Mehriban xanımın yolboyu etdiyi çəkilişlər ermənilərin vandallığını dünyaya çatdırdı. Prezident İlham Əliyev düşmənin torpaqlarımızda törətdikləri vəhşiliklər barədə bu görüntülər vasitəsilə məlumat verirdi.

Bu səfərlərdə Mehriban xanım Əliyevanın iştirakı onun torpaqlarımızın bərpası istiqamətində nümayiş etdirdiyi fəal vətəndaşlıq mövqeyindən irəli gəlirdi. Heydər Əliyev Fondu hazırda işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında yaxından iştirak edir, tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirir. Fondun dünyada tanınan loqosuna indi işğaldan azad edilmiş ərazilərimizdə tez-tez rast gəlmək mümkündür. Bu nişan fond tərəfindən Qarabağda dirçəliş, bərpa-quruculuq qayəsi ilə aparılan bir çox işlərin müəlliflik tanıtımı kimi diqqət çəkir.

Fondun Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələrin əhatə dairəsi olduqca genişdir. Ötən 4 ilə yaxın müddətdə onların bir qismi tam icra olunub. Belə ki, Şuşada dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı, Mamayı məscidlərinin, Mehmandarovların malikanə kompleksi ərazisindəki məscidin, Mehmandarovların malikanəsinin, "Şirin su" hamamının, Şuşada Yaradıcılıq Mərkəzinin, Zəngilan məscidinin, Ağdam Cümə məscidinin bərpası məhz Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Prezident İlham Əliyevin ən fədakar silahdaşı olaraq Mehriban xanım Əliyevanın vətənə xidmətinin daha bir nümunəsi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləridir. Başqa cür desək, Mehriban Əliyeva həm də bu gün Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm quruculuğun baş müəlliflərindən biridir. Heydər Əliyev Fondu isə işğaldan azad edilmiş ərazilərimizin bərpasına hələ çox töhfələr verəcək və bütün bunlar Mehriban Əliyevanın vətən sevgisinin təcəssümü kimi Qarabağın və Şərqi Zəngəzurun bərpası tarixinə yazılacaq.

Mehriban xanım Əliyevanın mükafatları çoxdur. Ən ali mükafatı isə respublikamızda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə verilən "Heydər Əliyev" ordenidir. Bu, Azərbaycan dövlətinin Mehriban xanım Əliyevanın fəaliyyətinə və xalqımız qarşısındakı xidmətlərinə verdiyi ən yüksək qiymətin göstəricisidir.

## Naxçıvan nümunəvi uğurlara imza atacaq

Mehriban xanım Əliyevanın dövlətə və xalqa xidmət məramının mükəmməl nümunəsini ölkəmizin qədim tarixə malik dilbər güşəsi kimi Naxçıvan Muxtar Respublikasının timsalında da görmək mümkündür. Onun müxtəlif vaxtlarda Prezident İlham Əliyevlə birlikdə Naxçıvana səfərləri muxtar respublikada yüksək ehtiramla xatırlanır. Bu səfərlər zamanı xanım Mehriban Əliyeva dövlətimizin başçısı ilə birlikdə çoxsaylı obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etmiş, Əshabi-Kəhf ziyarətgahında olmuşdur. Mehriban xanım Əliyevanın 2008-ci ildə Türkiyənin ozamankı Baş naziri vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanın həyat yoldaşı Əminə xanım Ərdoğanla birlikdə Naxçıvan Dövlət Universitetində olması, 2009-cu ildə Prezident İlham Əliyevlə birlikdə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyində iştirakı muxtar respublikanın tarixində yaddaqalan əlamətdar hadisələrə çevrilmişdir.

2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılaraq istifadəyə verilən Məhdud Fiziki İmkanlı İnsanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi Mehriban xanım Əliyevanın muxtar respublikaya böyük hədiyyəsidir. Mərkəzin imkanlarından Naxçıvan şəhəri daxil olmaqla, muxtar respublikanın bütün rayonlarında yaşayan məhdud fiziki imkanlı sakinlər istifadə edirlər.

Naxçıvan ictimaiyyəti Mehriban xanım Əliyevanın bu diyara olan yüksək diqqət və qayğısını Vətən müharibəsi və sonrakı illərdə də yaxından hiss etdi. Belə ki, 44 günlük Vətən müharibəsində Naxçıvandan olan şəhid ailələrinə və qazilərə xanım Mehriban Əliyevanın göstərdiyi yüksək diqqət və qayğını, Heydər Əliyev Fondunun hər bir şəhid və qazi ailəsinə yaxından köməyini qədirbilən naxçıvanlılar heç vaxt unutmayacaqlar.

Hazırda Naxçıvan öz inkişafının yeni dövrünə qədəm qoyub. Son illərdə həyata keçirilən ciddi islahatlar muxtar respublikanın hərtərəfli inkişafına dinamizm gətirib, cəmiyyət həyatının bütün sahələrində canlanma yaradıb. Sözsüz ki, uzun illərdir blokadadan əziyyət çəkən Naxçıvan öz inkişafının yeni mərhələsində də müzəffər liderimiz, möhtərəm Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqəti və qayğısı ilə nümunəvi uğurlara imza atacaq.

İstər Birinci vitse-prezident, istər Heydər Əliyev Fondunun prezidenti və digər sahələrdəki fəaliyyəti göstərir ki, Mehriban xanım Əliyeva dövlətə və dövlətçiliyə son dərəcə bağlı və sadiq insandır. Dövlətçilik idealları onun üçün müqəddəs dəyərlərdir. Təsadüfi deyil ki, xanım Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası, xüsusilə milli dövlətçilik yolunda xidmətləri olan insanların, gənclərin əməyini hər zaman qiymətləndirir, onları, sözün əsl mənasında, qoruyur, fəaliyyətlərinə dəstək verir, yüksək vəzifələrə irəli çəkir. Biz bugünkü həyatımızda bunun əyani şahidləriyik. Xalqımızın Mehriban Əliyevaya olan yüksək ehtiramının səbəblərindən biri də budur.

Humanizmi, insanların problemlərinə həssas münasibəti, nəcibliyi və qayğıkeşliyi ilə xanım Mehriban Əliyeva həm də bir əsl vətəndaş nümunəsi ortaya qoyur. Məhz bunlar Mehriban xanım Əliyevanı cəmiyyətin nümunəvi vətəndaş idealına çevirib. Təlqin etdiyi bu mənəvi dəyərlər, eyni zamanda dünyada sülhə və mədəni dəyərlərin qorunmasına, sivilizasiyalararası dialoqa verdiyi töhfələr Mehriban xanım Əliyevaya beynəlxalq aləmdə də böyük nüfuz qazandırıb. Odur ki, biz xanım Mehriban Əliyevanın dünyanın sülh və insanlıq adına ən böyük beynəlxalq mükafatlarının da laureatı olacağına ürəkdən inanırıq.

*Xalqın dərin etimad və ehtiramını qazanan Mehriban xanım Əliyeva Prezident cənab İlham Əliyevin fədakar silahdaşı kimi bundan sonra da Azərbaycanın inkişafına layiqli töhfələr verəcək. Bu şərəfli yolda Mehriban xanım Əliyevaya böyük uğurlar arzu edirik!*

**Bəxtiyar ƏSGƏROV,**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***








# "Mehriban xanım övladlarımızı yenidən həyata qaytardı"

## Birinci vitse-prezident talassemiyalı xəstələrə və ailələrinə bir dünya sevinc bəxş edib

**...Səhərdir. Şəhərimizin getdikcə abadlaşan, gözəlləşən, yaşıllaşan, səsli-küylü küçələrindən keçib Talassemiya Mərkəzinə daxil oluruq. Xəstəxanalara nə vaxt ayaq basırsansa, eyni mənzərə ilə qarşılaşırsan. Qeydiyyat otağının qarşısında dayanan kim, gözləmə zalında oturub növbəsini gözləyən kim, əlindəki analizlərin cavabı yazılan kağızlara baxan kim...**

Talassemiya Mərkəzində də eyni mənzərə idi. Yuxusuna haram qatıb səhər lap ertədən mərkəzə üz tutanlar artıq qeydiyyata düşərək müxtəlif prosedurlardan keçirdilər. Bir az gec gələnlər isə növbələrini gözləyirdilər. Təəssüflər olsun ki, talassemiya xəstəliyi irsi xəstəlik olduğu üçün mərkəzə üz tutan xəstələrin arasında uşaqlar çoxluq təşkil edirdi. Deməli, xəstəlik yaşa baxmır.

Talassemiya Mərkəzinə gələnlərin əksəriyyəti bu irsi xəstəliyə düçar olanlardır. Onların hamısı burada dispanser qeydiyyatındadırlar. Tibb müəssisəsində əsasən talassemiyalı xəstələr müalicə olunurlar. Mərkəzin yaradılmasında elə əsas məqsəd bu xəstəlikdən əziyyət çəkən uşaqlara, böyüklərə yüksək səviyyədə tibbi xidmət göstərmək, onları sağaldıb normal həyata qaytarmaqdır.

İlk həmsöhbətimiz mərkəzin inzibati işlər üzrə direktor müavini Səidə Babazadə bildirdi ki, xəstələrin müayinə və müalicə olunması üçün Talassemiya Mərkəzində hər cür şərait yaradılıb. Tibb heyəti bundan səmərəli istifadə edərək xəstələrə yüksək səviyyədə qayğı və xidmət göstərir. Mərkəzdə yaradılmış şəraitə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi.















### "Mehriban xanımın diqqət və qayğısı sayəsində laboratoriyamız ən müasir avadanlıqlarla təchiz olunub"

Talassemiya Mərkəzinin laboratoriyasında görülən işlərlə yaxından tanış olduq. Klinik-diaqnostika laboratoriyasının şöbə müdiri, tibb üzrə fəlsəfə doktoru Mirşahin Musayev söhbət zamanı üzərilərinə düşən vəzifələrdən, laboratoriyada aparılan müayinə və analizlərdən söz açdı: "Laboratoriyamızda bütün hematoloji, biokimyəvi, hormon, hemostaz, genetik və mikrobioloji müayinələr aparılır. Laboratoriyanın ən əhəmiyyətli bölmələrindən biri respublikamızda yeganə olan talassemiyanın profilaktikası bölməsidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində qısa müddət ərzində laboratoriyamız müasir tələblərə cavab verən cihaz və avadanlıqlarla təchiz olunub. Xeyirxahlığı və qayğıkeşliyi ilə milyonların hörmət və rəğbətini qazanmış Mehriban xanımın devizi "Talassemiyasız həyat naminə"dir. Talassemiyasız həyat isə normal yaşamaq, sağlam olmaq deməkdir. Sağlam həyat isə xoşbəxtliyin açarıdır".

Laboratoriyanın müasir tələblərə cavab verən avadanlıqlarla təchiz olunmasının həkim-mütəxəssislərin, həm də mərkəzə üz tutan xəstələrin rahatlığını təmin etdiyini söyləyən həkim bildirdi ki, indi qan analizi verən vətəndaşlar onun cavabını saatlarla, günlərlə gözləmirlər: "Qısa müddət ərzində analizlərin cavabı vətəndaşa təqdim olunur. Bundan sonra artıq həkimlər tərəfindən həmin xəstələrə müalicə kursları təyin edilir. Laboratoriyamızdakı cihazlar dünyanın aparıcı şirkətlərinin son texnologiya ilə istehsal olunmuş ən müasir və dəqiq cihazlarıdır. Yeri gəlmişkən, deyim ki, bu cihaz və avadanlıqlar çox bahadır. Amma daim vətəndaşının sağlamlığını və rahatlığını düşünən dövlətimizin başçısı bu sahəyə kifayət qədər vəsait ayırır. Dünyanın hansı ölkəsində olursa-olsun, müasir avadanlıqlar alınaraq mərkəzimizə gətirilir. Bütün bunlar dövlətin və Mehriban xanım Əliyevanın vətəndaşın sağlamlığına göstərdiyi diqqət və qayğının ən bariz nümunəsidir".

Şöbə müdiri daha sonra dedi ki, 2015-ci ildən Prezident İlham Əliyevin göstərişinə əsasən, Talassemiya Mərkəzində yeni ailə quran cütlüklərin müayinəsinə də başlanılıb. "Bu, vaxtında atılmış olduqca zəruri addım, mühüm qabaqlayıcı tədbirdir. Əsas məqsəd talassemiyadan əziyyət çəkən uşaqların dünyaya gəlməsinin qarşısını almaqdır. Ailə qurmaq istəyən cütlüklər respublika ərazisində olan xəstəxana və "ASAN xidmət" mərkəzlərində talassemiya daşıyıcılığının təyini üçün qan analizi verirlər. Bu qanlar mərkəzə daşınaraq burada analiz olunur və nəticədən asılı olaraq cütlüklərə məsləhət verilir. Bir-birini sevib ailə qurmağa hazırlaşan gənclərin ikisində də gen daşıyıcılığı aşkarlanan zaman onlar bu barədə məlumatlandırılır və gələcəkdə sağlam uşaq dünyaya gətirmək üçün nə edəcəkləri izah olunur. Biz iki gəncin ailə qurmasını qadağan edə bilmərik. Sadəcə olaraq onlara gələcəkdə doğulacaq uşaqlarının xəstə ola biləcəyi riski haqqında məlumat veririk. Bütün bu addımlar cəmiyyətimizdə sağlam uşaqların doğulması naminə atılır. Əgər ailə quran gənclərin ikisi də gen daşıyıcısıdırsa, onda onların uşaqları xəstə doğula bilər. Yox, əgər gənclərdən biri xəstəliyin daşıyıcısıdırsa, onda onların uşaqları sağlam və ya daşıyıcı olaraq doğulacaq ki, bu da normal sayılır. Biz yeni ailə quranları bu barədə geniş maarifləndiririk. Təbiidir ki, aparılan iş artıq müsbət nəticələr verir".

Laboratoriyanın həkimi Bağır Bağırlı söhbətimizə qoşularaq burada çalışanların işgüzarlığından söz açır: "Laboratoriyaya daxil olan analizlərin cavablarının vaxtlı-vaxtında hazırlanıb xəstələrə çatdırılmasında mütəxəssislərimiz üzərilərinə düşən vəzifələri bacarıqla yerinə yetirirlər. Onlar işlərinə böyük məsuliyyət və diqqətlə yanaşırlar".

Mərkəzin Poliklinika şöbəsinin müdiri Zenfira Mirzəyeva da gündəlik fəaliyyətlərindən qısaca söhbət açdı. Bildirdi ki, mərkəzə müraciət edənlərdən ilk olaraq qan analizləri götürülür. Onların talassemiya xəstəsi olub-olmadığı bu analizlərin cavabına əsasən müəyyənləşdirilir. "Müraciət edən vətəndaşda xəstəlik aşkarlanan tədqirdə o, ilk olaraq dispanser qeydiyyatına götürülür. Ondan sonra ona müvafiq müalicə təyin edilir. Transfuziyadan asılı olan talassemiyalı xəstələr hemotransfuziya ilə təmin olunurlar. Xəstələrə iki həftədən bir qan köçürülür. Ümumiyyətlə, dispanser qeydiyyatında olan bütün xəstələr vaxtlı-vaxtında dəmirqovucu və digər zəruri dərmanlarla təmin olunurlar. Mehriban xanım Əliyevanın mərkəzimizə göstərdiyi diqqət və qayğı sayəsində dərman təminatı sarıdan heç bir çətinliyimiz yoxdur. Talassemiyalı xəstələrin bütün müayinə və müalicələri dövlət hesabına həyata keçirilir. Dərman təminatı ilə yanaşı, xəstələr Mərkəzin həkim-mütəxəssisləri tərəfindən mütəmadi olaraq konsultasiya olunurlar. Həm müalicə, həm də müntəzəm aparılan konsultasiyalar xəstələrə normal yaşamağa kömək edir. Biz çalışırıq ki, talassemiyalı xəstələr normal həyat sürsünlər və gələcəkdə xəstə uşaqlar dünyaya gəlməsin. Nə uşaqlar, nə də böyüklər bu xəstəlikdən əziyyət çəksinlər.




### "Bu gün həyatda olduğumuza, yaşadığımıza görə Mehriban xanıma, Leyla xanıma minnətdarıq"

Geniş və işıqlı dəhlizdən keçib transfuziya otağına üz tutduq. Burada çalışanlar iş başında idilər. Onlar mərkəzin dispanser qeydiyyatında olan xəstələrə qan köçürürdülər. Otaqda sakitlik idi. Müxtəlif yaşda olan insanlar xəstəliklə mübarizə aparmaq üçün qan köçürtdürür, dərman qəbul edirlər. Köçürülən qan, qəbul olunan dava-dərman onların sabahkı həyatını təmin edir, yaşayacaqlarına ümidlərini artırır.

Nə qədər çətin olsa da, talassemiyalı xəstələrlə söhbət etdik, onlara xoş sözlərlə təsəlli verdik. Həmsöhbət olduğum Qasım Süleymanov Qax rayonundandır, talassemiya xəstəsi kimi qeydiyyatdadır. On beş ildir ki, mərkəzə gəlir, ona qan köçürülür və müalicə alır. Fizika müəllimi olan Q.Süleymanov bizimlə söhbət zamanı dedi: "Həyat olduqca gözəldir, şirindir. Elə buna görə də həyatdan doymaq olmur. Amma təəssüf ki, xəstəliklər həyatın şirinliyinə acılıq qatır. 15 ildir ki, talassemiya xəstəsi olduğum aşkarlanıb. Ayda iki dəfə rayondan Talassemiya Mərkəzinə gəlib qan köçürtdürürəm, dava-dərman alıram. Əgər Talassemiya Mərkəzi Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa olunmasaydı, yəqin ki, xəstəlik ömrümüzə son qoyardı. Tibb ocağı daim Mehriban xanımın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın diqqət mərkəzindədir. Biz bu gün yaşadığımıza görə Mehriban xanıma, Leyla xanıma minnətdarıq".

- Oğlum İlkinin 6 yaşı var. Onun talassemiya xəstəsi olduğunu öyrənəndə çox kədərləndim, - deyə Böyükxanım Azayeva söhbətimizə qoşuldu. - Düşündüm ki, yəqin çox çarəsiz bir xəstəlikdir, tezliklə övladımı itirəcəyəm. Çünki uşaq hərdən ağır vəziyyətə düşürdü. Amma sonra ölkəmizdə Talassemiya Mərkəzinin fəaliyyət göstərdiyini eşitdim. Ürəyimdə sabaha ümid işığı yandı. Vaxt itirmədən bu şəfa ocağına üz tutduq. Oğlumu burada çalışan həkimlər müayinə etdilər, qan analizi götürdülər. Çox keçmədi ki, müalicələr başladı. Neçə ildir ki, övladımı bu mərkəzə gətirirəm. Tibb bacıları ona qan köçürürlər, dava-dərman verirlər. Artıq İlkin özünü yaxşı hiss edir. Övladımı Mehriban xanım yenidən həyata qaytardı, bizə bir dünya sevinc bəxş etdi. Buna görə övladları burada müalicə olunan analar adından daim körpələrin qayğısına qalan Mehriban xanıma xeyirxahlığına, qayğıkeşliyinə görə dərin minnətdarlığımı bildirirəm. Mərkəzdə yaradılmış şəraitdən çox razıyıq.

### "İşləri nə qədər çox olsa da, Mehriban xanım talassemiyalı xəstələri unutmur"

Qan transfuziyasına gələn Nərmin İsmayılovanın 23 yaşı var. Nərmin bir yaşından talassemiya xəstəsi kimi qeydiyyatdadır. Xəstəliyinin tarixindən söz açan Nərmin xanım dedi: "Yaşım az olanda məni xəstəxanaya valideynlərim aparırdı. Artıq böyüdüyümə görə indi müayinələrə özüm gəlirəm. Mərkəzdə yaradılmış şəraitdən çox razıyıq. Ölkəmizdə sosial bəlaya çevrilən talassemiyaya qarşı effektiv mübarizə Mehriban xanım Əliyevanın şəxsi nəzarəti altındadır. İşləri nə qədər çox və gərgin olsa da, Mehriban xanım talassemiyalı xəstələri heç vaxt unutmur, daim onların qayğısına qalır. Bizim sağalmağımız üçün bütün zəruri tədbirlərin həyata keçirilməsini təmin edir. Bu və ya digər amillər bizim Mehriban xanıma olan hörmət və rəğbətimizi daha da artırır.

Talassemiya Mərkəzinin baş həkimi, MHTM-nin direktorunun müalicə işləri üzrə müavini Səhər İsmayılova ilə də söhbət etdik. Səhər xanım söhbətinə mərkəzin yaranma tarixindən başladı: "Mərkəzimizin yarandığı vaxtdan xeyli zaman keçib. 2005-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində bu mərkəzin tikintisinə başlanıldı. Bununla da çox böyük xeyirxah işin bünövrəsi qoyuldu. Talassemiya Mərkəzinin yaradılmasında əsas məqsəd bu xəstəliklə doğulanların və ondan əziyyət çəkənlərin müalicəsi və müayinəsi üçün müasir tələblərə cavab verən əlverişli şərait yaratmaq idi. Talassemiya Mərkəzinin açılışında Prezident İlham Əliyev və Mehriban Əliyeva iştirak etdilər. 2005-ci ildə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə talassemiya problemlərinə həsr olunmuş "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən tədbirdə demişdi: "Talassemiyadan ən çox uşaqlar əziyyət çəkir. Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır. Amma dünyada bu xəstəlikdən tamamilə sağalan insanlar var. Ona görə çox böyük iş görmək lazımdır və bunun öhdəsindən yalnız birlikdə gəlmək olar. Həm dövlət, həm də ictimaiyyət, fondlar, imkanlı insanlar birlikdə bu bəlanın qarşısını ala bilərlər. Heydər Əliyev Fondu üçün isə əsas məsələ ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılmasıdır. Beləliklə, biz bu gün bu problemin həlli yolunda birinci addımı birlikdə atdıq. Heydər Əliyev Fondu bu istiqamətdə hər bir yardımı dəstəkləyir və təklifləri gözləyir".

Direktor müavini sözünə davam edərək dedi ki, xəstələrin müalicəsi üçün şəfa ocağında əlverişli şərait yaradılıb. Bu şəraitdən bacarıqla istifadə edən əməkdaşlar xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərirlər. Mərkəzdə poliklinika, laboratoriya, funksional diaqnostika, transfuziya şöbələri, eyni zamanda həm uşaqlar, həm də böyüklər üçün stasionar və intensiv terapiya bölmələri fəaliyyət göstərir. İşlərimizi daha da asanlaşdırmaq və sürətləndirmək məqsədilə 2018-ci ildən xəstələrin siyahıya alınması elektronlaşdırılıb. Hazırda dispanser qeydiyyatında 3185 xəstə var. Bunlardan 1427 nəfəri transfuziyadan asılı olan xəstələrdir. Qeydiyyatda olan bu xəstələrdən 1662-si 0-18 yaş, 1523-ü isə 18 yaşdan yuxarıdır. Transfuziyadan asılı olan xəstələrin bəzilərinə ayda iki dəfə qan köçürülür. Əvvəllər talassemiya xəstələrinin ömrü çox qısa idi. Aparılan uğurlu müalicə və profilaktik tədbirlər nəticəsində xəstələrin ömrü uzanıb. Ölkəmizdə qohumlararası nikah geniş yayıldığından bu gün əhalinin 4-6 faizi bu xəstəliyin daşıyıcısıdır.

### Mərkəzin mütəxəssisləri biliklərini daim təkmilləşdirirlər

Talassemiya haqqında deyilənləri dinlədikcə düşündük ki, görəsən bu xəstəliyin tam müalicəsi varmı, yoxsa buna tutulanlar illərlə qan köçürməyə, dərman atmağa məcburdurlar. Bizi narahat edən suala Səhər xanım cavab verərək dedi: "Talassemiya xəstəliyindən tamamilə qurtulmaq mümkündür. Bunun üçün isə yeganə üsul xəstəyə sümük iliyinin köçürülməsidir. Mütəxəssislər bunu radikal müalicə üsulu adlandırırlar. 2014-cü ildən mərkəzdə talassemiyalı xəstələrin radikal müalicəsinə, yəni sümük iliyinin transplantasiyasına başlanılıb. Müalicənin bu forması xəstəlikdən birdəfəlik xilas olmağın yeganə yoludur. İndiyə qədər xeyli sayda uğurlu sümük iliyi transplantasiyası əməliyyatı aparılıb. Sevindirici haldır ki, əldə olunan nəticələr bu sahədə ölkəmizin qabaqcıl Avropa ölkələri ilə bir sırada dayandığını göstərir. Bir daha onu qeyd edim ki, əməliyyatın gedişi və əməliyyatdan sonrakı bütün prosedurların hamısı dövlətimizin və hörmətli Mehriban xanım Əliyevanın böyük əməyi və qayğısı ilə həyata keçirilir".

Səhər xanım onu da bildirdi ki, Talassemiya Mərkəzinin həkimləri bilik və bacarıqlarını təkmilləşdirmək üçün müntəzəm olaraq xarici ölkələrdə keçirilən konfrans və seminarlarda iştirak edirlər. Həmin ölkələrdən olan həmkarlarımızla təcrübə mübadilələri aparılır, iş prinsipləri və müalicə üsulları ilə bağlı təmasda olurlar. Bütün bunlar mütəxəssislərimizin daha da peşəkar olmalarına zəmin yaradır. Talassemiya probleminin aradan qaldırılmasında maarifləndirmə işləri də böyük rol oynayır. Bu istiqamətdə işlərimizi davam etdiririk. "Talassemiyasız həyat naminə" devizi altında rayon və şəhərlərdə simpoziumlar keçirilir. Əsas məqsəd bölgələrdə yaşayan insanları maarifləndirməkdir. Bəzən insanlar xəstəliyə məlumatsızlıqdan yoluxurlar. Yoluxmaların qarşısını almaq üçün də səmərəli maarifləndirmə işlərini həyata keçiririk. Necə deyərlər, bütün gücümüz və bacarığımızla talassemiyaya qarşı mübarizə aparırıq.

### Xeyirxah işlərin, nəcib əməllərin gur işığı

Talassemiya Mərkəzindən çıxanda qeydiyyat otağının qarşısında növbə gözləyən xəstələri xeyli az gördük. Bu, çox ürəkaçan mənzərə idi. Belə bir qənaətə gəlirik ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Azərbaycanda talassemiyasız həyat uğrunda mübarizə müsbət nəticələr verir. Görülən tədbirlər və aparılan mübarizələr nəticəsində ölkəmizdə talassemiya xəstələrinin sayı zaman-zaman azalacaq və günlərin birində tamam aradan qaldırılacaq. Bir vaxt gələcək ki, talassemiya xəstəliyi tarixə qovuşacaq. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işləri, göstərdiyi xeyirxahlığı, diqqət və qayğını Azərbaycan xalqı heç vaxt unutmayacaq. Mehriban xanımın bu nəcib əməlləri tarix durduqca yaşayacaq və iftixarla xatırlanacaq.

*...Talassemiya Mərkəzindən gündən-günə yaşıllaşan, gözəlləşən, abadlaşan şəhərimizin küçələrinə çıxanda ətrafı səhər gördüyümüzdən daha işıqlı və nurlu gördük. Təbiidir ki, bu, təkcə Günəşin işığı, nuru deyildi. Bu həm də Mehriban xanım Əliyevanın gördüyü misilsiz xeyirxah işlərin, qürur dolu nəcib əməllərin işığı və nuru idi. İnanırıq ki, bu işıq, bu nur talassemiyalı xəstələrin də həyat yollarına daim düşəcək. Bu yollar isə onları sağlamlıq və xoşbəxtlik dünyasına qovuşduracaq.*

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# İdman missiyası









**Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva təhsil, mədəniyyət, səhiyyə sahəsi ilə yanaşı, ölkəmizdə idmanın inkişafında da səmərəli, uğurlu fəaliyyəti ilə diqqət çəkib. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq yarışların təşkilatı işlərinə rəhbərlik edən Mehriban Əliyevanın ortaya qoyduğu nümunə Azərbaycanın həm də idman ölkəsi olduğunu dünyaya çatdırıb. Bir sözlə, Azərbaycanın birinci xanımı idmana qayğı ilə yanaşması baxımından da çoxsaylı uğurların müəllifi olaraq tanınır.**





## Gimnastikada yüksəliş mərhələsi

Mehriban xanım Əliyeva 2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçiləndən bu sahədə uğurlu inkişafın əsası qoyuldu. Mehriban xanımın əzmkar rəhbərliyi sayəsində Azərbaycan gimnastikasına olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişdi.

Azərbaycanda gimnastikanın yaranma və inkişaf tarixi ötən əsrin 40-ci illərinə təsadüf edir. Bu idman növünün qısa müddət ərzində xeyli populyarlıq qazanması tezliklə təşkilatlanmaya təkan verdi.

1956-cı ildə Azərbaycan Gimnastika Federasiyası (AGF) yaradıldı. Azərbaycan müstəqillik qazandıqdan sonra 1993-cü ildə milli federasiya Beynəlxalq Gimnastika Federasiyasına, 1996-cı ildə isə Avropa Gimnastika İttifaqına üzv qəbul olundu.

1990-cı illərin əvvəllərində idmanda baş verən tənəzzül gimnastikadan da yan ötməmişdi. Azərbaycan gimnastları beynəlxalq yarışlarda çox zəif çıxış edir, sonuncu yerləri tuturdular. Beynəlxalq gimnastika təşkilatları ilə əlaqələr yox dərəcəsində idi. 2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının növbəti hesabat-seçki konfransı ərəfəsində real vəziyyət belə idi. Həmin il oktyabrın 7-də isə Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra ölkəmizdə bu idman növünün yeni inkişaf mərhələsi başlandı.

Gimnastika Federasiyasının yeni seçilmiş rəhbərliyi ilk növbədə ölkə gimnastikasının imkanlarını öyrəndi. Bundan sonra Azərbaycan Gimnastika Federasiyası öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirdi. Bu istiqamətlər respublikada gimnastika bölmələrinin fəaliyyətinin gücləndirilməsi, məşqlər üçün yaxşı şəraitin yaradılması, Azərbaycan çempionatlarının yüksək səviyyədə təşkili və keçirilməsi, AGF-nin beynəlxalq əlaqələrinin qurulması, dünya və qitə federasiyaları ilə əməkdaşlığın gücləndirilməsi, Azərbaycanda bədii gimnastika üzrə beynəlxalq yarışların keçirilməsi, Afina Olimpiya Oyunlarına lisenziya qazanılması, respublikada gimnastika üzrə mütəxəssislərin, məşqçi və hakimlərin yetişdirilməsi, onların öz bilik və bacarıqlarının təkmilləşdirilməsi idi. Eyni zamanda respublikanın regionlarında gimnastika bölmələrinin yaradılması, yalnız bədii gimnastikanın deyil, digər növlərin də inkişaf etdirilməsi, Azərbaycan gimnastlarının beynəlxalq yarışlarda daha çox iştirakının təmin edilməsi, gimnastikanın maddi-texniki bazasının gücləndirilməsi, gimnastikanın təbliğ olunması qarşıya vəzifə qoyuldu.

Çox tezliklə gimnastika sahəsində mühüm canlanma hiss olunmağa başladı. Respublika çempionatlarının və birinciliklərinin təşkili və keçirilməsindəki çatışmazlıqlar tezliklə aradan qaldırıldı. İdmançıların beynəlxalq səviyyəli yarışlara qatılması üçün şərait yaradıldı. Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkə gimnastikası özünün yeni inkişaf mərhələsinə qədəm qoydu.

## Mötəbər turnirlərin dəyişilməz ünvanı

Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva Beynəlxalq Gimnastika Federasiyasına bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışının Azərbaycanda keçirilməsi ilə bağlı müraciət etdi. Beynəlxalq Gimnastika Federasiyası Afinada keçirilmiş 74-cü konqresində dünya kubokunun "A" kateqoriyalı mərhələsinin 2003-cü ilin avqustunda Azərbaycanda keçirilməsi barədə qərar qəbul etdi. Belə mötəbər yarış ilk dəfə idi ki, Azərbaycana salınırdı. Bu, Azərbaycan gimnastikasının ölkənin müstəqilliyi illərində əldə etdiyi ilk böyük uğur oldu və bədii gimnastika tariximizə parlaq bir səhifə kimi yazıldı.

2003-cü ilin aprelində dünya kubokunun mərhələsinin təşkilinə hazırlıqla tanış olmaq üçün Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandi, baş katib Norbert Buşe, baş katibin müavini Andre Quisbuhler və bədii gimnastika üzrə texniki komitənin rəhbəri xanım Egle Abruzzinidən ibarət nümayəndə heyəti Azərbaycana gəldi. Beynəlxalq qurumun ölkəmizə gəlmiş nümayəndə heyəti səfər zamanı paytaxtın idman kompleksləri, gimnastikanın maddi-texniki bazası ilə tanış oldular. Bu tanışlıq mövcud şəraitin mötəbər beynəlxalq yarışın Azərbaycanda keçirilməsi üçün hər cür yararlı olduğuna qonaqları əmin etdi.

2003-cü ilin avqustunda Bakıda 17 ölkə təmsilçilərinin iştirak etdiyi bədii gimnastika üzrə dünya kubokunun mərhələsi çox yüksək səviyyədə keçdi. Azərbaycana gəlmiş qonaqlar və idmançılar ölkəmizdən xoş təəssüratlarla ayrıldılar.

Ümumiyyətlə, son 20 ildə Bakı bir çox beynəlxalq gimnastika yarışlarına evsahibliyi etdi. 2004-cü ildə Heydər Əliyev adına İdman-Konsert Kompleksində bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışı keçirildi. Dünya kuboku idman tariximizdə layiqli izlər qoydu.

2005-ci ilin mayında Bədii Gimnastika üzrə 27-ci Dünya Çempionatı Bakıda keçirildi. Həmin il Bakıda dünya kubokunda "A" kateqoriyasına malik AGF Kuboku uğrunda yarış da təşkil olundu.

Mehriban xanımın rəhbərliyi ilə 2007-ci ilin iyununda Bədii Gimnastika üzrə 23-cü Avropa Çempionatı da parlaq nəticələrlə Bakıda keçirildi. Yarışlarda dünyanın 32 ölkəsindən 186 gimnast iştirak etdi. 2014-cü ildə isə Bakı yeni tikilmiş Milli Gimnastika Arenasında 30-cu Avropa çempionatını qəbul etdi.Turnirdə qitənin 30 ölkəsindən 250-dən çox gimnast yarışdı.

2018-ci ildən bu günə kimi Bakıda idman gimnastikası üzə dünya kubokları, həmçinin batut gimnastikası, tamblinq və ikili-mini batut üzrə Avropa çempionatı, bədii gimnastika üzrə "AGF Junior Trophy" adlı beynəlxalq turnir, bədii gimnastika üzrə dünya kuboku və gənclər arasında Avropa üzrə Olimpiya Oyunlarına idman gimnastikası üzrə təsnifat yarışları təşkil edilib.

## Azərbaycan Avropa Oyunlarının standartını müəyyənləşdirdi

2015-ci ilə nəzər yetirdikdə isə, diqqətçəkən ən böyük idman hadisəsi, sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının Bakıda keçirilməsi idi. Ölkəmiz 2 ildən çox davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında qəbul edilib. AOK Baş Assambleyasının qərarı səsvermədə iştirak edən 48 nəfərdən 38-nin səs çoxluğu ilə qəbul edilib.

Prezident İlham Əliyev 2013-cü il 17 yanvarda "I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sədrliyi ilə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb.

Bu tipli oyunlar üçün 7-8 il zaman verilsə də, Azərbaycanın Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il yarım vaxtı vardı. Olimpiadanın keçirilməsində böyük təcrübə mövcuddur və Beynəlxalq Olimpiya Komitəsi, demək olar ki, hər bir sahə üzrə öz göstərişlərini verir. Mövcud təlimatlarda hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var. I Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yox idi. Belə olan halda bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın öz üzərinə düşürdü.

AOK-un qəbul etdiyi qərardan keçən müddətdə oyunlara hazırlıq işlərinin sürəti və miqyası gözlənilməz səviyyədə artmışdı. Mehriban xanım Əliyevanın başçılıq etdiyi Təşkilat Komitəsinin apardığı gərgin və məqsədyönlü işin səmərəsi göz önündə idi. Avropa Oyunlarının keçiriləcəyi idman qurğularının tikintisi və təkmilləşdirilməsi işi dünya standartlarına uyğun və yüksək keyfiyyətlə aparıldı. Cəmi iki il yarımdan da az vaxtda 5 yeni idman kompleksi tikilərək istifadəyə verildi. Bunlar Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Su İdmanı Sarayı və Veloparkdır.

Yarışların keçirildiyi digər idman qurğuları isə tamamilə yenidən quruldu, ən müasir standartlara uyğunlaşdırıldı. Qısa müddətdə bu qədər işin görülməsi, həqiqətən, gərgin və fədakar zəhmət tələb edirdi. Lakin ölkəmiz ən yüksək formada bunun öhdəsindən gəlməyi bacardı. Bakıda yeni infrastrukturun yaradılması və oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Təşkilat Komitəsi hazırlıq işlərini göstərilən vaxtdan da əvvəl yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atdı.

Bu uğurların qazanılmasında, sözsüz ki, Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın xüsusi rolu vardı. Prezident İlham Əliyevin dediyi kimi, Təşkilat Komitəsi tərəfindən hər bir xırda məsələ ilə bağlı işlər yüksək səviyyədə görüldü. Mehriban Əliyeva bu oyunların keçirilməsinə çox böyük töhfə verdi. Dövlət başçısı Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban xanım Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif etdi.

## Uğur estafeti IV İslam Həmrəyliyi Oyunlarında davam etdirildi

Mehriban xanım Əliyevanın "Bakı-2015" ilə başlatdığı uğur estafeti "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında da davam etdi. 2017-ci ilin mayında paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. İslam dünyasının idman həyatı üçün əlamətdar olan "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları çox böyük uğurla yekunlaşdı.

2015-ci il sentyabrın 18-də Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qarşıya qoyulan vəzifələri uğurla həyata keçirdi. Ölkə rəhbərliyinin diqqət və qayğısı, Təşkilat Komitəsinin yüksək təşkilatçılığı sayəsində IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə baş tutmasına lazımi şərait yaradıldı.

Təşkilat Komitəsinin 2 il ərzində məqsədyönlü fəaliyyəti digər təşkilatlara örnək oldu. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlandı və digər zəruri təşkilati tədbirlər həyata keçirildi. Müsəlman ölkələrinin federasiya nümayəndələri, ən yaxşı idmançıları, şəhərimizin qonaqları Bakıda aparılan hazırlıq işlərindən, onlar üçün yaradılan ideal şəraitdən, insanlarımızın qonaqpərvərliyindən, bir-birindən modern idman arenalarından, xüsusən də təntənəli açılış və bağlanış mərasimlərindən heyrətə gəlmişdilər.

## Uğurlu fəaliyyətə layiqli qiymət

IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ərəfəsində isə Azərbaycan gimnastikası adına daha bir xoş xəbər gəldi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva Beynəlxalq Gimnastika Federasiyasının (FIG) yüksək mükafatı ilə təltif olundu.

Bu qərar FIG Şurasının Bakıda keçirilən iclasında qəbul edildi. 2020-ci ildə Tokioda keçirilən XXXII Yay Olimpiya Oyunlarına hazırlıq dövründə FIG-nin ali orqanlarının ilk dəfə Bakıda keçirilən bu iclasında Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe və vitse-prezidentlər, Şuranın Konqres tərəfindən seçilmiş üzvləri, qitələrin gimnastika federasiyalarının, FIG-nin texniki komitələrinin prezidentləri və digər vəzifəli şəxslər iştirak etmişdilər.

Tədbirdə çıxış edən M.Vatanabe Azərbaycan Gimnastika Federasiyasının gördüyü işlərdən ətraflı söhbət açıb, gimnastikanın təbliği və inkişafı, ən müasir beynəlxalq standartlara uyğun gimnastika arenalarının tikintisi və təchizatı, idmançı və məşqçilərə göstərilən qayğı və onlar üçün yaradılan şərait, yarışların yüksək səviyyədə təşkili baxımından federasiyanın fəaliyyətini xüsusi qiymətləndirdi. Azərbaycan Gimnastika Federasiyasının prezidenti, ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın olimpiya idman növü olan gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə FIG-nin yüksək mükafatı ilə təltif olunduğunu bildirdi.

Beləliklə, I Avropa və IV İslam Həmrəyliyi Oyunlarında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu. Həmin oyunlar bütün məziyyətləri ilə müstəqil Azərbaycanı dünyaya yenidən tanıtdı, ölkəmizin təbliğində olduqca müstəsna rol oynadı. Bu baxımdan Mehriban xanım Əliyevanın ən yüksək mükafatlarla təltif olunması onun layiqli və mənəvi haqqıdır.

Göründüyü kimi, bu gün Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmasını və mötəbər arenalarda bayrağımızın dalğalanmasını hamılıqla şərəf və qürur hissi ilə seyr ediriksə, bütün bu nailiyyətlərin təməlində məhz dövlətin uğurlu idman siyasəti dayanır. Məhz bu idman siyasətinin nəticəsidir ki, Azərbaycan gimnastları getdikcə uğurlarının sayını artırmağa, nailiyyətlərini daha da yüksəltməyə başlayıblar. Elə Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunlarında əldə edilən nailiyyəti göstərmək yetərlidir. Yəni gimnastikaya qayğı siyasəti XXXIII Yay Olimpiya Oyunlarında da qazanılan nəticədə özünü göstərdi. Belə ki, Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası "Paris-2024"də 5-ci pilləni tutaraq tarixi nəticəyə imza atdı. Bu nailiyyətlə Azərbaycan bir çox böyük dövlətləri qabaqladı və bir ilkə imza atdı.

Birinci vitse-pezident Mehriban Əliyeva sosial şəbəkə hesabında bədii gimnastika üzrə qrup hərəkətləri komandasını təbrik edərək onların uğurlarını çox yüksək dəyərləndirdi: "Əhsən! Sizinlə fəxr edirəm! Əziz gimnastlar, sizin zəhmətiniz, mətanətiniz və ən yaxşı olmaq istəyiniz sayəsində əldə olunan tərəqqi göz qabağındadır! Məharətinizə, qələbə əzminizə və ən mürəkkəb elementləri zərifliklə yerinə yetirdiyinzə görə sağ olun! Sizə yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram! Sizi sevirəm!"

Gənclik və idman bir-birini tamamlayan məfhumlardır. Müasir gənclərin hərtərəfli formalaşması, rəqabətə davamlı yetişdirilməsi məhz dövlətin uğurlu gənclər siyasətinin davamıdır. Gənclərimiz tək idmanda deyil, bütün sferalarda aktiv rolu ilə seçilir, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə də mühüm rol oynayırlar. Bütün bunlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanların, yüksək diqqət və qayğının nəticəsidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

# Daşkənddə Azərbaycan-Özbəkistan münasibətlərinin yeni kitabı yazıldı

## İki ölkə arasında iqtisadi əməkdaşlıq müttəfiqlik müstəvisinə keçir



Azərbaycanla Özbəkistan arasındakı dostluq və qardaşlıq münasibətlərinin tarixi qədimdir. İllərin dolanbacları və keşməkeşləri belə bu səmimi münasibətləri poza bilməyib. Doğrudur, bəzən müəyyən səbəblərdən dolayı bu münasibət dalğalı olub. Amma o, iki qardaş xalqın arasında heç bir sərhəd yarada bilməyib.

İndi Azərbaycanla Özbəkistan dünyaya dostluq, qardaşlıq, əməkdaşlıq nümunəsi sərgiləyir. Hər iki dövlət arasında yaranmış yeni münasibətlərin kökündə dövlət başçılarının dostluq və qarşılıqlı etimad şəraitində keçən görüşlərində qəbul edilən qərarlar, imzalanan sənədlər dayanır. Bu sənədlərin əsasında milli-mənəvi, mədəni əlaqələrin, iqtisadi münasibətlərin inkişafı sürətlənir, əmtəə dövriyyəsi artır, nəqliyyat və energetika sahəsində əməkdaşlıq möhkəmlənir. Azərbaycan-Özbəkistan arasındakı mövcud iqtisadi münasibətlər hər iki dövlətin strateji müttəfiqliyi müstəvisinə qaldırılaraq tərəflərə fayda gətirir.

Qeyd edək ki, hər iki dövlət başçısının əvvəlki illərdə imzaladığı sənədlər əsasında hazırlanmış proqramların, layihələrin səmərə verdiyi aydın hiss olunur. Bu, xüsusilə ticari anlaşmalarda qabarıq görünür. Dövlət Statistika Komitəsinin məlumatına görə, 6 ay ərzində Özbəkistandan 10,7 milyon dollar dəyərində saflaşdırılmış misdən məftillər, borular və borucuqlar, 9,45 milyon dollar dəyərində trikotaj parçalar, 6,5 milyon dollar dəyərində avtomobillər üçün kuzovlar, 4 milyon dollar dəyərində quru nəqliyyat vasitələri üçün mühərriklər, 3,4 milyon dollar dəyərində televiziya rabitəsi üçün qəbuledici aparatlar, yenə də eyni dəyərdə kondinsionerlər, 2,3 milyon dollar dəyərində toxuculuq materiallarından hazır xovlu/xovsuz örtüklər alınıb.

Azərbaycandan isə Özbəkistana 14 milyon dollar dəyərində məhsul ixrac edilib. Bu, 3,25 milyon dollarlıq alüminium ərintiləri, 2 milyon dollar dəyərində ağ şəkər, 1,2 milyon dollar dəyərində təzə alma, 1,1 milyon dollar dəyərində badam və meşə fındığı, 605,5 min dollar dəyərində lak və boyalar, 560 min dollarlıq minik avtomobili, 520 min dollar dəyərində polietilen, 434 min dollar dəyərində xam neft və neft məhsulları, 297 min dollar dəyərində qurudulmuş noxud, 268 min dollarlıq nişasta və digər məhsullardır.

Son iki ildə Prezident İlham Əliyev Özbəkistana 5 səfər edib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə ölkəmizdə 4 dəfə qonaq qolub. İlham Əliyevin növbəti - beşinci səfəri özünün geniş spektri ilə fərqləndi. Prezidentlərin Daşkənd görüşündə çoxtərəfli münasibətlər ətraflı müzakirə edildi, o cümlədən iqtisadi sahələr üzrə ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat və aqrar sektorlarda əlaqələri genişləndirmək üçün qarşılıqlı fəaliyyət proqramı müəyyənləşdirildi, əmtəə dövriyyəsini artırmağın zəruriliyi vurğulandı. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatında bu barədə fikirlərini belə söylədi: "Bugünkü əmtəə dövriyyəsini iki dəfə artırmaq üçün bütün əsaslar mövcuddur. Obrazlı desək, biz sıfırdan başlamışıq və indi bu səviyyəyə çatmışıq. Göstəriciləri dəfələrlə artırmaq üçün bütün əsaslar var. Razılığa gəldik ki, növbəti ili "Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili" elan edək və bununla yanaşı, artıq dediyim kimi, 20 əsas istiqamət üzrə proqram qəbul olunsun. Danışıqlar əsnasında konkret kooperasiya layihələrinin üzərində dayandıq. Bu ərəfədə biznes-forum məhsuldar şəkildə keçirildi, onlarla müqavilə və saziş imzalandı. Bu gün bizim biznes nümayəndələri ilə ayrıca görüşümüz olacaq. Bu da ilk dəfədir. Birlikdə mühüm layihələrə start verəcəyik - bu, mehmanxanaların, tekstil klasterlərinin, tikiş fabriklərinin qurulması, inşaat materiallarının istehsalı və digərləridir. Bildiyiniz kimi, belə layihələrin həyata keçirilməsi üçün 500 milyon dollar kapitalı olan birgə investisiya şirkəti fəaliyyət göstərir. Üçüncü ölkələrdə perspektivli layihələrdə iştirakı nəzərdən keçirmək üzrə razılığa gəldik".

Azərbaycan-Özbəkistan əlaqələri özündə həm də regional aspektləri əks etdirir. Bu kontekstdə xüsusi olaraq nəqliyyat-tranzit marşrutları diqqət çəkir. İki ölkənin razılaşdırdığı layihələr paralel şəkildə həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya regionu üçün geniş imkanlar açır. Məhz bu səbəbdən budəfəki Daşkənd görüşündə prezidentlərin müzakirə etdiyi məsələlərdən biri də nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən Trans-Xəzər dəhlizinin inkişafı üçün birgə səylərin artırılmasının davam etdirilməsi, regionlararası əlaqələrin potensialından maksimum istifadə olunması, eləcə də kooperasiya üzrə yol xəritəsini qəbul etmək oldu.

Dövlət başçılarının müzakirə etdiyi məsələlər arasında bir layihəni Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında xüsusi vurğuladı. Bu, işğaldan azad edilmiş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılmasıdır. "Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir" - deyən İlham Əliyev daha sonra bildirdi: "Biz həmişə - istər işğal, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra da özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə mənəvi dəstək olmaqla yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib. Bir il əvvəl, avqustun 23-də biz Füzulidə Mirzə Uluqbəy adına 960 şagird üçün nəzərdə tutulan və münasibətlərimizin rəmzi olan, özbək qardaşlarımızın gözəl münasibətlərinin simvoluna çevrilən, həmçinin Şavkat Miromonoviçin Özbəkistanda həyata keçirdiyi standartlara uyğun məktəbin açılışında olduq. O, artıq Özbəkistanda çoxlu sayda belə məktəblər tikib və eynisini bizdə də inşa etdi. Artıq mənə məlumat veriblər ki, orada 500 şagird təhsil alır, amma tezliklə bu məktəbdə nəzərdə tutulduğu qədər şagird olacaq. Çünki keçmiş məcburi köçkünlərin qayıdışı prosesi uğurla davam edir".

Prezidentlərin hər iki ölkənin işgüzar dairələri ilə görüşlərinin sonunda Azərbaycanda və Özbəkistanda birgə layihələrin icrasına başlanmasını bildirən rəmzi düyməni basmaları çox mətləblərə işarədir. Bunun nə olduğunu Prezident İlham Əliyev belə ifadə etdi: "Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Zənnimcə, əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Özbəkistan münasibətləri ən yüksək səviyyədədir

"Bu gün Azərbaycan dünyanın müxtəlif coğrafi məkanlarında yerləşən əksər ölkələrlə yaxından əməkdaşlıq edir, dostluq münasibətləri qurur, qarşılıqlı faydalı münasibətləri inkişaf etdirir. Belə ölkələrdən biri də dost, qardaş, eyni soya, eyni kökə, eyni dinə mənsub olan Özbəkistandır".

Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev 2022-ci il 11 noyabr tarixində Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə türk dünyasının böyük bir ailə olduğunu diqqətə çəkib. Prezident bəyan edib ki, türkdilli dövlətlər bir-birinin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməlidirlər. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığı fəallaşdırmalıdırlar.



"Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli münasibətlərin tarixi çox qədimdir. Səlcuqlar, Xarəzmşah, Əmir Teymurun, bütövlükdə Türküstan adlanan dövrdən formalaşan bu əlaqələr əsrdən-əsrə keçdikcə yeni mahiyyət və məzmun alıb. Sovet İttifaqı dönəmində də hər iki xalq arasında sıx əməkdaşlıq əlaqələri mövcud idi. Ümummilli Lider Heydər Əliyev hər zaman özbək xalqına böyük sevgi ilə yanaşıb. 1970-ci ildə, o vaxt Azərbaycana rəhbərlik edən Ümummilli Liderlə Özbəkistanın rəhbəri Şərəf Rəşidov arasında yaranmış dostluq münasibətləri iki ölkə arasındakı əlaqələrin bugünkü inkişafının əsası olub. Ulu Öndər və Özbəkistanın birinci Prezidenti İslam Kərimov tərəfindən 1996-cı ildə Bakıda imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" etimad və hörmətə əsaslanan gələcək münasibətlərin yaranmasında mühüm rol oynayıb", - deyə müsahibimiz əlavə edib.

Deputat qeyd edib ki, hazırda Azərbaycan-Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri həlledici rol oynayır. Təsadüfi deyil ki, hər iki prezident dövlət və rəsmi səfərlərdən əlavə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər. Bu gün xalqlarımız arasında ikitərəfli əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

K.Bayramov bildirib ki, Prezident İlham Əliyev Özbəkistan lideri Şavkat Mirziyoyevin dəvəti ilə avqustun 22-23-də Özbəkistana dövlət səfəri edib. Səfər proqramına strateji tərəfdaşlıq və çoxtərəfli əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsi və genişləndirilməsi məsələləri daxil idi. Qarşılıqlı ticarətin artırılması, yeni əməkdaşlıq layihələri portfelinin formalaşdırılması, işgüzar əlaqələrin, o cümlədən regionlararası mübadilənin inkişafı, nəqliyyat-kommunikasiya potensialının reallaşdırılması, mədəni-humanitar əlaqələrin aktivləşdirilməsi və digər məsələlər müzakirə edildi.

Ötən il avqustun 22-də Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin də ölkəmizə dövlət səfəri etdiyini xatırladan deputat deyib ki, bu səfərin özəlliyi onda idi ki, cənab Şavkat Mirziyoyev prezident seçildikdən sonra ilk səfərini məhz Azərbaycana etdi: "Prezident İlham Əliyev və onun özbəkistanlı həmkarı mətbuata bəyanatlarında bu mühüm məqamı xüsusi olaraq vurğuladılar ki, Azərbaycan və Özbəkistan iki yaxın xalq, ölkədir. Dövlət başçılarının şəxsi münasibətləri əlaqələrin yeni mərhələyə yüksəlməsini şərtləndirir. Özbəkistan hər zaman keçmiş Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyib. Özbəkistan hələ 2008-ci ilin martında BMT Baş Assambleyasında səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs verən yeganə Mərkəzi Asiya ölkəsi olub. Zəfər Günümüzün Özbəkistanda geniş şəkildə qeyd edilməsi, bizim sevincimizə şərik olduqlarının nümayişi, əsl dostluq və qardaşlığın göstəricisi idi. 2021-ci ilin noyabrında İstanbulda Türk Dövlətləri Təşkilatının VIII Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Füzulidə Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəyini bildirmişdi. Artıq bu, reallığa çevrilib. Prezident İlham Əliyev Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə Füzulidə tikilən və onun ölkəmizə səfəri çərçivəsində açılışı olan məktəbi Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsi kimi dəyərləndirib. Bu, eyni zamanda qardaşlığın, həmrəyliyin, dəstəyin nümunəsi kimi qeyd olundu. Dövlət başçımız belə bir əminliyi də ifadə etdi ki, bu, təkcə təhsil ocağı deyil, eləcə də dostluğumuzun və qardaşlığımızın daha bir mərkəzi olacaq".

K.Bayramov qeyd edib ki, həmin səfər çərçivəsində dövlət başçılarının təkbətək və geniştərkibli görüşlərində bir çox müzakirələr aparılıb, bir sıra mühüm sənədlər imzalanmışdı. İki ölkə arasında Ali Dövlətlərarası Şuranın yaradılması barədə müqavilənin imzalanması isə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin bariz nümunəsidir.

Deputat əlavə edib ki, Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sonuncu dəfə Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə bu il iyulun 5-6-da Azərbaycanda səfərdə olub. "İki ölkə arasında bu vaxtadək imzalanmış 170-dən çox sənəd, o cümlədən strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Respublikamızın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin, həm də bütün türk dünyasının inkişafında böyük rol oynayır. Qətiyyətlə deyə bilərik ki, ölkələrimiz arasındakı qarşılıqlı etimada söykənən və əsrlərdir davam edən dostluq və qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət göstərəcək", - deyə fikrini tamamlayıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin Özbəkistana səfəri bu ölkənin mətbuatında geniş işıqlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 22-23-də Özbəkistana dövlət səfəri bu ölkənin mətbuatı tərəfindən geniş şəkildə işıqlandırılmaqdadır. Özbəkistanda fəaliyyət göstərən ingilisdilli və rusdilli media orqanları da Azərbaycan Prezidentinin səfərini diqqət mərkəzində saxlayır.




AZƏRTAC xəbər verir ki, ingilisdilli "Tashkent times" saytında dərc olunan materialda Özbəkistan və Azərbaycan liderləri arasında yaxın dostluq münasibətlərinin olduğu, bunun dövlətlər arasında əməkdaşlıq əlaqələrinin inkişafına böyük imkanlar yaratdığı vurğulanır. Diqqətə çatdırılır ki, hər iki ölkə beynəlxalq iqtisadi layihələri birgə həyata keçirməyə başlayıblar.

"Uznews" saytı yazır ki, iki ölkə arasında enerji, nəqliyyat və tranzit sahələrində əməkdaşlıq əlaqələri mövcuddur. Bu münasibətlərin inkişafı dövlətlər arasındakı əlaqələri yaxınlaşdırmaqla yanaşı, iqtisadi baxımdan da tərəflərə faydalı olacaq. Çindən Avropaya uzanan beynəlxalq əhəmiyyətli tranzit yolların hər iki dövlətin ərazisindən keçməsi birgə fəaliyyəti zərurətə çevirib. Prezidentlər regionun coğrafi mövqeyini düzgün qiymətləndirərək tranzit sahəsində əməkdaşlığı davam etdirirlər.

"Uz Daily" agentliyinin materialında qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə iki dövlət arasında müttəfiqlik münasibətləri haqqında bir sıra sənədlər imzalanıb. İmzalanan sənədlər iki ölkə arasında insan hüquqlarının qorunması, iqtisadi ticarət, mədəniyyət, turizm və digər sahələri əhatə edir.

"Qazeta.uz" internet qəzetində dərc olunan yazıda vurğulanıb ki, son illər ərzində Azərbaycan və Özbəkistan prezidentləri qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini, beynəlxalq platformalarda birgə fəaliyyəti genişləndirmək istəyirlər. Hər iki ölkənin prezidentinin iqtisadi inkişaf istiqamətində siyasət yürütmələri dövlətlər üçün səmərəlidir. Qarşılıqlı faydalı əməkdaşlıq iqtisadi inkişafa və siyasi gücün artımına xidmət edir.

"Kursiv" informasiya saytı "Özbəkistan ilə Azərbaycan müttəfiq oldular" sərlövhəli materialda qeyd edib ki, perspektiv inkişafı nəzərə alan hər iki ölkənin liderləri yalnız iqtisadi deyil, siyasi sahədə də birgə addımların əsasını yaratdılar. Bu iki ölkə Türk Dövlətləri Təşkilatı, MDB, BMT, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarda səmərəli əməkdaşlıq edir. Özbəkistanın "Uza.uz" dövlət informasiya agentliyinin dərc etdiyi məqalədə prezidentlərin biznes strukturlarının nümayəndələri ilə görüşünə diqqət çəkilib. Qeyd olunub ki, görüşdə çıxış edən Prezident Şavkat Mirziyoyev iş adamlarının, şirkət və müəssisələrin qarşılıqlı əməkdaşlığının çox vacib olduğunu vurğulayıb. Deyib ki, bu əməkdaşlığı genişləndirmək üçün dövlət lazım olan bütün imkanları yaradacaq. Azərbaycan Prezidenti isə qeyd edib ki, hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin artırılmasına imkan verir və bu istiqamətdə biznes strukturları daha fəal olmalıdırlar.

Rusdilli "Podrobno.uz" agentliyinin məlumatında göstərilib ki, Prezident Şavkat Mirziyoyev və Azərbaycan Prezidenti İlham Əliyev iri tikinti layihələrinin əsasını qoyublar. İki ölkə arasında dəyəri 2 milyard dollar olan müqavilələr imzalanıb. İmzalanan müqavilələrə əsasən, Daşkənddə mehmanxana və yaşayış kompleksləri, Azərbaycanda isə tikiş və digər istehsal sahələri inşa olunacaq. Bu layihələr hər iki ölkədə yeni iş yerlərinin yaradılmasına və əhalinin sosial-iqtisadi inkişafına böyük təkan verəcək.

Bunlardan başqa, Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri "Qalampir", "Upl", "Uzreport", "Kun.uz", "Daryo" "Zamon", "Anhor", "Nova 24", "Yuz.uz" və başqa internet resursları tərəfindən də geniş formada işıqlandırılıb.

Özbəkistan mətbuatında Azərbaycan Prezidentinin səfəri barədə dərc olunan materialların təhlili onu deməyə əsas verir ki, rəsmi Daşkənd və özbək xalqı dövlətimizin başçısının səfərini yüksək qiymətləndirir, dövlətlər arasındakı münasibətlərin inkişafına və hər iki ölkənin prezidentinin dostluq münasibətlərinə böyük dəyər verirlər.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Türkiyə mediası: Azərbaycan-Özbəkistan münasibətləri müttəfiqlik səviyyəsinə yüksəlib



















Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri Türkiyə mediasının diqqət mərkəzində olub.




AZƏRTAC xəbər verir ki, qardaş ölkənin kütləvi informasiya vasitələri Azərbaycan və Özbəkistan liderlərinin çıxışlarının mətnlərinə istinad edərək, Prezident İlham Əliyevin Daşkəndə səfəri zamanı imzalanmış sənədlərin əhəmiyyətini vurğulayıblar. Türkiyə mediasının materiallarında Azərbaycanla Özbəkistan arasında müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi faktı qeyd edilib. Diqqətə çatdırılıb ki, bu münasibətlər iki türk dövləti arasında əlaqələrin gələcək inkişafı istiqamətini müəyyən edəcək.

Məqalələrin müəllifləri İlham Əliyevin Mərkəzi Asiya ölkəsinə səfərinin Bakı və Daşkəndin dövlətlərarası münasibətlərində yeni səhifə açdığını vurğulayıblar.

Materiallarda prezidentlərin yeni birgə layihələrin həyata keçirilməsinə, eləcə də mədəniyyət və nəqliyyat sahələrində əlaqələrin dərinləşdirilməsinə hazır olduqları barədə fikirləri sitat gətirilir.

Türkiyə Böyük Millət Məclisində "İYİ" Partiyasından olan deputat Kürşad Zorlu da Prezident İlham Əliyevin Özbəkistana səfərinin nəticələrini yüksək qiymətləndirib.

Millət vəkili Azərbaycan ilə Özbəkistan arasında müttəfiqlik haqqında müqaviləni bütün türk dünyası üçün mühüm mərhələ adlandırıb.

Onun sözlərinə görə, Bakı ilə Daşkənd arasında dialoq regionda diplomatiya sahəsinin çərçivəsini genişləndirir. "Ümid edirəm ki, ən yüksək səviyyədə Azərbaycan-Özbəkistan danışıqlarının nəticələri Türk Dövlətləri Təşkilatının bütün ölkələri üçün faydalı olacaq", - deyə Zorlu bildirib.

## Akkan SUVER: "Putinin Bakıya səfəri Azərbaycanın uğurlu balanslaşdırılmış xarici siyasətinə hörmət və etimadın əlamətidir"

"Fransa, ABŞ və Hindistanın Ermənistana silah tədarükü təkcə Azərbaycanı deyil, Rusiyanı da narahat edir. Söhbət yalnız Bakıya qarşı yeni təhdid mənbələrinin formalaşdırılmasından deyil, həm də Rusiya ilə qarşıdurmanın növbəti regional cəbhəsini yaratmaq cəhdlərindən gedir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Gözlem" qəzetində dərc olunmuş məqaləsində Türkiyənin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver ifadə edib.

RF Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfərinin yekunlarını şərh edən Suver ən yüksək səviyyədə Azərbaycan-Rusiya danışıqlarını təkcə iki qonşu ölkə üçün deyil, bütün türk dünyası üçün mühüm hadisə adlandırıb. "Rusiya və Azərbaycan Cənubi Qafqaz regionunda sabitlik üçün mühüm əhəmiyyət kəsb edən qarşılıqlı maraqlara hörmətlə yanaşırlar", - deyə o vurğulayıb.




O qeyd edib ki, Moskva 44 günlük Vətən müharibəsinin nəticələri fonunda regionun yeni geosiyasi reallıqlarını tanıyır. Bunun bariz göstəricisi Rusiya hərbi kontingentinin Azərbaycanın Qarabağ bölgəsindən vaxtından əvvəl çıxarılması olub.

Azərbaycanın siyasətinə gəlincə, Suver xatırladıb ki, Şuşa Bəyannaməsinin imzalanmasından 8 ay sonra, yəni 2022-ci ilin fevralında Bakı və Moskva Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzalayıblar. "Putinin Bakıya səfəri" sərlövhəli məqalənin müəllifi vurğulayıb: "Bu sənəd Qafqaz regionunda uzunmüddətli sabitliyin və sülhün təmin olunması üçün vacibdir. Regionda balanslaşdırılmış sabitlik Azərbaycanın konstruktiv xarici siyasətinin nəticəsidir".

"Mərmərə Qrupu" Vəqfinin rəhbəri Vladimir Putinin Rusiya Federasiyasının Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinə töhfə verməyə hazır olması barədə Bakıda səsləndirdiyi bəyanata diqqət çəkib. O hesab edir ki, beləliklə, Moskva sülh prosesində öz mövqeyini gücləndirmək istəyini vurğulayır.

Məqalənin müəllifi yazır: "Putinin Bakıya ikigünlük səfəri iki ölkə arasında etimad mühitini gücləndirdi, Bakının uğurlu və balanslaşdırılmış xarici siyasətinə hörmət və etimadın göstəricisi oldu. Ən əsası, sabitlik və ölkələrin dinc yanaşı yaşamağa hazır olmasıdır. Rusiya Prezidentinin Azərbaycana səfəri həm də türk dünyası ölkələri üçün qarşılıqlı fəaliyyət nümunəsidir".

## "Rusiya liderinin Azərbaycana səfərinin yekunları Avrasiya məkanında vəziyyətə təsir edəcək"

"Moskva Qərbin Rusiya Federasiyasından yan keçən nəqliyyat dəhlizləri yaratmaq planlarını məhv etməyə çalışır. Prezident Vladimir Putinin Azərbaycana dövlət səfəri çərçivəsində bu yaxınlarda Bakıda müzakirə edilən "Şimal-Cənub" dəhlizi ideyası məhz buna yönəlib".

AZƏRTAC xəbər verir ki, bu fikri türkiyəli analitik Mehmet Ali Güller Rusiya Prezidentinin Bakıya səfərinin əhəmiyyətini şərh edərkən bildirib.

Güller ən yüksək səviyyədə Azərbaycan-Rusiya danışıqlarının nəticələrinin təkcə regiondakı şəraitə deyil, həm də Avrasiya məkanındakı vəziyyətə təsir edəcəyinə əminliyini ifadə edib. Onun sözlərinə görə, bu gün Avrasiya regionunda nəqliyyat və logistika dəhlizlərinin "müharibəsi" gedir: ABŞ-nin siyasətindən fərqli olaraq, müxtəlif güclər, o cümlədən Rusiya və Çin Avrasiyada ticarət yolları ilə bağlı öz konsepsiyalarını hazırlayırlar.



Güller buna misal olaraq, Pekinin "Bir kəmər, bir yol" layihəsini, Türkiyə-İraq İnkişaf Yolu təşəbbüsünü və "Şimal-Cənub" dəhlizini göstərib.

Türkiyəli ekspert əminliklə qeyd edib: "İlk baxışda, bu ideyalar bəzi hallarda bir-birinə zidd görünə bilər, lakin strateji kontekstdə biri digərini tamamlamaq və son nəticədə bütün iştirakçı ölkələrin inkişafına töhfə vermək potensialına malikdir".

Analitik hesab edir ki, Avropa və Asiya ölkələri üçün ən sərfəli variant bütün ticarət yollarını Pekinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə birləşdirmək olardı.

## İqtisadçı-ekspert: "Azərbaycan Çin sənayesi üçün əsas bazarlardan birinə çevrilə bilər"

Azərbaycan ilə Çin arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığın kifayət qədər böyük potensialı var. Rəsmi Bakı Pekini təkcə dost ölkə kimi deyil, həm də texnoloji tərəqqinin mənbəyi kimi qəbul edir.



Eyni zamanda ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün daha geniş imkanlar var. Azərbaycan Çinə özünün milli prioritetlərindən biri olan rəqəmsal və "yaşıl keçid"də tərəfdaş kimi baxır. Bundan əlavə, hər iki ölkə birgə bərpaolunan enerji mənbələri və elektrik avtomobilləri üçün avadanlıq istehsal edə bilər. Bu amilləri nəzərə alan Prezident İlham Əliyev Çin ilə əməkdaşlığı Azərbaycanın prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

AZƏRTAC-ın mövzu ilə bağlı suallarını Çin və Avropa İttifaqı ölkələri üzrə iqtisadçı-ekspert Leonid Pasternak cavablandırıb.

*- Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlıq potensialını necə qiymətləndirirsiniz? Ölkələrimiz arasında investisiya mühiti necədir və Azərbaycana gələn Çin investisiyaları hansı səviyyədədir?*

- Azərbaycan və Çin arasında iqtisadi-siyasi və ticarət əlaqələri rəsmi Pekinin regionlarındakı əsas ölkələrlə əməkdaşlıq paradiqmasına tam uyğundur. Xüsusilə rəsmi Bakı diplomatik səviyyədə Cənubi Qafqazın, o cümlədən neft məhsulları və qaz ticarəti sahəsində lider mövqeyindən çıxış edir. Çin də öz növbəsində bir növ siyasi və iqtisadi intibah mərhələsindədir, tədricən ABŞ-lə bərabər şəraitdə rəqabət apara bilən super gücə çevrilir. 2023-cü ildə Azərbaycan və Çin arasında ticarət dövriyyəsi rekord həddə çatıb - onun həcmi 3 milyard dolları ötüb. Bu dinamika bir daha sübut edir ki, Pekin Qafqazın cənubunda əsaslı şəkildə möhkəmlənmək üçün Azərbaycan ilə hərtərəfli əməkdaşlığı inkişaf etdirmək niyyətindədir. Çox güman ki, rəsmi Pekin "Bir kəmər, bir yol", Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və "Bəşəriyyət üçün ortaq tale icması" geostrateji layihələrinin köməyi ilə Yaxın Şərq bazarlarına çıxmağı planlaşdırır.

Çin Azərbaycan iqtisadiyyatına fəal şəkildə sərmayə qoyur. Çinlilər idxala görə Rusiyadan sonra ikinci yerdədirlər. Azərbaycana məhsulların, demək olar ki, 20 faizi Çindən gəlir. Çin biznesi ölkədə irimiqyaslı layihələrə fəal şəkildə sərmayə qoyur, Azərbaycan şirkətləri və müəssisələri ilə iqtisadi-ticarət müqavilələri bağlanır. Bu mənada rəsmi Bakı üçün perspektivlər ən əlverişlidir.

*- Üçüncü ölkələrdə Azərbaycan-Çin birgə layihələrinin həyata keçirilməsi üçün hansı imkanlar mövcuddur?*

- Rəsmi Bakı və Pekin mövcud beynəlxalq təşkilatlar və ya iqtisadi strukturlar çərçivəsində işləyə bilər. Məsələn, Azərbaycan ŞƏT-in çox yaxın tərəfdaşıdır və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) mühüm iştirakçısıdır. Bakının strateji mövqeyi Qərb ölkələrinə (Aİ, İsrail, Böyük Britaniya) istehlak məhsullarının tədarükü ilə məşğul olan Çinin xarici iqtisadi sektoru ilə yaxınlaşmağa və müvafiq olaraq transsərhəddə logistik proseslərlə məşğul olmağa imkan verir. Azərbaycan sahibkarları yaxşı bilirlər ki, ŞƏT və Orta dəhliz, eləcə də "Bir kəmər, bir yol" layihəsinin ticarət təşəbbüslərinin köməyi ilə təkcə Şərqlə deyil, həm də Qərb tərəfdaşları ilə işgüzar əlaqələr qurmaq mümkündür. Əminəm ki, bu istiqamətdə işlər davam etdiriləcək.

*- İki ölkə "Bir kəmər, bir yol" və Orta dəhliz təşəbbüsləri çərçivəsində çoxlu sayda ikitərəfli və çoxtərəfli layihələr həyata keçirir. Çinin bu layihələrdən gözləntiləri nədən ibarətdir? "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsində Azərbaycanın rolunu necə qiymətləndirirsiniz?*

- Həqiqətən də, "Kəmər və Yol", eləcə də Orta dəhliz ÇXR-in əsas maliyyə-iqtisadi layihələridir. Artıq dediyim kimi, bu təşəbbüslər Azərbaycan biznesi üçün yeni üfüqlər açır və ən əsası, biznesin Avropa bazarına çatdırılmasına imkan verir. Hesab edirəm ki, burada qarşılıqlı fayda prinsipi işləyir. Çin regional səviyyədə iqtisadi və siyasi potensialını artırır, Azərbaycan daxili iqtisadi fəaliyyət və xarici ticarət üçün stimul alır.

*- Bu gün Çin beynəlxalq iqtisadi arenada güclü oyunçuya çevrilib. Bu necə oldu?*

- Bilirsiniz, mən son 6 ildə bu mövzu üzərində işləyirəm. Mənə çox maraqlıdır ki, ABŞ və onun müttəfiqləri Çinin Qərb ölkələrinə yeni alternativ kimi ortaya çıxmasını necə qəbul edirlər? Bu, 2012-ci ildə hakimiyyətə gəldikdən sonra strateji təşəbbüslər irəli sürən Si Cinpinin özü ilə bağlıdır. Çin aparıcı qeyri-Qərb ölkələri, o cümlədən Rusiya Federasiyası, Braziliya və digər dövlətlərlə ticarət və diplomatik əlaqələri gücləndirməyə çalışır.

Bundan əlavə, Çin Kommunist Partiyası investisiyaları kifayət qədər bacarıqla bölür, iqtisadiyyatı şaxələndirir, kiçik və orta biznesi stimullaşdırır, partiyadaxili nizam-intizamı inkişaf etdirir. Bütün bu amillər rəsmi Pekinə öz strateji potensialını gücləndirməyə çox kömək edir.

*- Çindən Avropaya ən qısa yol Azərbaycandan keçir. Azərbaycan üzərindən yükdaşımaları artırmaq üçün hər hansı perspektiviniz varmı?*

- Şübhəsiz var. Həm də təkcə Orta dəhliz vasitəsilə deyil. Azərbaycan tədricən Qərblə Şərq arasında mərkəzə çevrilir. Bu tendensiya növbəti illərdə də davam edəcək.

*- Çin bərpaolunan enerji mənbələri sahəsində dünya liderlərindən biridir. Azərbaycan da öz növbəsində öz inkişafını bu istiqamətə yönəldib. Bu müzakirə olunan sahədə əməkdaşlıq varmı?*

- Beynəlxalq münasibətlərdə ekoloji gündəm əsasdır. Çin bərpaolunan enerji mənbələrinə çox şüurlu bir keçid etdi. Azərbaycan hökumətinin bu istiqamətdə addım atmaq qərarı tamamilə başadüşüləndir. Bu səviyyədə Azərbaycan-Çin əməkdaşlığı artıq fəal inkişaf edir. Çin şirkətləri Azərbaycanda yerləşən müəssisələrdə bərpaolunan enerji mənbələri sahəsində avadanlıqların istehsalı ilə məşğul olurlar. Aydındır ki, bu sahə ikitərəfli əməkdaşlığı gücləndirmək üçün kifayət qədər perspektivlidir.

*- Pandemiyadan sonra ölkələrimiz arasında turizm mübadiləsi perspektivlərini necə qiymətləndirirsiniz? Azərbaycanlı turistlər Çindən sadələşdirilmiş viza rejiminə ümid edə bilərmi?*

- Viza rejiminin sadələşdirilməsi məsələsi daha çox diplomatik addımdır. Düşünürəm ki, Çin səlahiyyətliləri nəyin məqsədəuyğun olduğunu başa düşsələr, belə bir addım ata bilərlər. Azərbaycan vətəndaşları üçün Çinə vizasız girişin üstünlükləri göz qabağındadır: turistlər özləri ilə pul gətirir, çoxlu alış-veriş edir, əmanətlərini xərcləyir, ölkənin mədəniyyəti və tarixi ilə tanış olurlar. Ona görə də inanıram ki, biz tezliklə rəsmi Pekinin azərbaycanlı səyahətçilər üçün tələbləri sadələşdirdiyini görə bilərik.

*- Bu gün Çin elektromobilləri Avropa bazarına daxil olur və bu, bir çox Avropa ölkələrində qısqanclığa səbəb olur. Avropa tərəfindən qadağa qoyulsa, Çin başqa bazarları, o cümlədən Azərbaycanı seçməyi nəzərdə tutturmu?*

- Avropa İttifaqı ilə Çin arasındakı avtomobil "müharibəsi" uydurma deyil. Çindən gələn elektrik avtomobilləri sahəsində rüsumların və ticarət maneələrinin tətbiqi ilə bağlı qadağalar və məhdudiyyətlər Brüssel və Pekin arasında uzun müddətdir davam edən ticarət qarşıdurmasının bir hissəsidir. Siz haqlısınız ki, Avropa elektromobillərin idxalına kəskin qadağa qoyacağı təqdirdə Azərbaycan Çin sənayesi üçün əsas bazarlardan birinə çevrilə bilər. Rəsmi Pekinin yeni tərəfdaşlar axtaracağına şübhə yoxdur, ona görə də Aİ-nin radikal qərarı Bakıda müsbət qarşılana bilər.

## "BTQ-nin müstəmləkəçiliyin təsirlərini yaşayan xalqlara dəstəyi onların mübarizəsinin əhəmiyyətini göstərir"

Dünyada müstəmləkəçilik bitmiş kimi görünsə də, yeni adlar və formalarda hələ də davam etməkdədir.

Bakı Təşəbbüs Qrupunun XXI əsrdə müstəmləkəçiliyin təsirlərini hələ də yaşamağa davam edən xalqlara verdiyi dəstək onların azadlıq mübarizəsinin əhəmiyyətini ən gözəl şəkildə vurğulayır. Bu dəstək bir çox xalqlar üçün olduqca mühüm və dəyərlidir. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyə Siyasi, İqtisadi və Sosial Araşdırmalar Fondunun Afrika bölgəsi üzrə tədqiqatçısı Tunç Demirtaş bildirib.

Bakı Təşəbbüs Qrupunun (BTQ) mütəmadi olaraq bu istiqamətdə fəaliyyəti və keçirdiyi tədbirlərin əhəmiyyətini vurğulayan ekspert bunu qlobal ədalət, öz müqəddəratını təyinetmə və tarixi ədalətsizliklərin aradan qaldırılması baxımından beynəlxalq mübarizənin bir hissəsi kimi qiymətləndirib.



O bildirib ki, bu yanaşma həm də Avropanın iqtisadi və siyasi vasitələrlə keçmiş müstəmləkələri üzərində təsirlərini davam etdirdikləri neokolonializm problemlərinə diqqəti cəlb etmək baxımından çox əhəmiyyətlidir.

Bu gün Bakı Təşəbbüs Qrupu ilə Bonayre adasının QHT-ləri arasında əməkdaşlıq sazişinin imzalanmasının bu dəstəyin ən bariz nümunələrindən biri olduğunu qeyd edən ekspert deyib: "Niderlandın müstəmləkəçiliyi altında olan Bonayre adası bunun izlərini daşıyan bir tarixə malikdir. Bu ada ilk dəfə XVI əsrdə ispanlar tərəfindən tutulsa da, daha sonra, XVII əsrdə Niderlandın nəzarəti altına keçib. Burada köləlik və müstəmləkəçilik sona çatmış kimi görünür. Lakin istismar nəticəsində yaranan sosial və iqtisadi bərabərsizliklər bu günə qədər davam edir. Əslində, muxtariyyəti məhdud olan və iqtisadi cəhətdən Niderlanddan asılı olan Bonayredə ciddi bərabərsizlik hələ də mövcuddur. Neokolonializmlə mübarizə aparan Bonayre kimi cəmiyyətlərin əsas hədəfi gələcək nəsilləri müstəmləkəçiliyin mənfi təsirindən qorumaqdır. Bu baxımdan Bakı Təşəbbüs Qrupunun qlobal bərabərsizlik qarşısında irsini qorumağa çalışan bu insanların səslərinin eşidilməsinə verdiyi dəstək həm də onlar üçün bir motivasiya mənbəyidir".




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024



# Azərbaycan və UNFCCC arasında evsahibliyi sazişi imzalanıb



**COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil evsahibliyi sazişi imzalayıblar.**

Bu barədə COP29-un rəsmi "X" hesabında paylaşım edilib.

Bildirilib ki, bu saziş Azərbaycanın bütün tərəflərin ehtiyaclarını, prioritetlərini əks etdirən və bütün səslərin eşidiləcəyi əlçatan, əhatəli və şəffaf konfransın keçirilməsinə sadiqliyini vurğulayır.

# Qərbi Azərbaycan İcmasında "Yaşıl dünyada qadınların təhsili: dünəndən bu günə" mövzusunda konfrans keçirilib






**Avqustun 23-də Qərbi Azərbaycan İcmasında "Yaşıl dünyada qadınların təhsili: dünəndən bu günə" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir zamanı bu il İrəvan Qızlar Gimnaziyasının yaradılmasından 140 il ötdüyü xatırladılıb. Bildirilib ki, İrəvanda fəaliyyət göstərən məktəblərdən biri də Müqəddəs Ripsime qızlar məktəbi idi. 1850-ci il yanvarın 2-də Qafqazın canişini Mixail Vorontsovun xanımı Yelizaveta Vorontsovanın təşəbbüsü və İrəvanda fəaliyyət göstərən Müqəddəs Nina Xeyriyyə Cəmiyyətinin idarə heyətinin qərarı ilə Müqəddəs Ripsime qadın məktəbi təsis edilib. 1884-cü il iyulun 9-da bu məktəb üçsinifli qadın progimnaziyasına çevrilmişdi. 1898-ci il mayın 30-da isə progimnaziya hazırlıq sinfi də təşkil edilməklə səkkizsinifli qadın gimnaziyasına çevrildi. Ödənişli olan bu məktəbdə imkanlı azərbaycanlıların qızları da təhsil alırdılar. Təkcə 1916-1918-ci illərdə Müqəddəs Ripsime gimnaziyasını 36 azərbaycanlı qız bitirmişdi. İrəvan quberniyasının 1914-cü ilə dair "Yaddaş kitabçası"nda göstərilir ki, bu gimnaziyada şəriət dərslərini və Azərbaycan dilini Haşım bəy Nərimanbəyov tədris edib.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxış edərək, qadınların və uşaqların təhsilinin cəmiyyətin ən ümdə məsələlərindən olduğunu qeyd edib, ölkəmizdə daim təhsilə böyük önəm verildiyini, daha "yaşıl dünya" üçün təhsilin, məlumatlılığın rolunun misilsiz önəmi olduğunu vurğulayıb.

Tədbirdə "Qərbi Azərbaycanda milli maarifçilik mühitinin formalaşmasında azərbaycanlı ziyalı qadınların rolu" mövzusunda çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, QAİ İdarə Heyətinin üzvü professor Mahirə Hüseynova bildirib ki, 140 il öncə İrəvanda Qızlar Gimnaziyasının yaranması tarixi hadisə olmaqla yanaşı, həm də Azərbaycan qadın hərəkatının qürurverici səhifələrindən biri kimi nəzərdən keçirilir. Bundan başqa, bu gimnaziyanın nümayəndələrinin də payına deportasiyanın acı nəticələrini yaşamaq düşüb. Qərbi azərbaycanlıların ötən əsr boyunca yaşadığı 4 deportasiya soydaşlarımızın təhsilinə də zərərsiz ötüşməyib.

Daha sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, QAİ Ziyalılar Şurası sədrinin müavini Fərrux Rüstəmov "İrəvan Müəllimlər Seminariyasının pedaqoji fikir tariximizdə rolu", QAİ Ağsaqqallar Şurasının üzvü professor Həsən Bayramov "İrəvan Pedaqoji Məktəbinin xələfi: Xanlar Pedaqoji məktəbi", Azərbaycan Dövlət Pedaqoji Universitetinin dekanı, QAİ Qadınlar Şurasının üzvü dosent Könül Həsənova "İrəvan azərbaycanlı pedaqoji məktəbinin qadın məzunları", Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, QAİ Nəzarət-Təftiş Komissiyasının üzvü filologiya elmləri üzrə fəlsəfə doktoru Cəlal Allahverdiyev "Qərbi azərbaycanlı maarifçi qadınların Cənubi Qafqazın ədəbi mədəni mühitinin inkişafına töhfələri" mövzularında çıxış ediblər.

Tədbirdə həmçinin "Müstəqil Azərbaycanda təhsil ümummilli məsələ kimi", "Yaşıl dünya: Ətraf mühitin qorunmasında qadınların rolu", "Təhsilli qadın təhsilli gələcəkdir" mövzuları ətrafında çıxışlar edilib, fikir mübadilələri aparılıb.

◆ Araşdırma

# Üzünü Şərqə tutan Qərb üçün Azərbaycandan yanan "yaşıl işıq"

**İki il öncə, Rumıniyanın paytaxtı Buxarestdə 17 dekabr 2022-ci ildə bərpaolunan enerji mənbələrinin inkişafını dəstəkləyən, regional enerji təhlükəsizliyini və dayanıqlığını, Avropanın enerji təhlükəsizliyini artıracaq, həmçinin karbon emissiyalarını azaltmaq məqsədini güdən addım atıldı - "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı. Dördtərəfli hökumətlərarası saziş Rumıniya ilə Azərbaycan arasında bərpaolunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsini nəzərdə tuturdu. Bu müqaviləyə əsasən, "Qara dəniz yaşıl kabel" layihəsi 1000 meqavat gücündə 1195 kilometr (1,1 min kilometr sualtı və 95 kilometr yerüstü) uzunluğunda sualtı elektrik kabelinin tikintisini hədəfləyir. Həmçinin bu anlaşma Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq.**

## "Yaşıl enerji" investisiyasında əməkdaşlıq: "Qara dəniz yaşıl kabel" layihəsinə dəstək verən təşkilatlar

Layihə öz aktuallığını getdikcə artırmaqdadır. Belə ki, layihəyə beynəlxalq maliyyə dəstəyinin gücləndirilməsi də məhz bundan qaynaqlanır. Dünya Bankının İcraçı Direktorlar Şurası elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı (ESPIRE) vasitəsilə enerji təhlükəsizliyinin gücləndirilməsi üzrə proqramın birinci mərhələsinin maliyyələşdirilməsi üçün 35 milyon dollar məbləğində krediti təsdiqləyib. ESPIRE proqramının birinci mərhələsi xüsusilə vacibdir, çünki onun məqsədi layihə üçün uyğun dəhlizin müəyyən edilməsinə kömək etmək və Qara dənizin dibinin tədqiqatları, o cümlədən geofiziki və geotexniki tədqiqatlar kimi gələcək hazırlıq fəaliyyətlərini dəstəkləməkdir.

Avropa İttifaqı isə Şərq Tərəfdaşlığı İnvestisiya Planı vasitəsilə layihəyə 2,3 milyard avro ayırmaq niyyətindədir. Eyni zamanda Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) və Asiya İnkişaf Bankı da bu layihəyə dəstək göstərmək üçün müzakirələr aparır. Saziş həmçinin Avropa İttifaqının enerji keçidi strategiyalarına uyğun olaraq həyata keçirilir, bu da regionun enerji təhlükəsizliyini və davamlı inkişafını gücləndirməyə, regional və beynəlxalq enerji bazarlarında inteqrasiyanı artıraraq, uzunmüddətli iqtisadi və ekoloji faydalar təmin etməyə kömək edəcək. "Qara dəniz yaşıl kabel" layihəsi həmçinin Avropa İttifaqına gələcəkdə elektrik enerjisi ixracında Azərbaycanı əsas tərəfdaş kimi müəyyən edir. Avropa İttifaqında 2030-cu ilə qədər 16 faizdən çox, 2040-cı ilə qədər təxminən 80 faizə qədər elektrik enerjisi tələbatının artması proqnozlaşdırılır ki, bu da gələcək infrastruktur layihələri, həmçinin Azərbaycan üçün vacibdir.

Bəzi müşahidəçilər iddia edirlər ki, kabelin tikintisi hazırda təxmin edilən 2,3 milyard avrodan baha başa gələcək. Qeyd etmək lazımdır ki, indiyə qədər bu uzunluqda heç bir sualtı kabel layihəsi həyata keçirilməyib. Mövcud ən uzun kabel təxminən eyni tutuma malik olan "North Sea Link" - uzunluğu 750 kilometr olan kabel Norveç və Böyük Britaniyanı birləşdirir (ikinci ən uzun kabel Norveçdən Niderlanda uzanır). 2021-ci ildə qrafik üzrə tamamlanan və daha qısa olan "North Sea Link" ilkin proqnozlaşdırılandan daha çox, cəmi 2 milyard avroya başa gəlib. Beynəlxalq maliyyə institutlarının nümayəndələrinin fikrincə, potensial töhfələr barədə ilkin müzakirələr aparılıb, lakin tələb olunan maliyyə səviyyəsini səfərbər etmək üçün mühüm işlər görülməlidir.

## Avropanın enerji təchizatında Azərbaycanın rolunu gücləndirən yeni imkan

Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3000 meqavat, günəş enerjisi üzrə 23 000 meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Əlbəttə, bu göstəricilər onu deməyə əsas verir ki, xarici strateji investorlar Azərbaycanın enerji bazarı üçün maraqlı olmalıdır. Artıq bu istiqamətlərdə də müəyyən addımlar atılıb. Bu addımlardan biri olan Qara dənizin dibi ilə çəkiləcək elektrik enerjisi kabeli Azərbaycanın "yaşıl enerji"sini Avropaya nəql edəcək növbəti əsas layihədir. Bu saziş tək Azərbaycan üçün yox, digər Avropa dövlətləri üçün də əhəmiyyətlidir. Hazırda dünyada yaşanan enerji böhranının qarşısını almaq istiqamətində atılan növbəti vacib addımlardan biri də, əlbəttə, bu sazişdir. Bu kabelin Xəzər regionundan Avropa İttifaqına 4 qiqavata qədər "yaşıl enerji"nin ötürülməsini asanlaşdıracağı gözlənilir. Eyni zamanda layihə ilə yanaşı, Xəzər regionundan Avropa İttifaqına "yaşıl hidrogen"in çatdırılması üçün sistemin yaradılması üzrə də səylər davam etdirilir.

Azərbaycan bu layihənin uğurla həyata keçirilməsi üçün Dünya Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edir. Qeyd etmək lazımdır ki, layihə böyük investisiyaları və müasir texnologiyaları tələb edir. Bu, Azərbaycanın enerji sektorunda texnoloji inkişafı təşviq edəcək və ölkəyə beynəlxalq enerji bazarlarında daha geniş iştirak imkanı yaradacaq. Həmçinin layihə Azərbaycanın enerji ixracını artıraraq ölkənin iqtisadiyyatına müsbət təsir göstərəcək. Eyni zamanda Avropanın enerji bazarına inteqrasiyası, Azərbaycanın beynəlxalq ticarət əlaqələrini gücləndirəcək. Avropanın "yaşıl enerji" hədəflərinə uyğun olaraq, bu layihə iqlim dəyişikliyi ilə mübarizəni gücləndirərək ekoloji cəhətdən təmiz enerji mənbələrinin istifadəsini artıracaq.




## Gürcüstanda yeganə ən böyük infrastruktur layihəsi

Şərqi Avropa və Qərbi Asiyanın kəsişməsində yerləşən Gürcüstan danılmaz olaraq strateji mövqeyə və davamlı enerji inkişafı üçün mərkəzə çevrilmək potensialına malikdir. Gürcüstanın külək enerjisi potensialı 1500 meqavat, ümumi günəş enerjisi potensialı 108 meqavat, geotermal su ehtiyatı ildə 200-250 mcm qiymətləndirilir. Geotermal yataqların 80 faizdən çoxu Qərbi Gürcüstanda və Zuqdidi-Tsaişi geotermal yatağında, həmçinin Abxaziyadadır. Gürcüstanda istehsal olunan daxili enerjinin əksəriyyəti hidro və bioenerji mənbələrindən əldə edilir.

Bu potensial Avropa İttifaqı və Gürcüstan arasında enerji və ətraf mühit sahəsində əməkdaşlıq vasitəsilə daha da zənginləşdirilə və gücləndirilə bilər. Məsələn, Avropa İttifaqı Gürcüstana kritik infrastrukturu və əlaqəni inkişaf etdirmək və bərpaolunan enerjinin istehsalını təşviq etmək üçün fəal şəkildə kömək edir. Enguri və Vardnili suelektrik stansiyalarının bərpası kimi infrastruktur layihələri ölkədə elektrik ötürücü xətlərin gücləndirilməsi və "yaşıl enerji"nin təşviqi üçün çox əhəmiyyətli olub. Buna görə də birgə fəaliyyət və qarşılıqlı əməkdaşlıqla Gürcüstan effektiv enerji infrastrukturu yarada və Avropa İttifaqı ölkələrinə təmiz və "yaşıl enerji"nin elektrik enerjisi ixracatçısı ola bilər.

Gürcüstanın Cənubi Qafqaz regionunda bərpaolunan enerji istehsalı mərkəzinə çevrilməsinə kömək edə biləcək mühüm layihələrdən biri "Qara dəniz yaşıl kabel" təşəbbüsüdür. Layihə hazırda Gürcüstan hökuməti tərəfindən irəli sürülən yeganə ən böyük infrastruktur layihəsidir. Kabel Gürcüstanı Rumıniya ilə birləşdirəcək, Anakliyadan Konstansaya qədər 1195 kilometr uzanacaq ki, bunun da 1100 kilometri su altında olacaq. Gürcüstanın planlaşdırılan Qara dəniz sualtı kabeli vasitəsilə birbaşa Avropa enerji sistemlərinə qoşulmaq imkanı var. Onun həyata keçirilməsi Gürcüstan üçün əhəmiyyətli iqtisadi artıma və inkişafa töhfə verəcək. Bu kabel həm də Gürcüstanı Şərqi Balkan regionu ilə birləşdirəcək. Bundan əlavə, Qara dəniz elektrik kabeli Moldova və Ukraynaya elektrik enerjisi ötürə bilər ki, bu da son nəticədə ölkələrin iqtisadiyyatının yenidən qurulmasına kömək edəcək. Qeyd edək ki, Dünya Bankı Qara dənizin dibinin ətraflı öyrənilməsi üçün Gürcüstana əlavə 75 milyon dollar ayıracağına söz verib. Eyni zamanda layihə çərçivəsində Qafqaz və Avropa İttifaqı arasında internet bağlantısını gücləndirmək üçün fiber-optik kabel də çəkiləcək.

Gürcüstan Qara və Xəzər dənizləri arasında uzanan bir ölkə kimi bərpaolunan enerji infrastrukturunu inkişaf etdirmək üçün geniş imkanlara malikdir. Layihələr və iddialı təşəbbüslər uğurla həyata keçirilərsə, Gürcüstan enerji sahəsində Avropa İttifaqı üçün əsas strateji tərəfdaşlardan birinə çevrilə bilər. Gürcüstan və Avropa İttifaqı arasında iqtisadi əlaqələrin gücləndirilməsi və genişləndirilməsi ilə yanaşı, yeni infrastruktur və enerji şəbəkəsi layihələri, şübhəsiz ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyinə töhfə verəcək və Avropa İttifaqının məqsədlərinin təməl daşlarından biri olan ekoloji davamlılığı təmin edəcək. Tərəfdaşların enerji potensialı Rusiyan-Ukrayna münaqişəsi kontekstində xüsusilə vacibdir. Beləliklə, enerji təhlükəsizliyi, qiymət sabitliyi və bərpaolunan enerji Avropa İttifaqının gündəmində əsas prioritetlərə çevrilir.

## Rumıniya regional enerji təhlükəsizliyi təminatçısı kimi rolunu artırmaq niyyətindədir

Rumıniyanın enerji sektoru onun inkişaf edən iqtisadiyyatı və təhlükəsizlik siyasətinin açarıdır. Kömür, təbii qaz, nüvə, su-elektrik və bərpaolunan enerji də daxil olmaqla ölkə müxtəlif enerji mənbələrinə malikdir. Elektrik enerjisi istehsalının ən böyük payı tarixən kömür və təbii qazın, ardınca isə hidroelektrik və nüvə enerjisinin payına düşür. Rumıniyada aparılan tədqiqatlar "yaşıl enerji"nin 65 faiz, hidroenerjinin 36,1 faiz, külək enerjisinin 16,5 faiz, günəş enerjisinin 8,3 faiz istehsalı potensialını ortaya qoyur.

Bu ilin iyun ayına olan məlumata görə, Rumıniyada enerji istehsal gücünün üçdəbirindən çoxu hidroenergetikaya əsaslanır. Rumıniyanın enerji istehsalı gücündə nüvə enerjisi isə 7,71 faiz təşkil edir. Biokütlənin enerji potensialı baxımından Rumıniya ərazisi səkkiz bölgəyə bölünür. Bu da onu deməyə əsas verir ki, biokütlə elektrik enerjisi istehsalı kapitallaşdırılmalı olan bir potensialdır. Ölkə Avropa fondlarının köməyi ilə bərpaolunan enerji istehsal gücünü və enerji kompleksində "yaşıl enerji"nin miqyasını artırmağı hədəfləyir. Ölkənin Avropa səviyyəsində 2030-cu il üçün hədəfi var ki, təkcə elektrik enerjisi deyil, ümumi enerji istehlakının 42 faizi bərpaolunan mənbələr hesabına ödəniləcək.

Son illərdə ölkədə külək və günəş kimi bərpaolunan enerji mənbələrinin payının artırılması istiqamətində dəyişiklik baş verib. Rumıniya ümumi enerji kompleksində payını artırmaq məqsədilə bərpaolunan enerji üçün iddialı hədəflər qoyub. Bu hədəflərdən biri olan "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi Rumıniyanın Qara dəniz sahilində yerləşən Dobrogea bölgəsində enerji sisteminin yenidən balanslaşdırılması üçün son dərəcə vacibdir. Həmçinin Şərqi Avropada istehsal edilən enerjinin böyük bir hissəsi qalıq yanacaqlardan əldə olunur və sonda istifadədən çıxarılmalı olacaq. Buna görə də bərpaolunan mənbələrdən əldə edilən 1000 meqavat gücündə elektrik enerjisinin axını bölgəyə və eyni zamanda bütün Avropa İttifaqına bu sahədə hədəflərə daha asan çatmağa kömək edəcək. Hətta layihənin 3000 meqavata qədər genişləndirilməsi də planlaşdırılır. Rumıniyanın "Transelectrica" elektrik şəbəkəsi operatorunun səhmdarları şirkətin layihədə iştirakını təsdiqləyiblər. Kabel Qara dənizdə Rumıniyanın əsas limanı olan Konstansaya çatacaq və elektrik enerjisinin Xəzər hövzəsindən digər hissələrə ötürülməsini asanlaşdırmaq üçün Konstansadan elektrik enerjisini Macarıstan sərhədinə çatdıracaq.

Rumıniya qonşu ölkələrə, o cümlədən Macarıstana, Bolqarıstana, Serbiyaya, Ukraynaya və Moldovaya elektrik enerjisi ixrac edir. Qara dəniz elektrik kabeli Rumıniyanın Moldova və Qərbi Balkanlardakı qonşularına və Ukraynaya əlavə elektrik enerjisi gətirməyə kömək edə bilər. Bu da təbii ki, bu ölkələrin, əsas da Ukraynanın enerji sisteminin və iqtisadiyyatlarının yenidən qurulmasına kömək edəcək. Eyni zamanda bu saziş Azərbaycanın Rumıniyanın strateji tərəfdaşı kimi aktuallığını artırır.

## Macarıstanın həll yolunun tərkib hissəsi

Macarıstanın bərpaolunan enerji bazarında elektrik enerjisi istehsalının 2024-cü ildə 10,78 milyard kilovat-saat təşkil edəcəyi proqnozlaşdırılır, illik isə 7,39 faiz artım tempi gözlənilir. Macarıstanın ümumi enerji təchizatında günəş enerjisi 13,1 faiz, külək enerjisi 1,7 faiz, nüvə enerjisi 44,3 faiz, bioenerji 5,6 faiz təşkil edir.

Şərqi və Mərkəzi Avropa ölkələri hazırda enerji təhlükəsizliyi nöqteyi-nəzərdən çətin günlər yaşayırlar. Hökumətlər təbii qaz, neft və elektrik enerjisi idxalı mənbələrini diversifikasiya etməyə çalışırlar. Ölkə rəsmiləri belə uzaq məsafədən enerjinin, xüsusilə də "yaşıl texnologiya"ya əsaslanan bu cür enerjinin çatdırılması ideyasını olduqca unikal hesab edirlər. Bu asan olmasa da, enerji tədarükü işində bir növ inqilab olacaq. Azərbaycandan ixrac edilən həm təbii qaz, həm də elektrik enerjisi Macarıstandan keçəcək. Həmçinin nəqliyyat marşrutu üzərində yerləşdiyi üçün bu ölkənin rolu artacaq. Budapeşt Azərbaycandan idxal olunacaq elektrik enerjisinin bir hissəsinin ölkə daxilində istifadə edilməsini, bir hissəsinin isə qonşu dövlətlərə ixracını planlaşdırır. Layihənin Macarıstanın həll yolunun tərkib hissəsi olacağını vurğulayan ölkə rəsmiləri bildirib ki, infrastruktur layihələrinin inkişafına böyük ehtiyac olacaq. Burada nəhəng vəsaitlərdən söhbət gedir, böyük layihələr həyata keçirilməlidir. Artıq Bolqarıstanın, Rumıniyanın, Slovakiyanın enerji şirkətləri ilə danışıqlara və əməkdaşlığa başlanıb ki, buraya lazımi vəsait cəlb edilsin.

Ölkə üçün layihənin məqsədi ekoloji cəhətdən təmiz həlləri prioritetləşdirməklə Macarıstanın elektrik enerjisi təchizatının təhlükəsizliyini təmin etməkdir. Ölkə rəsmiləri bildirib ki, çətin günlərində bu ideya ölkələrin iqtisadiyyatları üçün təhlükəsizlik deməkdir.

## Şaxələnən regional enerji infrastrukturunda Bolqarıstan

Bolqarıstan iqtisadiyyatının əsas hərəkətvericiləri olan enerji və iqlim dəyişikliyi sektorları hazırda geosiyasi, iqtisadi və tənzimləyici təzyiqlərdən güclü şəkildə təsirlənir. Ancaq Bolqarıstan Avropa İttifaqında geniş fərqlə daha çox enerji tutumlu iqtisadiyyatı olan ölkə olaraq qalır. Bolqarıstan Avropa İttifaqının orta göstəricisindən 3,5 dəfə çox enerji resursları istehlak edir. Buna baxmayaraq, Bolqarıstan kömür və nüvə enerjisindən çox asılıdır. Hökumət onu tədricən bərpaolunan enerji ilə əvəz etmək üçün addımlar atır. Bərpaolunan enerji payında hidroenerji üstünlük təşkil edir ki, ondan da sonra günəş, külək və bioyanacaq gəlir. 2021-ci ildə ölkənin bərpaolunan enerji potensialından istifadəsi 17 faiz təşkil edirdisə, 2030-cu ilə qədər bu göstəricinin 27 faizə çatdırılması hədəflənib.

Hökumətin "yaşıl enerji"nin inkişafı istiqamətində atdığı mühüm addımlardan biri də məhz "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nə qatılma təşəbbüsüdür. Bolqarıstanın "Qara dəniz sualtı kabel" layihəsinə qoşulması ilə bağlı qərar 2023-cü ilin iyun ayında qəbul edilib. Ölkənin bu layihəyə qoşulmasına mühüm amil kimi Bolqarıstanın Cənubi Qafqaz ölkələri, xüsusilə də Azərbaycan ilə olan dostluq əlaqələri göstərilib. Bolqarıstanın "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"ndə iştirakı onun yaxşı inkişaf etmiş elektrik şəbəkəsini, qonşu ölkələrlə yüksək əlaqələrini və güclü elektrik enerjisi bazarından istifadə etməklə layihədə önəmini əhəmiyyətli dərəcədə artıracaq. Ölkənin bərpaolunan layihələrə marağı və "yaşıl enerji"yə artan tələbat sualtı kabel layihəsinin məqsədlərini daha da qüvvətləndirir. Ölkə rəsmiləri vurğulayıb ki, dənizaltı kabel iqlim məqsədlərinə nail olmaq və inkişafı həqiqətən davamlı etmək üçün çoxsaylı imkanlardan yalnız biridir.

Bolqarıstan tərəfi layihədə digər iştirakçı ölkələr - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın payına bərabər olan 20 faiz paya sahib olacaq.

## Layihənin genişləndirilmə planları

Məlum olduğu kimi, Xəzərin şərq sahili də zəngin bərpaolunan enerji resurslarına malikdir. Praktiki cəhətdən Qara dəniz sualtı kabelinin Mərkəzi Asiyaya qoşulması imkanı da müzakirə edilir. Layihə Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinədək uzansa da, daha sonra Xəzər dənizinə qədər genişləndi və indi daha da, Xəzərin şərq sahilinə - Qazaxıstana qədər genişləndirilməsi planlaşdırılır.

Ancaq Qazaxıstanın elektrik enerjisi ixracatçısı olması ilə bağlı bir sıra suallar yaranıb. Çünki ölkənin özü elektrik enerjisi qıtlığı yaşayır. Bununla belə Qazaxıstan Energetika Nazirliyi şübhələri aradan qaldıraraq bildirib ki, ölkədə mövcud elektrik enerjisi çatışmazlığına baxmayaraq, qərb regionlarında bərpaolunan enerji mənbələrinin, o cümlədən külək və günəş enerjisi istehsalının inkişafı üçün böyük potensial var. Nüvə energetikasının inkişaf etdirilməsi imkanları da nəzərdən keçirilir. Qazax xalqı AES-ə "hə" desə, bir çox problemin aradan qalxacağı güman edilir.

Özbəkistan həmçinin ölkənin enerji təhlükəsizliyini təmin etmək, eləcə də elektrik enerjisini Avropaya ixrac etmək üçün 2030-cu ilə qədər enerji istehsalını iki dəfə artırmağı planlaşdırır. 2025-ci ilə qədər ölkənin enerji sisteminin gücünün 25,6 qiqavata çatacağı gözlənilir. Əhalinin nisbətən aşağı sıxlığı, geniş ərazi və il ərzində günəşli günlərin çox olması bu ölkələri "yaşıl enerji"nin inkişafı üçün unikal platformaya çevirir.

Bir qayda olaraq, Avropa ölkələri ərazi baxımından kiçikdir və əhalinin sıxlığı yüksəkdir. Eyni zamanda günəş və küləkelektrik stansiyaları geniş yer tələb edir. Böyük günəş-elektrik stansiyası üçün yer çatışmazlığını bəzi yeniliklərlə kompensasiya etmək cəhdləri isə daha da baha başa gələcək. Ancaq Avropadan fərqli olaraq, Mərkəzi Asiya və Azərbaycanda, artıq qeyd etdiyimiz kimi, "yaşıl enerji"nin inkişafı üçün hər cür şərait var. Onu da nəzərə almaq lazımdır ki, Qazaxıstan və Özbəkistan bu ölkələrin zəngin olduğu günəş panelləri, külək turbinləri və akkumulyatorların istehsalında istifadə olunan mühüm xammalın istehsalında böyük rol oynaya bilər.

Bundan başqa, Rumıniyanın ardınca çox böyük ehtimalla yaxın zamanlarda Moldova da bu təcrübədən yararlanmaq istəyini bildirəcək. Ölkə rəsmiləri vurğulayıblar ki, hazırda Moldova coğrafi məhdudiyyətlərə görə bu layihəyə birbaşa bağlı olmasa da, Rumıniya bazarı vasitəsilə dolayı yolla faydalanacaq.

Səudiyyə Ərəbistanı da layihədə iştirak etmək arzusundadır. Ölkə rəsmiləri qeyd edib ki, "Acwa Power" şirkəti Azərbaycanda 240 meqavatlıq enerji layihəsi həyata keçirir, amma bu, kifayət deyil. Ölkə daha böyük enerji layihələri həyata keçirmək və Azərbaycanın Avropaya elektrik enerjisi ixracı ilə bağlı imzaladığı müqaviləyə qoşulmaq niyyətindədir.

Layihəyə potensial qoşulma imkanı olan ölkələr əsasən Qara dəniz regionu və digər Şərqi Avropa ölkələri olsa da, siyahıda olan ölkələrin sayı layihənin inkişaf mərhələsinə, regional enerji siyasətlərinə və iqtisadi maraqlara bağlı olaraq dəyişir.

Artıq Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya istiqamət götürəcək bu layihənin texniki-iqtisadi əsaslandırılması sonuncu mərhələyə qədəm qoyub. Layihənin texniki-iqtisadi əsaslandırılmasını (TİƏ) İtaliyanın "CESİ" şirkəti həyata keçirir. Texniki-iqtisadi əsaslandırmanın 2024-cü ilin sonuna qədər hazır olacağı gözlənilir. Araşdırmalar çərçivəsində elektrik kabelinin optimal xarakteristikası müəyyən edilib, tikinti xərcləri hesablanıb və layihənin iqtisadi təhlili aparılıb. Həmçinin kabelin quru və dənizdəki hissələrinin ilkin marşrutu müəyyən edilib, layihənin icra planı və satınalma strategiyası hazırlanıb. Dəniz dibinin geotexniki, geofiziki, ekoloji və arxeoloji tədqiqatlarının aparılması üçün tələb olunan işlərin təsviri və tenderlə bağlı texniki tapşırıq da hazırlanıb.

2024-cü ilin may ayında Azərbaycan tərəfindən "Azərenerji" və layihədə iştirak edən digər ölkələrin tərəfdaş operatorları olan "Transelectrica" (Rumıniya), "Georgian State Electrosystem" (Gürcüstan) və MVM (Macarıstan) arasında layihə üzrə şirkətin yaradılması haqqında memorandum imzalanıb. Yeni birgə müəssisənin baş ofisi Buxarestdə yerləşəcək.

2025-2026-cı illərdə isə ətraf mühit və sosial təsirlə bağlı tədqiqatlar, eləcə də layihənin dəniz dibinə təsirinin qiymətləndirilməsi həyata keçiriləcək. Çəkilməsi 3-4 ilə mümkün olacaq kabelin istismara verilməsi 2029-cu ilin sonunda baş tutacaq.

Beləliklə, Azərbaycan növbəti dəfə Qərb üçün enerji sektorunda "mayak" rolunu oynayacaq, bu dəfə mayakın işığının rəngi yaşıldır.

*AZƏRTAC*




# COP29 həm də sülhə çağırış tədbiri olacaq

## Müharibələr kainata iqlim dəyişmələrindən az ziyan vurmur

Kim deyə bilər ki, müharibə xoşbəxtlik gətirir? Kim təsdiqləyər ki, savaş anaların gözyaşı, oğulların torpağa qarışan qanı, əbədi ayrılıq, həsrət, gəlinləri ağlar qoyan kabus deyil?! Müharibə ambisiyaların toqquşduğu savaş meydanı və bu meydanda meydan sulayan fəlakətdir, faciədir.



Amma müharibələr və münaqişələr təkcə insan fəlakəti deyil, həm də biomüxtəlifliyi məhv edilən, zərərli emissiyaların çoxalması, torpağın yanıb külə dönməsidir. Və bütün bunlar iqlim dəyişmələrinin bütövlükdə bəşəriyyəti məhvə aparmasına meydan açır, geri dönüşü olmayan faciələri sürətləndirir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bu təhlükələrin müzakirə ediləcəyi, konkret həll yollarının tapılacağı qlobal konfrans kimi böyük bir missiyanı boynuna götürüb. Dünya birliyi COP29-un Azərbaycanda keçirilməsi barədə qərara səs verəndə, təbii ki, müharibədən təzə çıxmış bir ölkənin bu məsələdə daha fəal olacağını nəzərə almışdı. Çünki Azərbaycan sülh, təhlükəsizlik və iqlim dəyişmələrini təkcə xarici qonaqların deyil, həm də vətəndaş cəmiyyəti nümayəndələrinin və ekspertlərin iştirakı ilə geniş müzakirə etmək üçün imkanlar yaratmağa sadiqdir, hər cür təklif və təşəbbüslərə açıqdır. COP29-a hazırlıqlar da onu göstərir ki, qəbul olunacaq qərarların kökündə cəmiyyətin sağlam qalmasının, bəşəriyyətin hər cür müharibə təhlükəsindən, münaqişə ocaqlarından xilas olmasının həll yolları dayanacaq.

COP29-un baş katibi Elnur Soltanov Türkiyənin "Anadolu" agentliyinə verdiyi müsahibəsində demişdir: "Azərbaycan da bu məsələ ilə bağlı 14 təklif irəli sürüb. Bu təklifləri həyata keçirmək üçün yekdilliklə bəzi ölkələr və ya şirkətlərlə müzakirə edəcəyik. Azərbaycanın təklifi ilə müzakirə ediləcək məsələlər arasında iqlim maliyyəsi, enerji, kənd təsərrüfatı, su ehtiyatları, turizm, rəqəmsallaşma, "yaşıl şəhər"lər və insan resursları da var. Olimpiadada olduğu kimi, bütün dünyanı atəşkəsə çağıracağıq". Baş katib onu da bildirib ki, Bakı təxminən 80 min qonağı qəbul edəcək. Müxtəlif günlərdə Azərbaycana müxtəlif sayda qonaqlar gəlib gedəcək: "Bizim bir gündə təxminən 40 min qonağı qəbul etmək üçün infrastrukturumuz var. Dünyanın bütün dövlət başçılarına dəvətlər göndərilib. 50-dən çox dövlət və hökumət başçısı iştirak edəcəyini təsdiqləyib. Bu sayın artacağını gözləyirik".

Qeyd edək ki, COP29 Azərbaycanın bu günə qədər evsahibliyi etdiyi heç bir beynəlxalq tədbirlə müqayisəyə gəlməyəcək konfrans olacaq. Ölkəmiz iqlim danışıqlarına rəhbərlik edəcək və bu məsələ ilə bağlı fəaliyyətini sərgiləyəcək.Təbii ki, Azərbaycan xalqına məxsus qonaqpərliyin nümayişi də yaddan çıxmayacaq. Əminik ki, tədbirdən öz ölkəsinə dönənlər uzun müddət Azərbaycan yeməklərini, gördükləri milli mədəniyyəti, şahid olduqları adət-ənənələri unutmayacaqlar. Bu təəssüratların əldə edilməsi üçün xeyli zamandı dövlət qurumları, şirkətlər və qeyri-hökumət təşkilatları birlikdə hazırlıqlara başlayıblar. Ona görə də Elnur Soltanovun təbirincə desək, COP29-un uğursuz olma ehtimalı yoxdur. Sadəcə, bilmək lazımdır ki, insanlıq tamamən məhv olmasın deyə zaman bəşəriyyətin başı üzərində dolaşan müharibə adlı kabusun iqlim dəyişmələrinə vurduğu təsirlərdən can qurtarmağı tələb edir.

Bu gün dünyanın bir sıra bölgələrində münaqişələr, müharibələr gedir. Həmin qanlı toqquşmalar yaşadığımız dünyanı bir an belə sakit buraxmır. Ona görə də dinc yaşamaq, azad, suveren ölkənin vətəndaşı olmaq üçün qarşıdurmalara son qoyulmalı, müharibələr tarixin zibilliyndə dəfn olunmalıdr. Sülh əldə etmək üçün bütün imkanlar səfərbər edilməlidir. İqlim təsirlərinin, ətraf mühitin dəyişməsinin və ya ekoloji problemlərin milli təhlükəsizlik və sülhlə əlaqəli olduğunu inkar etmək olmaz. İqlim dəyişmələri milli və qlobal təhlükəsizliyin bir hissəsidir. Bu mənada Azərbaycanın evsahibliyi edəcəyi COP29 tədbiri yaxşı fürsət ola bilər. Onu əldən vermək tarixin daha bir səhvi olar.

Əslində, COP29 bununla yeni Amerika kəşf etməyəcək. Tarixə nəzər salsaq görərik ki, bütün irimiqyaslı qlobal tədbirlər həmişə barışıq fəlsəfəsinə əsaslanıb. Məsələn, beynəlxalq idman oyunları ilə müharibə ideyaları bir-birinə tamamən zidd, əks qütblərdə dayanırlar. Müxtəlif idman yarışları və olimpiadalar zamanı münaqişə şəraitində olan ölkələrin nümayəndələri belə, yarışa çıxaraq qüvvələrini sınayırlar. Qalib mütləq qaydada rəqibinin əlini sıxır. Bu, təbii ki, sağlam mübarizədir və bütün dünyada barışıq yaratmağa xidmət edir. Bəllidir ki, hər zaman yay və qış olimpiadalarında hərbi əməliyyatlar dayandırılıb, müvəqqəti də olsa müharibə səngiyib. Bu baxımdan COP29 da idmandan daha vacib tədbir kimi istisna olmamalıdır.

Dünyada sülhü Azərbaycan qədər təbliğ edən ölkələrin sayı bu gün təəssüf ki, azdır. Ölkəmiz müstəqilliyinin ilk illərindən başlayaraq qonşu dövlətin işğalçılıq siyasəti ilə üzləşib. Təxminən 30 il davam edən işğal nəticəsində Azərbaycan böyük məhrumiyyətlərlə üzləşib - işğal altına düşən ərazilərimizdə hər şey dağıdılıb, şəhər və kəndlərimiz, tarixi abidələrimiz yerlə yeksan edilib. İşğaldan azad olunmuş ərazilərdə hələ də mina təhlükəsi qalmaqdadır. Ona görə də Azərbaycanın sülh çağırışları etməsi təsadüfi deyil. İqlim dəyişmələrinə qarşı mübarizə ilə yanaşı, Azərbaycan COP29-un sülh sahəsində növbəti uğur hekayəsinə və sülh konfransına çevrilməsi üçün səylər göstərir və bundan sonra da göstərəcək.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## *Baş danışıqçı:* "COP29 çərçivəsində 60 sənədin qəbul olunması nəzərdə tutulur"



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində 60 sənədin qəbul olunması nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev "29 İqlim Söhbəti: COP29-a gedən yol": "COP29 üçün effektiv kommunikasiya strategiyaları" media seminarında jurnalistlərə açıqlamasında deyib.

COP29-un böyükmiqyaslı qlobal proses olduğunu diqqətə çatdıran Yalçın Rəfiyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının proqramını açıqlayıb:

"Noyabrın 11-də Bakıda COP29-un açılış mərasimi baş tutacaq. Noyabrın 12-13-də hökumət rəsmilərinin sammiti keçiriləcək. Noyabrın 14-dən 22-dək artıq tematik günlər olacaq. Bu günlərdə mövzular kənd təsərrüfatı, ərzaq və digər sahələrlə bağlı olacaq. Bununla yanaşı, rəsmi və qeyri-rəsmi platformalar yaradılacaq. Dövlətlərin bu məsələdə konstruktiv yanaşması bizi sevindirir. Bu yaxınlarda COP29-un gündəliyində dayanan əsas məsələlərin müzakirəsi məqsədilə Şamaxıda nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində qeyri-formal məsləhətləşmələr keçirildi. Belə tədbirlər COP29-dək davamlı olaraq təşkil olunacaq. Ümumiyyətlə, noyabrın 11-dən 22-dək keçiriləcək COP29 çərçivəsində 20-dən çox rəsmi nümayəndə ilə enerji məsələləri, kənd təsərrüfatı, texnologiya və digər mövzularda 60-dan çox sənədin qəbul olunması gözlənilir. Bu, baş tutmuş son 5 Tərəflər Konfransı arasında ən çox sənədin qəbul olunacağı COP olacaq", - deyə Y.Rəfiyev vurğulayıb.

COP29 çərçivəsində maliyyələşmə mövzusunda bir sənədin (Yeni Kollektiv Kəmiyyət Hədəfi) qəbul olunacağını qeyd edən Yalçın Rəfiyev bildirib ki, bu sənəd əksər dövlətlər üçün bir növ Paris Sazişinin əhəmiyyətinin qalıb-qalmaması üçün bir sınaqdır: "Əgər bu sənəd qəbul olunsa, bütün inkişaf etməkdə olan ölkələr zəruri maliyyə ilə təmin olunacaqlar ki, öz iqlim fəaliyyətlərini maliyyələşdirsinlər. Hazırda ambisiyalar böyükdür. Bütün dövlətlər hesab edir ki, 1,5°C hədəfinə nail olmaq üçün ambisiyalı hədəflər seçmək lazımdır, misal üçün emissiyaları azaltmaq və s. Lakin bütün bu ambisiyalı fəaliyyəti reallaşdırmaq üçün maliyyə lazımdır. Buna görə də üç icra forması mövcuddur - maliyyə, texnologiyalar, qabiliyyət quruculuğu".

## COP29 Məlumat Mərkəzində "Ekoloji təmiz həyat tərzinə keçid" adlı tədbir təşkil edilib

COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən ekoloji həssas mövzulara ictimaiyyətin diqqətinin cəlb edilməsinə yönələn təşəbbüslərin davamı olaraq COP29 könüllülərinin dəstəyi ilə "Ekoloji təmiz həyat tərzinə keçid" adlı tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə təşkil olunmuş aksiya plastik tullantıların azaldılması, təkrar emal və istifadənin ekoloji faydalarının cəmiyyətə aşılanmasına xidmət edib.

Avqustun 23-də Bakının Dənizkənarı Bulvarında yerləşən COP29 Məlumat Mərkəzində baş tutan aksiya çərçivəsində paytaxt sakinləri tullantı hesab edilən plastik, kağız və batareya kimi istifadə olunmuş, həmçinin istismardan çıxarılmış müxtəlif əşyaların təhvil verilməsinə dəvət ediliblər. Tullantıların toplanması üçün Məlumat Mərkəzinin qarşısında təşkil edilmiş məntəqələrə gələn çoxsaylı sakinlər burada quraşdırılmış monitorlar vasitəsilə plastikdən istifadənin zərərli təsirləri, tullantıların düzgün utilizasiya qaydaları, kağızın təkrar emalı yolları, dayanıqlı həyat tərzi vərdişlərinin önəmi, ətraf mühitin qorunmasına töhfə vermək üçün praktiki həllər kimi mövzularda videoçarxlar vasitəsilə ətraflı məlumatlandırılıb. Aksiya nəticəsində toplanmış tullantılar qanunamüvafiq şəkildə utilizasiya edilməsi üçün "Təmiz Şəhər" ASC-yə və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumuna təhvil verilib.

# Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəyə öz töhfəsini verir

Azərbaycan noyabrda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcək. Ölkəmiz bu irimiqyaslı beynəlxalq tədbirə yüksək səviyyədə hazırlaşır. Səksən mindən çox qonaq - dünya ölkələrinin prezidentləri, baş nazirləri, digər rəsmi şəxsləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri Azərbaycana gələrək iqlim dəyişikliyi ilə bağlı məsələləri ətraflı müzakirə edəcəklər. Hansı ki, bu müzakirələrdə veriləcək qərarlar planetimizin gələcəyinə birbaşa təsir edəcək.

Son illər yaşanan iqlim dəyişikliyi hər bir ölkəyə, o cümlədən insanların həyatına mənfi təsir göstərməkdədir. Paris İqlim Sazişinə əsasən, qlobal istiləşmə sənayeləşmədən əvvəl olduğu kimi, 1,5°C səviyyəsində qalmalıdır ki, bu təsirlər minimuma ensin. Elə COP tədbirlərinin məqsədi də dünyada karbon qazının miqdarını 1,5°C ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır. Bir sözlə, bu öhdəliyin təmin olunması hər birimizin mənəvi borcudur. Lakin imkanlar tükənir və zaman keçir. Məqsəd qlobal istiləşməni nəzarətdə və temperatur artımını 1,5°C-dən aşağı saxlamaq üçün emissiyaların azaldılması istiqamətində əsaslı, çevik və dayanıqlı fəaliyyət göstərmək, bu təşəbbüs çərçivəsində bütün tərəfləri bir araya gətirməkdir.

"Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri, COP29 Təşkilat Komitəsinin üzvü Gülşən Axundova AZƏRTAC-a bu barədə danışarkən bildirib ki, 2015-ci ildə imzalanan Paris İqlim Sazişi iqlim dəyişikliyinə qarşı qlobal səyləri bir araya gətirən ən əhəmiyyətli beynəlxalq razılaşmalardan biridir. Sazişin əsas məqsədi qlobal temperatur artımını sənayedən əvvəlki dövrlə müqayisədə 2,0°C-dən aşağıda saxlamaq və daha iddialı hədəf olaraq bu artımı 1,5°C səviyyəsində məhdudlaşdırmaqdır. Bu hədəf iqlim dəyişikliyinin ən ağır nəticələrindən qaçmaq üçün zəruri hesab edilir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün Paris İqlim Sazişi ölkələrə öz milli töhfələrini təqdim etməyi öhdəlik kimi qoyur. Bu töhfələr çərçivəsində ölkələr karbon emissiyalarını azaltmaq, enerji effektivliyini artırmaq, bərpaolunan enerji mənbələrinə keçid etmək və digər müvafiq tədbirlər görmək üzrə planlar hazırlayırlar. Ölkələr bu planlarını hər beş ildən bir yeniləməli və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün addımlar atmalıdır.

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizə yalnız karbon emissiyalarının azaldılması ilə məhdudlaşmır. Bu, həm də iqlim dəyişikliyinin artıq mövcud olan və qaçınılmaz təsirlərinə uyğunlaşmağı nəzərdə tutur. Təsirlər arasında dəniz səviyyəsinin yüksəlməsi, ekstremal hava hadisələrinin artması, quraqlıqlar və daşqınlar, kənd təsərrüfatına və qida təhlükəsizliyinə təsirlər kimi məsələlər var. Bu səbəbdən, xüsusilə həssas bölgələrdə uyğunlaşma tədbirlərinin həyata keçirilməsi həyati əhəmiyyət daşıyır.

Paris İqlim Sazişinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığı təşviq etdiyini vurğulayan G.Axundova deyib: "İnkişaf etmiş ölkələr, iqlim dəyişikliyinə uyğunlaşma və emissiyaların azaldılması tədbirlərini həyata keçirmək üçün maliyyə, texnoloji və digər növ dəstək göstərmək öhdəliyini götürüblər. Bu, xüsusilə az inkişaf etmiş ölkələr və iqlim dəyişikliyinin təsirlərinə qarşı daha həssas olan ölkələr üçün vacibdir.

Bununla yanaşı, sazişin uğuru ölkələrin öz öhdəliklərini yerinə yetirməsi və beynəlxalq ictimaiyyətin bu prosesdə həmrəylik nümayiş etdirməsindən asılıdır. İqlim dəyişikliyinə qarşı qlobal səviyyədə mübarizə aparılmadığı təqdirdə, iqlim böhranının fəsadları daha da dərinləşəcək və bu, həm təbiətə, həm də insanlara geri dönməz zərərlər vuracaq.

Araşdırmalara görə, iqlim dəyişikliyi ilə mübarizəyə investisiyalar 7,1 trilyon ABŞ dolları həcmində gəlir gətirə bilər. Bu, yalnız gələcəkdə daha yüksək xərclərin qarşısını almaqla yanaşı, həm də innovasiyalara



təkan verəcək və bir çox əlavə sosial faydalar əldə etməyə imkan verəcək. Bu səbəbdən, 1,5°C hədəfini saxlamaq üçün bütün ölkələrin təcili, iddialı və koordinasiyalı tədbirlər görməsi tələb olunur. Bu, yalnız iqlim dəyişikliyinin fəlakətli nəticələrinin qarşısını almaq üçün vacib deyil, həm də uzunmüddətli perspektivdə əhəmiyyətli sosial-iqtisadi faydalar gətirə bilər.

Mütəxəssislər bildirirlər ki, 1,5°C hədəfinə nail olmaq üçün ilk növbədə karbon emissiyalarının dərhal və sürətlə azaldılması zəruridir. Bəzi ekspertlər bu məqsədə çatmaq üçün dünya ölkələrinin 2030-cu ilə qədər qlobal karbon emissiyalarını yarıya endirməli olduğunu vurğulayır. Emissiyaların azaldılması sahəsində atılacaq hər bir addım, xüsusilə kömür kimi yüksək karbonlu yanacaqlardan tədricən imtina edilməsi və bərpaolunan enerji mənbələrinə keçid strategiyaları həlledici rol oynayır. Mütəxəssislər həmçinin meşələrin bərpası, dayanıqlı kənd təsərrüfatı metodlarının tətbiqi və təbiətin qorunması kimi təbii həll yollarının da vacibliyini qeyd edirlər.

Yeri gəlmişkən, IPCC-nın (Beynəlxalq İqlim Dəyişiklikləri üzrə Hökumətlərarası Panel) 2018-ci il hesabatında 1,5°C hədəfinin əhəmiyyəti vurğulanıb. Hesabata əsasən, qlobal istiləşməni 1,5°C səviyyəsində saxlamaq üçün dərhal, sürətli və genişmiqyaslı dəyişikliklər tələb olunur. IPCC ekspertləri qeyd edirlər ki, bu hədəfə çatmaq iqlim dəyişikliyinin ən pis təsirlərindən qaçmağa kömək edəcək, lakin buna nail olmaq üçün dünya ölkələri çox ciddi tədbirlər görməlidir.

Paris İqlim Sazişinin keçmiş rəhbəri Christiana Figueres sazişin uğurla həyata keçirilməsinin əsas simalarından biridir. O, tez-tez vurğulayır ki, 1,5°C hədəfi yalnız texniki məsələ deyil, həm də insanların, xüsusilə həssas icmaların həyatını qorumaq üçün zəruridir. Davamlı infrastrukturun yaradılması, bərpaolunan enerjiyə keçid və maliyyə sektorunun daha "yaşıl iqtisadiyyat"lara yönəldilməsi vacib amildir.

Beynəlxalq Enerji Agentliyi (IEA) də 1,5°C hədəfinə nail olmaq üçün enerji sektorunda inqilabi dəyişikliklərin vacibliyini vurğulayır. Agentliyin hesabatına görə, bərpaolunan enerji mənbələrinə böyük sərmayələr qoyulmalı və fosil yanacaqlardan istifadə kəskin şəkildə azaldılmalıdır. IEA-nın proqnozlarına əsasən, 2050-ci ilə qədər sıfır karbon emissiyasına çatmaq üçün qlobal enerji sistemində köklü dəyişikliklər tələb olunur.

Bu misallar göstərir ki, 1,5°C hədəfi üzrə qlobal səylər yalnız qlobal istiləşməni məhdudlaşdırmaq üçün deyil, həm də planetimizin ekosistemlərini və insanların rifahını qorumaq üçün əsasdır.

COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ötən il dekabrın 11-də Birləşmiş Ərəb Əmirliklərinin evsahibliyi etdiyi COP28-in plenar iclasında verilib. Bu qərarın qəbulu neft-qaz ölkəsi kimi tanınan Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə səylərinin, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətinin yüksək qiymətləndirildiyini bir daha göstərir. Bir sözlə, Azərbaycanın dünyanın ən böyük tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti qələbəsidir. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla, qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə də qoşulub. Konvensiyanın ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab oluna bilən bütün müdaxilələrin qarşısını almaqdır. Xatırlatmaq yerinə düşər ki, 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib və bu istiqamətdə ölkəmizdə mühüm tədbirlər həyata keçirilir.




# Sənaye məhsulları istehsalında artım dinamikası yüksəkdir

**Hazırda dünya iqtisadiyyatı özünün çətin dövrünü yaşayır. Son statistikaya görə, ABŞ-də, Avropa İttifaqında və Çində iqtisadi artımda geriləmə müşahidə olunur. Ekspertlər bunun qlobal səviyyədə baş verən siyasi-hərbi qarşıdurmalar və onun davamı olan iqtisadi-maliyyə sanksiyaları ilə bağlı olduğunu bildirirlər.**



Azərbaycan liberal iqtisadiyyata malik və dünyaya açıq ölkədir. O üzdən dünyada baş verən bu və digər proseslər ölkəmizə təsirsiz ötüşmür. Lakin aparılan iqtisadi islahatlar ölkə iqtisadiyyatının dayanıqlığını və sabitliyini təmin etməkdə, necə deyərlər, əlimizdən tutur. Cari ilin yanvar-iyul ayları üzrə Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər ölkə iqtisadiyyatında müsbət dinamika olduğunu göstərir. Həmin rəqəmlərdən məlum olur ki, 7 ay ərzində ölkə üzrə 37,3 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə neft-qaz sektorunda 1,1, qeyri-neft-qaz sektorunda 8 faiz artım deməkdir. Sənaye məhsulları istehsalının 81,6 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Hesabat dövründə ümumi istehsalın 89,8 faizi istehsal, 10,2 faizi sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına formalaşmışdır.

Məlumdur ki, ölkə iqtisadiyyatında neft-qaz sektoru önəmli rol oynayır. Başqa sözlə, hələlik ölkənin əsas gəlir mənbəyi bu sektorun hesabına formalaşır. Cari ilin yanvar-iyul aylarında mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 24,2 milyard manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz artmışdır. O cümlədən sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 16,9 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 22,5 milyard kubmetr təşkil etmişdir.

Emal sektorunda da rəqəmlər müsbət dinamikadan xəbər verir. Təkcə bir fakt: hesabat dövründə ölkə üzrə emal sektorunda 10 milyard 901,1 milyon manatlıq məhsul istehsal olunmuş və ya sənaye xarakterli xidmətlər göstərilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 15,8, tütün məmulatları istehsalında 11,2, qida məhsulları istehsalında 6,2 faiz artım müşahidə olunmuşdur. Bu aylar ərzində ən yüksək artım viski (2,7 dəfə) və tütün istehsalında (2,6 dəfə) qeydə alınmışdır. Taxılçılıq sənayesi, geyim, dəri və dəri məmulatlarının, ayaqqabı, kimya sənayesi və əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalında da artım müşahidə olunmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə əczaçılıq məhsullarının istehsalı 69,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 25,3, kimya sənayesi məhsullarının istehsalı 8,2 faiz artmışdır. Kimya sənayesi məhsullarından karbamid istehsalı 94, metanol istehsalı 13,2, azot istehsalı 0,9, məsaməli plastik kütlədən sair plastmaslar, lövhələr istehsalı 60,4, polietilendən kisə və çantalar istehsalı 41,9, plastmas su qabları, flakonlar və oxşar məmulatlar istehsalı 21,3 faiz, rezin və plastik kütlə məmulatlarından polietilendən başqa digər plastmas kisələr və çantalar istehsalı da 3 dəfə çoxalmışdır.

İndiki halda ölkəmizdə tikinti materiallarının istehsalının artımı vacibdir. İşğaldan azad edilən ərazilərdə icra edilən nəhəng layihələrin vaxtında başa çatdırılması üçün bu sahənin məhsullarına tələbat böyükdür. Tələbatın artması isə daha çox məhsul istehsalını stimullaşdırır. Təkcə cari ilin yanvar-iyul aylarında tikinti materialları istehsalının ümumi dəyəri 779,7 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 30,2 faiz çoxdur. 7 ayda sementdən, betondan kərpiclər və oxşar məmulatların istehsalı 2,3 dəfə, asfalt istehsalı 56,2, beton istehsalı 31,9, betondan yığma tikinti konstruksiyaların istehsalı 25,6, sement istehsalı 12,8, tikinti gipsinin istehsalı 10,4 faiz artmışdır.

Bundan başqa, ölkəmiz üçün bir o qədər ənənəvi sahə olmayan kompüter, elektron və optik məhsullar və elektrik avadanlıqları istehsalında da artım var. 7 ay ərzində 139,7 milyon manatlıq məhsul istehsal olunmuş bu sahədə ötən ilin eyni dövrünə nisbətən kompüter, elektron və optik məhsulların istehsalı 73,6, elektrik avadanlıqlarının istehsalı 33,9 faiz, noutbukların istehsalı isə 2,2 dəfə artmışdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Regionun ən uzun dəmir yolu körpüsünü yerli mühəndislər layihələndiriblər

**Horadiz-Ağbənd dəmir yolu layihəsi çərçivəsində 40-dan çox körpü və 330-ə yaxın mühəndislik qurğusunun tikintisi nəzərdə tutulub.**

Bunu "Trend"ə açıqlamasında "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin şöbə müdiri Fəryaz Rüstəmov deyib. O bildirib ki, Horadiz-Ağbənd dəmir yolunun Həkəri çayının üzərindən keçən hissəsində regiondakı ən uzun dəmir yolu körpüsü inşa edilir.

"Bu körpü 771 metr uzunluqda və 23 aşırımdan ibarətdir. Texniki cəhətdən çətin və mürəkkəb relyef şəraitində inşa edilməsinə baxmayaraq, körpü tamamilə yerli mühəndislər tərəfindən layihələndirilib və tikinti işləri yerli mütəxəssislər tərəfindən uğurla idarə olunur.

Bu, ölkəmizin mühəndislik potensialının nə qədər yüksək olduğunu və yerli kadrların mürəkkəb infrastruktur layihələrində nə dərəcədə peşəkar olduğunu göstərir", - deyə o bildirib.

Qeyd edək ki, 2025-ci ildə tamamlanması planlaşdırılan Horadiz-Ağbənd dəmir yolu layihəsi həm beynəlxalq kommunikasiya xətləri, həm də daxili logistika baxımından strateji əhəmiyyətə malikdir. Fəryaz Rüstəmov bildirib ki, daxili logistikanın optimallaşdırılması sayəsində ölkəmizdə istehsal olunan məhsulların sürətli və etibarlı şəkildə beynəlxalq bazarlara çıxışı təmin olunacaq və bu, ölkəmizin iqtisadiyyatına böyük təsir göstərəcək.

"Azərbaycan tranzit ölkə rolunu daha da gücləndirir və regionda sülh və sabitlik proseslərinə töhfə verir. Bu layihə fiziki olaraq Azərbaycanı Naxçıvana birləşdirmək, eləcə də ölkəmizin Avropa və Asiya arasındakı əsas yollardan birinə çevrilməsi üçün böyük potensiala malikdir", - deyə o qeyd edib.



# Pensiya, müavinət, təqaüd, ünvanlı yardımlar üzrə əhaliyə 5,1 milyard manat vəsait ödənilib

**Sosial ödənişlərə yönəldilən vəsaitlərdə artım dinamikası 2024-cü ilin 7 ayında da davam edib.**

Cari ilin yanvar-iyul ayları ərzində pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə 5 mlrd. 116 mln. manat vəsait ödənilib. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 468,7 mln. manat və ya 10,1 faiz çoxdur.

# ƏƏSMN-in e-xidmətlərinə 20,8 milyon müraciət qeydə alınıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə 2024-cü ilin yanvar-iyul aylarında 20,8 milyon müraciət qeydə alınıb.**

Ölkənin sosial reyestri olan e-sosial.az portalından həmin dövrdə 3,2 milyon dəfə istifadə olunub. 150 min təyinat e-infrastruktur üzərindən proaktiv qaydada həyata keçirilib.

Son illərdə sosial sahədə geniş elektronlaşma proqramı icra olunub. Hazırda nazirliyin 160 xidmətindən 145-i və ya 90 faizdən çoxu elektron qaydada təqdim edilir. Həmçinin 50-dən çox proaktiv xidmət, geniş funksional imkanlara malik e-sosial.az portalı, "Əmək və Məşğulluq" altsistemi yaradılıb. Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlardan sorğular da daxil olmaqla, bu ilin 7 ayında nazirliyin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 410 milyon olub.

# "Aztelekom" MMC internet sürətinin zəifliyi və abunə şərtlərinin pozulması mövzusuna münasibət bildirib

**MMC-nin rəsmi açıqlamasında bildirilir ki, internetin sürətinin zəifliyi ilə bağlı müraciətlərin qeydiyyatı zamanı problemlərin əsas 3 səbəbdən qaynaqlandığı müşahidə olunur.**

"Cihazların uyğunluğu. İnternet sürətinin 100 Mbit/s olması üçün abunəçinin istifadə etdiyi cihazlar (kompüter, notbuk, telefon və s.) bu sürəti dəstəkləməlidir. Əgər cihazın şəbəkə adapteri və ya Ethernet portu 100 Mbit/s və ya daha yüksək sürəti dəstəkləmirsə, real sürətin aşağı olması müşahidə olunur.

Modem və marşrutlaşdırıcının konfiqurasiyası. Modem və ya marşrutlaşdırıcının konfiqurasiyası düzgün aparılmadıqda internet sürəti məhdudlaşa bilər. Məsələn, modem köhnə versiyadadırsa və ya düzgün konfiqurasiya olunmayıbsa, yüksək sürətləri təmin edə bilməz. Həmçinin Wi-Fi marşrutlaşdırıcılarının bəzi parametrləri (kanal seçimi, bant genişliyi) düzgün qurulmadıqda Wi-Fi üzərindən internet sürətinin əhəmiyyətli dərəcədə azalması müşahidə olunur.

Dalğaların konfiqurasiya olunmaması. Wi-Fi dalğalarının yayılması ətraf mühitdən və istifadə olunan dalğa bantlarından asılıdır. Məsələn, 2.4 GHz bantı daha geniş əhatə dairəsini təmin etsə də, daha aşağı sürətlər təqdim edir və müdaxilələrə daha həssasdır. 5 GHz bantı isə daha yüksək sürətlər təmin etsə də, əhatə dairəsi məhduddur. Əgər bu dalğalar düzgün konfiqurasiya olunmayıbsa, internet sürəti azalacaq.

Yarana biləcək hər hansı texniki nasazlıqlarla qarşılaşdıqları halda "Aztelekom" abunəçilərindən "170", "Baktelekom" abunəçilərindən isə "155" Çağrı mərkəzinə müraciət etmələri xahiş olunur".

# Kapital siyasi sakitlik və iqtisadi sabitlik sevir

## 7 ayda ölkə üzrə sərmayə qoyuluşu 9,4 milyard manatdan çox olub

**Hazırda dünya üzrə kapital qoyuluşunda bir durğunluq və geriləmə müşahidə olunur. Çünki pul, sərmayə sakitlik və sabitlik sevir. Sakitlik və sabitliksə, məlum olduğu kimi, yoxdur. Müharibələr, qarşıdurmalar, qarşılıqlı sanksiyalar dünyanı çənginə alıb gedir. Harayacan və nə vaxtacan gedəcəyi isə məlum deyil.**



Rusiya-Ukrayna müharibəsinin yeni fazaya keçməsi, münaqişənin daha da genişlənməsi yaxşı heç nə vəd etmir. Digər tərəfdən, Çin-ABŞ münasibətləri də getdikcə gərginləşir, ölkələr arasında qütbləşmə dərinləşir. Qlobal səviyyədə qarşılıqlı etimad və anlaşmanın pozulması isə iqtisadi münasibətlərə, ilk növbədə faydalı ticarətin aparılmasına, kapital qoyuluşuna öz mənfi təsirini göstərir. Hazırda dünya ticarətində və kapital qoyuluşunda mövcud olan geriləmə göz önündədir. Digər bir faktor ABŞ-də baş tutacaq seçkilərlə bağlıdır. Heç kəs bu ölkədəki seçkilərdən sonra hansı proseslərin baş verəcəyini dəqiq bilmir.

Azərbaycan da bu dünyanın bir hissəsi, özü də fəal hissəsi olduğundan bütün bu proseslərin fəsadlarını yaşamalı olur. Ölkəmizə xarici sərmayə qoyuluşunun azalması da bu səbəbdəndir. 10 il bundan əvvəl Azərbaycan xarici kapital qoyuluşuna görə MDB məkanında lider ölkə idi və hətta bir sıra Şərqi Avropa ölkələrindən də öndə gedirdi. Səbəb məlum idi - dünyada indiki ilə müqayisədə sakitlik idi, investisiya mühiti var idi.

Bu gün də ölkəmiz dünyada baş verən neqativ proseslərin fərqindədir. O üzdən iqtisadiyyatdakı müsbət dinamikanı qorumaq üçün daxili mənbələr hesabına kapitallaşmaya üstünlük verir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9 milyard 438,7 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çox investisiya yönləndirilmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 0,4, qeyri-neft-qaz sektoruna yönəldilən sərmayənin həcmi isə 2,9 faiz artmışdır. Ümumi sərmayənin 4 milyard 914,8 milyon manatı məhsul istehsalı, 3 milyard 404,4 milyon manatı xidmət sahələrinin, 1 milyard 119,5 milyon manatı isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Hesabat dövründə ümumi sərmayənin 57,1 faizi dövlət, 42,9 faizi qeyri-dövlət sektorlarının sərmayədarları tərəfindən qoyulmuşdur. Təxminən 6 faizlik fərq qeyd etdiyimiz səbəb üzündəndir.

Statistikanın məlumatında ölkə iqtisadiyyatına yatırılan sərmayənin 70,3 faizinin tikinti-quraşdırma işlərinə sərf edildiyi vurğulanır. Bu da əsasən ona görədir ki, işğaldan azad edilən ərazilərdə Böyük qayıdış proqramı çərçivəsində nəhəng layihələr icra olunur. Məqsəd 30 il doğma torpaqlardan didərgin düşən soydaşlarımızın tez bir zamanda doğma yerlərinə qayıtmasını təmin etməkdir ki, bunun da əsas ağırlığı, daha doğrusu, xərci dövlətin üzərinə düşür.

Dünya üzrə kapital qoyuluşundakı çətinliklərə baxmayaraq, ölkəmizə xarici sərmayə qoyuluşu davam edir. Bu, ölkəmizə olan inamdan, yəni Azərbaycandakı siyasi sabitlikdən və ölkə iqtisadiyyatındakı dinamik inkişafdan irəli gəlir. Üstəlik, ölkəmizdə xarici sərmayənin qorunması üçün mükəmməl qanunvericilik bazası mövcuddur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə təkcə Birləşmiş Krallıq, ABŞ, İsveçrə, Türkiyə, Yaponiya, Rusiya, Norveç, İran, Hindistan, Qırğızıstan, BƏƏ və Fransa sərmayədarları ölkəmizə 1,6 milyard manatdan çox sərmayə qoymuşlar.

***R.MÜTƏLLİBOV,***
***"Azərbaycan"***

# Bakıda velosiped kirayəsi xidməti fəaliyyətə başlayıb

**Paytaxtda ilk "bike-sharing" (velosiped kirayəsi) xidməti fəaliyyətə başlayıb.**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, velosipedi icarəyə götürməyə, səyahət etməyə və istənilən parklanma yerinə qaytarmağa imkan verən sistem sakinlərə və turistlərə şəhərdə təhlükəsiz və davamlı səyahətlər etmək üçün əlverişli imkanlar yaradır. Velosiped kirayəsi xidməti istifadəçiləri tıxac və parkinq kimi qayğılardan da azad edir.



Bakı şəhərində mikromobillik vasitələrinin parklanması üçün yaradılan 50-yə yaxın məntəqədə müvafiq konstruksiyalar quraşdırılıb, velosipedlərin kirayə qaydası barədə məlumatları əks etdirən lövhələr yerləşdirilib. Parklanma məntəqələri yaradılarkən onların metro stansiyalarına, avtobus dayanacaqlarına, təhsil müəssisələrinə və iri ticarət mərkəzlərinə yaxın olması nəzərə alınıb. Məlumat lövhələri üzərində QR-kodlar təsvir edilib. Mobil cihazlarda həmin QR-kodlar vasitəsilə proqram təminatına keçid edərək velosipedlərin aktiv və deaktiv olması prosesini yerinə yetirmək mümkündür. Tətbiq vasitəsilə ən yaxın parklanma yerlərini görmək də olar.

Qlobal statistikalara əsasən, velosipedi nəqliyyat növü halına gətirmiş şəhərlərdə baş verən yol nəqliyyat hadisələrinin sayı 24-30 faiz aralığında azalır. Pedal və elektrikli velosipedlərin istifadəsi daha təmiz şəhər mühitinə töhfə verir. Velosiped sürmək fiziki aktivliyi artırır və daha sağlam cəmiyyətə dəstək olur.

Qeyd edək ki, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən Bakı şəhərində mikromobillik infrastrukturunun inkişaf etdirilməsi məqsədilə həyata keçirilən layihə çərçivəsində ilk mərhələdə 10 km-dən artıq davamlı mikromobillik zolağı təşkil edilib, avtomobillərlə yarana biləcək münaqişəli nöqtələrin aradan qaldırılması üçün təhlükəsizlik sədləri quraşdırılıb, şəhərdə mövcud olan işıqfor dirəklərində velosiped bölmələrinin quraşdırılması işləri davam edir.

# *Qərbi azərbaycanlı:* "Mən öz doğma yurdumda cəmi on səkkiz il yaşaya bildim"

Tarixin müxtəlif dövrlərində ermənilər və onların havadarları tərəfindən Azərbaycan torpaqlarının erməniləşdirilməsi məqsədilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində yüz minlərlə soydaşımız öz ata-baba yurdundan didərgin salınıb. Deportasiya qurbanları təkcə öz yurd-yuvalarından qovulmayıb, həm də misli görünməmiş işgəncələrə, qırğınlara, soyqırımına məruz qalıblar. Bu deportasiyalardan sonuncusu 1988-ci ildən başlayaraq bir neçə il davam edib. Sonuncu deportasiya zamanı Qərbi Azərbaycandan qovulan soydaşlarımızdan biri də Sevil Abbasovadır. AZƏRTAC-la xatirələrini bölüşən Sevil Abbasova Qərbi Azərbaycanın Dərəçiçək mahalında doğulub.



Artıq 17 ildir İstanbulda yaşayan, uşaqlığının ən gözəl illərinin isə Qərbi Azərbaycanda keçdiyini bildirən həmvətənimiz deyib: "Həyatımın yaddaş kitabçasına dönüb baxdığımda cəmi 18 səhifədən ibarət olduğunu görürəm. Hərdən özümü 18 yaşda hiss edirəm, ya da bu, mənim üçün bir təsəllidir, bilmirəm. Çünki mən öz doğma yurdumda cəmi on səkkiz il yaşaya bildim. Bu yaşımadək xatirəmdə qalan ən xoş günlərim uşaqlığıma aiddir. Ən gözəl arzularımı, ən şirin yuxularımı Dərəçiçəkdə qoyub çıxdım. Kəndimizi bir an belə unuda bilmirəm. Orada hər şey o qədər gözəl idi ki... Təbiətimiz, insanlarımızın arasındakı mehribanlıq, məktəbimiz heç yadımdan çıxmır. Biz toylarımızı da, yaslarımızı da birlikdə keçirirdik. Mən 1988-ci ilə qədər qayğı, həsrət, nifrət, kin kimi hisslərin nə olduğunu bilməmişəm".

Babasının valideynlərinin 1915-ci ildə İrəvandan qovulduqlarını deyən müsahibimiz sözlərinə belə davam edib: "O deportasiyadan sonra ailəmin sağ qalan üzvlərinin bəziləri Azərbaycanda, bəziləri isə Türkiyənin İğdır şəhərində məskunlaşıblar. Babam 12 yaşında Ağrı dağını keçərək yenidən İrəvana qayıdıb. Lakin orada heç bir qohum-əqrəbasını tapa bilməyib. Onun demək olar ki, bütün doğmaları 1915-ci ildə erməni daşnakları tərəfindən amansızlıqla qətlə yetiriliblər. Deportasiya zamanı yolda soyuqdan-çovğundan donaraq dünyasını dəyişənlər də olub. Babamı o kənddə bir ailə himayəyə götürüb və orada boya-başa çatıb. Sonradan İğdırda olan qohumlarını tapıb və onlarla məktublaşmağa başlayıb. Bu məktubları atam yazırdı. Atam o vaxt Dərəçiçəyin Axundov kəndində məktəb direktoru işləyirdi. Heç yadımdan çıxmır, bir gün qapımız döyüldü və heç bir açıqlama verilmədən polislər atamı apardılar. İki gün sonra isə o evə qayıtdı. Ermənilər atamın Türkiyədəki qohumları ilə məktublaşdığını öyrənmişdilər və ondan Türkiyədən bəzi xəbərlərin Ermənistana ötürülməsində vasitəçi olmağı, yəni casusluq tələb ediblər. Bunu qəbul etmədiyi üçün isə bir çox işgəncələrə məruz qoyublar. O, qayıtdıqdan sonra yenidən məktəbdə öz işini davam etdirdi".

Ermənilərin 1988-ci ildə Qarabağ məsələsini ortaya atdıqlarında İrəvanda universitetdə oxuduğunu xatırlayan həmsöhbətimiz o vaxtlar erməni daşnaklarının soydaşlarımıza qarşı açıq şəkildə düşmənçilik nümayiş etdirdiklərini deyib: "İrəvanın küçələrində etiraz aksiyaları, Ermənistan televiziyasında isə azərbaycanlılara qarşı uydurma filmlər yayımlanmağa başladı. Vəziyyət getdikcə pisləşirdi. Bir gün universitetdə dərsdə idik və xəbər gəldi ki, bir qrup erməni universitetin qarşısında toplanaraq azərbaycanlı tələbələrin çıxmasını gözləyir. Onlar bizi ölümlə hədələyirdilər. O gün dekanımız Knyaz Mirzəyevin sayəsində sağ-salamat evimizə qayıtdıq. Atam vəziyyətin getdikcə pisləşdiyini görərək elə gecə bizi və əmimin uşaqlarını bir maşına yığıb yola çıxdı. Hamımız həm kədərli idik, həm də çox qorxurduq. Bu, bizim öz doğma kəndimizlə son görüşümüz oldu. Hər birimiz üçün olduqca çətin idi. Göz yaşlarımız dayanmadan axırdı. Axı ora bizim evimiz idi... Atam çox böyük çətinliklə bizi Gəncəyə çatdıraraq geriyə döndü. Anam və bütün qohumlarımız kənddə qalmışdı. Elə o ərəfədə də atamın xalası qızının evinin ermənilər tərəfindən yandırıldığı xəbərini aldıq. Xatırlamaq belə çox çətindir..."

Artıq doğma evlərindən ayrıldığı gündən 36 il keçdiyini qeyd edən Sevil Abbasova deyib: "Ailəmizdən iki nəfər qalıb, mən və bacım. Atam və anam isə rəhmətə gediblər. Mən və bacım atamın Türkiyədə məskunlaşan əmisi oğlunun nəvələri ilə ailə qurmuşuq. Yəni iki bacı iki qardaşla evləndik. İki övladım var, çox şükür... Yəni həyat davam edir. Bəzən ömrümüzdə elə məqamlar olur ki, onlar həyatın axarını dəyişir və heç vaxt unudulmur. Lakin mən Vətənimizə dönəcəyimizə, o yerlərə qovuşacağımıza olan inamımı heç vaxt itirmədim. O günün mütləq gələcəyinə çox əminəm. Qarabağ Zəfərini görəndən sonra isə bu inam dəfələrlə artdı. Bir vaxtlar xəyal etdiyimiz Şuşamıza, Kəlbəcərimizə gələn bahar Qərbi Azərbaycana da gələcək. Bizim qəlbimizdəki Vətən sevgisini, oralara qayıtmaq ümidini nə ermənilər, nə də onların havadarları söndürə bilər. Mən bu ümidin, bu həsrətin Qərbi Azərbaycandan olan hər kəsin ürəyində yaşadığını bilirəm. Məhz elə bu səbəbdən biz - qərbi azərbaycanlılar Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsində var gücümüzlə iştirak etməliyik".


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
TARİXİ səfərdə məqam
BİZ MÜTTƏFİQİK

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# *ÜST:* Meymunçiçəyi xəstəliyinin yayılmasının qarşısını almaq mümkündür

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus bildirib ki, yeni "mpox" virusunun yayılmasının qarşısını almaq mümkündür. AZƏRTAC xəbər verir ki, təşkilatın rəhbəri keçirdiyi brifinqdə deyib: "Yeni "mpox" epidemiyası idarə oluna və dayandırıla bilər. Bunun üçün beynəlxalq agentliklər, milli və yerli tərəfdaşlar, vətəndaş cəmiyyəti, tədqiqatçılar və istehsalçılar, habelə üzv dövlətlərimiz arasında razılaşdırılmış qarşılıqlı fəaliyyət tələb olunur".



2022-ci ildən bəri ÜST-də 100 mindən çox təsdiqlənmiş "mpox" hadisəsinin qeydə alındığını deyən Baş direktor əlavə edib ki, Afrikada virusun misli görünməmiş səviyyədə artımı müşahidə olunur. O vurğulayıb: "2024-cü ildə qeydə alınan yoluxma hallarının 90 faizi Konqo Demokratik Respublikasında baş verib. Təkcə bu il 16 mindən çox insan bu xəstəliyə tutulub, o cümlədən 575 ölüm hadisəsi olub".

Virusun beynəlxalq narahatlıq doğuran ictimai səhiyyə fövqəladə halı elan edilməsinə aydınlıq gətirən Qebreyesus deyib ki, keçən ay virusun "Clade 1b" ştamına yoluxma təkcə Konqo ilə qonşu olan Burundi, Keniya, Ruanda və Uqandada deyil, həm də Tailand və İsveçdə qeydə alınıb.

ÜST və tərəfdaşlarının əlaqələndirilmiş qlobal, regional və milli səylər vasitəsilə epidemiyanın qarşısını almaq üçün qlobal strateji hazırlıq planı hazırladığını qeyd edən Baş direktor bildirib: "Plan hərtərəfli nəzarət və cavab tədbirləri strategiyasının həyata keçirilməsinə yönəlib, həmçinin elmi tədqiqatın inkişafı və tibbi əks tədbirlərə ədalətli çıxışı, yoluxma səviyyəsinin minimuma endirilməsini və icmaların epidemiyanın qarşısının alınmasında və ona nəzarətdə fəal iştirak etmək səlahiyyətinin artırılmasını ehtiva edir.

ÜST-nin virusa qarşı hazırlığı artırmaq və cavab tədbirlərinin koordinasiyanı gücləndirmək məqsədilə beynəlxalq, regional, milli və yerli tərəfdaşlarla genişspektrli iş apardığını diqqətə çatdıran Qebreyesus qeyd edib ki, təşkilatın Afrika Regional Ofisi ("Africa CDC") bu prosesə hökumətlərlə birlikdə rəhbərlik edəcək. Afrika bölgəsində "mpox" virusuna cavab səylərinin koordinasiyası Efiopiyada yerləşən "Africa CDC" ilə əməkdaşlıq şəraitində aparılacaq.

# "Azad olunmuş torpaqlarda təhsil almaq mənim üçün böyük sevinc və qürurdur"

Yardımlı rayonunun Bozayran kənd tam orta məktəbinin məzunu Səma Əzimli bu il ali məktəblərə qəbul imtahanında 625,9 bal toplayaraq Qarabağ Universitetinin Hüquqşünaslıq ixtisasına qəbul olub.




AZƏRTAC xəbər verir ki, Səma Əzimli uşaqlıqdan hüquq üzrə təhsil almaq arzusu ilə yaşayıb. Qarabağ Universitetinin yaranmasından sonra bu arzusunu daha da konkretləşdirib. Əvvəlcə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olmaq istəyən Səma, Qarabağ Universitetinin yaranması ilə bu möhtəşəm təhsil müəssisəsində oxumağı qarşısına məqsəd qoyub.

"Hüquqşünas olmaq mənim uşaqlıq xəyalım olub, hər zaman prokuror olmağı qarşıma məqsəd qoymuşam. Ailəm də bu yolda mənə çox dəstək verib. Əvvəlcə Qarabağda təhsil alacağımı təsəvvür etmirdim, amma bu universitet yaranan kimi təhsilimi orada davam etdirməyi qərara aldım. Şəhid qanı ilə azad olunmuş torpaqlarda təhsil almaq mənim üçün böyük sevinc və qürurdur", - deyə Səma Əzimli bildirib.

Səmanın atası Şamo Əzimov da böyük sevinc içindədir. O deyib: "Səmanın orta məktəb dövründə sərgilədiyi əzmkarlıq, çalışqanlıq və intizam bu uğurun əldə edilməsindəki əsas amillərdən biridir. Qarabağın azad edilməsi və Səmanın orada ali təhsil almaq imkanı bizi həm sevindirir, həm də qürurlandırır. İllərdir həsrətlə gözlədiyimiz bu anı və sevinci sözlə ifadə edə bilmirəm. Səmanın bu uğuru, həmçinin onun müstəqil düşünmə qabiliyyəti, yüksək motivasiyası və yaradıcı yanaşmalarının nəticəsidir. Biz əminik ki, o, ali məktəbdə də eyni dərəcədə əzmlə oxuyacaq, yeni biliklər əldə edəcək və gələcəkdə ölkəmizin inkişafına töhfə verəcək".

Səma gələcəkdə ali məktəblərə imtahan verəcək abituriyentlərə də tövsiyələrini verib. "Yüksək nəticə əldə etməyin əsas sirri qarşıya qoyduğun yoldan geri dönməməkdir. Ali məktəblərə hazırlaşanlar yorulmadan çalışmalı, bilik və bacarıqlarını daha da inkişaf etdirməlidirlər", - deyə o bildirib.

# Londonda köləlik qurbanlarının xatirəsinə həsr edilən ilk abidə layihəsinin təqdimatı olub

Londonda Transatlantik köləliyi qurbanlarının xatirəsinə ilk xatirə abidəsi açılacaq. AZƏRTAC xəbər verir ki, London meriyası cümə günü, avqustun 23-də keçmişlə və onun irsi ilə üzləşmək istiqamətində atılan addım kimi qiymətləndirdiyi çoxdan gözlənilən abidənin layihəsini təqdim edib.

"Reuters" xəbər verir ki, memorial Londonun şərqindəki Vest İndia sahilyanı ərazisində yerləşəcək; burada XIX əsrin əvvəllərində meriya tərəfindən "köləlik məhsulları" adlandırılan Karib regionunda yetişdirilən şəkər anbarları tikilib.



London merinin icmalar və sosial ədalət üzrə müavini Debbi Uiks-Bernard qalib layihəni elan edərək deyib: "Biz bilirik ki, Londonun sərvətinin çox hissəsi qulların əməyi ilə yaradılıb". Artıq 300 ildən çoxdur ki, Britaniya gəmiləri üç milyondan çox afrikalı qulu Atlantik okeanı üzərindən daşıyıb və London şəhəri bu ticarətin maliyyə mərkəzi olub.

Şəhər meri Sadiq Xan deyib: Londonun küçələrinin, heykəllərinin və abidələrinin ortaq tariximizi əks etdirməsi vacibdir və bu memorial londonlulara insanlarla bu dəhşətli rəftarda paytaxtın rolunu xatırlatmağa və öyrətməyə kömək edəcək".

Dizayner Haleb Bruksun yaratdığı memorial qul ticarətində bütün Afrikada pul vahidi kimi geniş istifadə olunan kauri qabıqlarının bir formasıdır. Onun içərisində kölələrin adları həkk olunacaq. Memorialın inşası 2026-cı ildə başa çatacaq.

# Utilizasiya zavodunun tikintisi ilə bağlı çexiyalı investorlar növbəti dəfə Lənkəranda olublar

Məişət tullantılarının idarə olunması məsələləri ilə bağlı ölkəmizdə səfərdə olan çexiyalı investorlar Jan Strunc, Soukup Dusan, Vaclav Vasicek və Marek Veleba Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısının birinci müavini Mikayıl Cəfərzadə ilə görüşüblər.



Görüşdə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq yüksəkkeyfiyyətli ekoloji mühitin yaradılması üçün tullantıların səmərəli idarə olunmasının önəminə diqqət çəkilib.

Xarici investorlar sözügedən məsələ ilə bağlı ötən il iki dəfə şəhər icra hakimiyyəti başçısı ilə görüşdüklərini və daha sonra mərkəzi icra hakimiyyəti orqanları ilə müvafiq müzakirələr apardıqlarını bildiriblər.

Təqdim olunan layihə təklifi ilə bağlı ilkin texniki-iqtisadi əsaslandırma parametrləri və layihənin icrası üçün tələb olunan digər müvafiq məlumatlar təqdim edilib.

Hazırda layihənin təsdiqi və icrası ilə bağlı son tamamlama işləri aparılır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var

Azərbaycanda avqustun 25-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.



Avqustun 25-də Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 26-27°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 22-27°, gündüz 33-38° isti, dağlarda gecə 13-18°, gündüz 20-25° isti olacağı ehtimal edilir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3991**
**Sifariş 1865**

**Qiyməti 60 qəpik**